

# Prezident vətəndaşlara müraciət etdi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. "Unikal" xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.*

Səh.3

UNİKAL

№05 (2043) 05 fevral 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Səlim Müslümov həbs edildi

## Keçmiş nazir hansı cinayətlərdə ittiham olunur; başqa bir sual - növbədə kimlər var?

*Azərbaycanın sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov cinayət məsuliyyətinə cəlb olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məlumatına görə, Müslümov Səlim Yanvar oğlunun Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar DTX-də araşdırılıb.*

Səh.8

Səh.2



# Əli Əsədovun idarəçiliyinin qüsurları üzə çıxır

## "Bəzi məmurlar Qarabağı bölüşdürmək eşqinə



*Vətən Müharibəsindən sonra doğma Qarabağa qayıdış məsələsi gündəm olub. Bəzi məmurların bundan fürsət kimi istifadə etmək niyyəti müzakirə olunmaqdadır. Hətta Prezident bu günlərdə dövlət televiziyasına verdiyi müsahibəsində Şuşa ilə bağlı "plan"ları olan məmurlar barədə fikirlərini bildirərək xəbərdarlıq da etdi.*

Səh.4

## Avropa Parlamenti Azərbaycana qarşı qərəzini gizlədə bilmir



*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin birgə bəyanatını şərh edib. XİN-dən "Unikal" verilən məlumata görə, Avropa Parlamentinin (AP) üzvləri, Avropa İttifaqı (Aİ) və Cənubi...*

Səh.13

## Nazim İbrahimovun yuxusunu qaçıracaq iddia...



*Azərbaycanda korrupsiyaya qarşı mübarizə tam sürəti ilə davam edir; cəmiyyət az qala hər həftə müxtəlif iri məmurların, indiki və sabiq vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və həbs olunması xəbərləri ilə çalxalanır. İctimaiyyət tərəfindən təqdirlə qarşılanan və diqqətlə izlənən bu antikorrupsiya əməliyyatlarının davamlı...*

Səh.6

# "Türmədə onun yanına getdiyim üçün məni söyürdülər" - Manaf gileyləndi

***Fədayə Laçın həbs ediləndə gecə zülüm-zülüm ağladım ki, niyə belə oldu. Özümü atdım odun içinə. Fədaya tanıyırdım? Mənə o lazım idi? Ancaq toyda görüşərdik, "salam-sağ ol" edərdik.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Manaf Ağayev Tarix Əliyevin (Tolik) "Günə bir şou" proqramında deyib. Sənətçi müğənni Fədayə Laçının çətin günündə ona dəstək olmadığından gileylənib: "Getdim evlərinə, bacısına, anasına, oğluna dedim, narahat olmayın. Dostlarımdan da pul yığdım, 2 il onlara kömək etdim. Sağ olsun, çıxdı, bu haqda hər yerdə dedi. Amma zindandan ağır gün yoxdur. Amma bütün günü canlı yayımda oturursan. Məni millət qınayanda deyə bilməzdin ki, belə şeylərə fikir vermə, hamı səni tanıyır. Manafı tərifləmə, təriflənsən söyəcəklər".

M.Ağayev keçmiş aparıcı İlham Mirzəyevdən də şikayət edib: "İlham Mirzəyevə gələk. Həbsdə olanda getdim yanına, dedim gələn olub? Dedi, yox, dedim gələn də olmayacaq. Çünki bu cəmiyyəti bilirəm. O, çıxana qədər evinə getdim, kömək etdim. Bir nəfərə deyib ki, Manafı müdafiə edə bilmərəm, məni söyəcəklər. Məni də sənin yanına gələndə söydülər ki, sən hara, o, hara".



# Dəryayla dava, Oksanayla ayrılıq, Nağılbazın atdığı böhtan - Elşaddan etiraflar



***Reper Elşad Xose "Onun sirri" proqramının qonağı olub. "Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi mərhum reper Hüseyn Dərya ilə əlbəyaxa davasından danışıb. O bildirib ki, bulvarda sözləri çəpləşib və dalaşıblar:***

"Çətindir, o insan hazırda həyatda yoxdur. Olmayan insanla bağlı danışmaq düz deyil. Bizim etdiyimiz rəqabət arasıra elə hallara gətirib çıxarırdı ki... O da, mən də hər zaman sülhtərəf mövqelərdən çıxış edirdik. Amma bir dəfə elə hal oldu ki, biz əlbəyaxa davaya çıxdıq. İkimizin də məşhur vaxtı idi. Bulvarda insanların içində ani bir an oldu və dalaşdıq. Yoldan keçənlər bizi aralıyırdılar. Baxmayaraq ki, rəhmətlik o vaxt yaxşı komanda ilə çalışırdı, cangüdəni də var idi. Biabırçı hal alındı, istəməzdim. İndi utana-utana danışıram. Cırıq köynəklə bulvarda gəzmək... Mənə müəyyən təbəqə qulaq asırdı, ona isə kütlə. Ondan bir neçə gün əvvəl efirlərdə söz atırdı, proqnozlar verirdi. Ona görə də arada qaydadan kənara çıxırdı. Xoşagəlməz hal yaranırdı. Həmin an bir kafedə üz-üzə gəlməyi istəməzdik. Demişdim, harada görsəm, ondan dediklərini soruşacam. Elə oldu ki, dava alındı".

Elşad rəqqasə Oksana Rəsulova ilə ayrılmaları haqda sualı cavabsız qoyaraq "Bu haqda danışmaq istəmirəm. Yeni il gecəsi "sevgi" sözünü kağıza yazıb, yandırıb, şampan şərabının içinə atıb yerə tökmüşəm. İstəmirəm mədəniyyət sahəsinə aid olmayan insan haqda yeniliklər danışım, hər şey yaxşıdır" sözlərini deyib.

Reper Elşad Xose həmkarı Dado ilə (Səid Əliyev) bağlı açıqlama verib. Xose bu haqda "Onun sirri" proqramında danışıb. O bildirib ki, Dado ilə yaxın dostdular. O, reperin şəxsi həyatına da toxunub:

"Dado əvvəl Hüseyn Dərya ilə yaxın idi. Sonra mənimlə dostlaşması birmənalı qarşılanmadı. Amma biz doğrudan dostuq. Bir də Dadonun da həyatı maraqlıdır. Onun da həyatında mənim həyatıma oxşar məqamlar var. Onu plagiatlığa görə məhkəməyə verə bilərəm (gülür). Mənim həyatımı yaşayır".

Qeyd edək ki, Dado müğənni Natavan Həbibi ilə ailəlidir. Xose isə bir vaxtlar Natavanla yaxın rəfiqə olan rəqqasə Oksana Rəsulova ilə ailəli olub.

# Röya Ayxanın vaksin vurdurdu

## Nazirlikdən reaksiya: "Tədbir görülməlidir"

***Son günlər sosial şəbəkədə tibb işçisi və risk qrupuna daxil olmayan şəxslərə koronavirusa qarşı peyvənd vurulması ilə bağlı məlumatlar paylaşılır.***

Belə ki, xalq artisti Röya Ayxan şəxsi "Instagram" səhifəsində könüllü olaraq peyvənd olunduğunu bildirib. Belə faktlar haqlı olaraq cəmiyyətdə geniş müzakirələrə səbəb olub.

Paytaxt üzrə vaksinasiya prosesinə Səhiyyə Nazirliyi nəzarət etdiyi üçün mövzu ilə əlaqədar quruma sorğu ünvanladıq.

"Unikal" oxu.az-a istinadən bildirir ki, bu məsələdə məsuliyyət həmin klinikaların öz üzərinə düşür: "Belə ki, özəl klinikalar müəssisələrində çalışan tibb işçilərinin sayını təqdim etməklə müvafiq sayda peyvənd alırlar. Lakin alınan peyvəndlərin tibb işçilərinə və ya digər şəxslərə vurulub-vurulmaması ilə bağlı məsuliyyət Səhiyyə Nazirliyinə deyil, birbaşa həmin klinikaların üzərinə düşür.

Vaksinasiya prosesi müvafiq qaydalara əsasən mərhələli şəkildə aparılmalıdır. Artıq o peyvəndlərin növbədən kənar şəkildə istifadəsi müşahidə olunursa bununla bağlı müvafiq qurumlar araşdırma aparmalı və nəticələrə uyğun şəkildə tədbir görməlidir".

# Cavanşir Məmmədov efirə 114 min avroluq saatla çıxdı

***Əməkdar artist Cavanşir Məmmədov aksessuarlarının qiymətini açıqlayıb.***



"Unikla" axşam.az-a istinadən bildirir ki, müğənni "Həmin Zaur" proqramında qonaq olan ifaçıdan aparıcı böyük qızıl üzüyü və saatını soruşub. C.Məmmədov üzüyünün dəyərini gizli saxlasa da, saatının ona hədiyyə edildiyini söyləyib. İfaçı bildirib ki, həmin saatın Avropa ölkələrində qiyməti 114 min avrodur (232 min manat). Daha sonra C.Məmmədov bu saatın satışdakı qiymətinin 20-30 min manat olduğunu bildirib.



# Ceyhun Bayramovun Türkiyə Maarif Fondunun sədri ilə görüşüb

***4 fevral 2021-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Maarif Fondunun sədri Birol Akgün ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı Ceyhun Bayramov Azərbaycan ilə Türkiyə arasında mövcud olan zəngin, geniş və sıx dostluq münasibətlərini məmnunluqla qeyd edib.

Nazir ölkəmizin müstəqilliyinin ilk günlərindən üzləşdiyi ən böyük və ağrılı problemi olan keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək, qardaş Türkiyənin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq mövqeyini hər zaman dəstəklədiyini, xüsusilə də 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin bütün səviyyələrdə, o cümlədən Türkiyə xalqı tərəfindən nümayiş etdirilən həmrəylik və mənəvi dəstəyin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. O, Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən bu dövrdə Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin sözdə deyil, əməldə "bir millət iki dövlət" olduğunun növbəti dəfə bariz şəkildə nümayiş olunduğunu söyləyib. Azərbaycanın dövlət başçısı tərəfindən qeyd edildiyi kimi, tərəflər arasındakı bu sıx münasibətlərin arxasında məhz doğru siyasətin dayandığı vurğulanıb.

Birol Akgün nəzakət qəbuluna görə nazir Ceyhun Bayramova təşəkkürünü bildirib. O, ölkəmizin ərazilərinin Ermənistanın işğalından azad edilməsinin bütün Türkiyə xalqını həyəcanlandırdığını qeyd edərək, qələbə xəbərinin yüksək sevinclə qarşılandığını qeyd etdi və ölkənin ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərə Allahdan rəhmət dilədi. B.Akgün iki ölkə liderləri arasındakı dostluq münasibətlərinin ikitərəfli əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyi bildirdi. O, müharibədən sonrakı quruculuq və inkişaf dövrünə istinad edərək, bu xüsusda təhsil sahəsinin önəmini qeyd etdi. İşğaldan azad edilmiş ərazilərdə təhsil sahəsinin gələcəkdə inkişaf etdirilməsi məsələsində ölkəmizə müvafiq yardımın göstərilməsinə hazır olduqlarını bildirdi.

Tərəflər iki ölkə arasında bütün istiqamətlər üzrə mövcud əməkdaşlığın bundan sonra daha da inkişaf etdirilməsinin vacibliyini qeyd etdilər.

***Zaurə***

# Əli Əsədovun idarəçiliyinin qüsurları üzə çıxır

## Hökumət rəhbərinin nazirlərə sözü keçmir, yoxsa...

***2019-cu ildə Azərbaycanda Baş nazir postuna yeni təyinat gerçəkləşdi. Hökumət rəhbərliyinə Əli Əsədov gətirildi. Əksəriyyət Əli müəllimin Baş nazir təyin edilməsini təqdirlə qarşıladı.***

O xüsusilə peşəkar iqtisadçı, bacarıqlı təşkilatçı kimi xarakterizə olunurdu. Bu mənada hesab edilirdi ki, Əsədovun Baş nazir vəzifəsinə gətirilməsi ilə hökumət kabinetinin fəaliyyətində ciddi keyfiyyət dəyişikliklərinin şahidi olacağıq. Lakin iki ilə yaxındır ki, bu mühüm postu tutan Əli müəllimlə bağlı çoxsaylı müsbət gözləntilərin özünü tam doğrultduğunu söyləmək xeyli çətin məsələdir. Həmin gözləntilər artıq əhəmiyyətli şəkildə azalıb.



Bunun ilk qığılcımları 2020-ci il Tovuz döyüşlərindən bir qədər sonra ölkə başçısının yanında keçirilən müşavirədə Elmar Məmmədyarovla bağlı ortaya çıxan həqiqət oldu. Prezident döyüşlərin qızğın çağında o vaxtkı Xarici İşlər nazirini axtarıb tapmadığını söylədi. Məmmədyarovun həmin vaxt "evdən işlədiyini" isə Əli Əsədovun sözlərindən öyrəndik. Məmmədyarov haqlı olaraq ictimai qınaq hədəfinə çevrildi və doğru olaraq postundan kənarlaşdırıldı.

Bununla belə, o zamanlar ictimai rəy hesab edirdi ki, eks-nazirin düşmənlə gərgin döyüşlər zamanı "qeybə çəkilməsində" Baş naizr kimi Əli Əsədovun məsuliyyəti də az deyil. O elə ilk dəqiqələrdən Məmmədyarovu işə çağırmalı idi.

Ümumiyyətlə isə Nazirlər Kabineti strukturunda elə iş atmosferi yaratmalı idi ki, buna ehtiyac qalmasın: Məmmədyarov və onun kimi öz vəzifələrinə dırnaqarası münasibət sərgiləyənlər anlasınlar - artıq ortada nə "köhnə hamam" var, nə də köhnə "tas". Hökumət kabinetinin hər bir üzvü başa düşməlidir ki, oturduğu kreslo mürgü vurmaq yeri deyil; ölkə yeni mərhələyə - genişmiqyaslı islahatlar dövrünə qədəm qoyub, idarəçilik yeni çağırışlara, yeni prinsiplərə, yeni normalara əsaslanmaqdadır. Bu yeni çağırışların, yeni standartların, yeni prinsiplərin nüvəsini isə xalqa xidmət təşkil edir. Məmmədyarov olayından başa düşdük ki, Əli Əsədov birillik baş nazirliyi boyunca hökumət kabinetində bu əhval-ruhiyyənin, məsuliyyət atmosferinin yaranmasına, daha doğrusu, yaradılmasına nail ola bilməyib. Bu günlərdə isə ölkə başçısı aralarında nazirlərin də olduğu hökumətin bir neçə yüksək vəzifəli üzvü ilə bağlı da sərt tənqidi fikirlər səsləndirdi. Cəmiyyət tərəfindən maraqla və təqdirlə qarşılanan bu fikirlər eyni zamanda ictimai rəydə Baş nazirlə bağlı da haqlı suallara yol açdı.

Bu suallar kifayət qədər aydın idi: Əli Əsədov hökumət üzvləri üzərində ağırlığa sahibdirmi? Sahibdirsə, niyə hansısa nazir hansısa absurd fikirlərə düşür, özündə hansısa şəxsi maraqlarla çıxış etmək cəsarəti tapır? Axı onların belə fikirlərindən, niyyətlərindən ilk növbədə Baş nazirin xəbəri olmalı, zamanında onları bu fikirlərin, niyyətlərin yolverilməzliyi, qəbuledilməzliyi mövzusunda xəbərdar etməlidir. Yaşananlardan iki nəticə ortaya çıxır. Birincisi, ya nazirlər, digər hökumət üzvləri Əli müəllimə kabinet rəhbəri kimi yanaşmır, onun qarşısında hansısa hesabatlılıq duyğusu hiss eləmir.

İkincisi, mümkündür ki, Əli müəllimin bu nazirlərə, hökumət üzvlərinə sözü keçmir. Hər iki halda yaşananların Artur Rəsizadənin Baş nazir olduğu dövrdəkindən heç bir fərqi qalmır.

Belə çıxır ki, Əli müəllim ya istəyərək, ya istəməyərək Artur müəllimin yolu ilə gedir. Bu isə, açıq demək lazımdır ki, hökumət rəhbərinin və onun başçılıq etdiyi kabinetin ölkədə hakim olan islahatçı ruhla - yeni çağırışlarla, yeni standartlarla ayaqlaşa bildiyinə, yaxud ayaqlaşa biləcəyinə dair qənaətləri möhkəmləndirir...

***Sənan Mirzə***

# MEDİA seminarların birinci mərhələsini yekunlaşdırdı

***"ADA" Universitetində MEDİA Agentliyi ilə birgə təşkil edilən və dövlət təşkilatlarının ictimai əlaqələr funksiyası ilə məşğul olan əməkdaşları üçün nəzərdə tutulan "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzulu silsilə seminarların birinci mərhələsi yekunlaşıb.***

"Unikal" agentliyə istinadən xəbər verir ki, fevralın 3-də seminarların ilk mərhələsini bitirən 37 məzun sertifikatla təltif edilmişdir. Təltifetmə mərasimində çıxış edən "ADA" Universitetinin prorektoru Fariz İsmayılzadə təbriklərini çatdıraraq MEDİA Agentliyi ilə ilk əməkdaşlıq təcrübəsinin uğurunu məmnunluqla qeyd etmişdir. O, bildirmişdir ki, media və kommunikasiya kimi vacib sahədə islahatların həyata keçirilməsində Universitetinin təlim və tədqiqat potensialından istifadə edilməsi bu mənada ən qabaqcıl elmi nəzəriyyələrin və təcrübələrin tətbiqi və ADA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsindən istifadəyə imkanlar açır. Prorektor MEDİA Agentliyi ilə tərəfdaşlığın gələcəkdə də sıx davam edəcəyinə ümidlərini bildirib.

İki həftə davam edən silsilə seminarların birinci mərhələsində iştirakçılar yerli və xarici media ilə əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi məsələlərini diqqətdə saxlamış, ənənəvi və sosial media ilə işə proaktiv yanaşaraq təmsil etdikləri qurumlara dair daha keyfiyyətli ictimai məzmunun yaradılması yollarını nəzərdən keçirmişdilər.



Seminar iştirakçıları təəsüratlarını bölüşərək əldə etdikləri biliklərin gələcək fəaliyyətlərinə faydalı olacağını bildirmişdilər. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi polkovnik Natiq Axundovun fikrincə, seminarlar dövlət qurumları ilə media orqanları arasında əlaqələrin gücləndirilməsi baxımından faydalı oldu. Xüsusilə, sosial medianın imkanlarından effektiv şəkildə yararlanmaq, dezinformasiyaların qarşısının almaq, operativliyi artırmaq üçün əhəmiyyətli müzakirələr aparıldı.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Üzrə Dövlət Agentliyinin ictimiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev isə qoyulan mövzuların əhatəli işıqlandırılması ilə yanaşı, seminar günləri zamanı təmsil olunan qurumların nümayəndələri arasında peşəkar şəbəkənin möhkəmlənməsini üstünlük kimi qeyd etmişdir. Media ilə işin qurulmasında mövcud çağırışlara və həll yollarına işıq saçmaq, gələcək hədəflərə yol xəritəsi müəyyənləşdirmək üçün ekspert mühazirələri ilə birgə iştirakçıların qarşılıqlı qatqısı da əhəmiyyət kəsb edirdi.

Seminarın birinci mərhələsi yerli və xarici mütəxəssislərin çıxışları, interaktiv müzakirə sessiyaları, qrup tapşırıqları və ölkənin aparıcı KİV-lərinin nümayəndələri ilə fikir mübadiləsi hissələrindən ibarət idi.

Xatırladaq ki, Medianın İnkişafı Agentliyi 2021-ci ilin yanvar ayında Azərbaycan Respublikası Prezidenti tərəfindən medianın inkişafının dəstəklənməsi, bu sahədə təsisat quruculuğu işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə yaradılmışdır.

***Hüseyn***

# Avropa Parlamenti Azərbaycana qarşı qərəzini gizlədə bilmir

## Politoloq hesab edir ki, ölkəmizə qarşı ikili standartlı münasibət diplomatiyamızdakı yanlışlıqlar nəticəsində ortaya çıxıb

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin birgə bəyanatını şərh edib.***

XİN-dən "Unikal" verilən məlumata görə, Avropa Parlamentinin (AP) üzvləri, Avropa İttifaqı (Aİ) və Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin sədri, Marina Kalyurand, AP-nin Ermənistan üzrə daimi məruzəçisi Andrey Kovaçev və AP-nin Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovko tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların davam etdirilməsinə ehtiyacın olması" barədə birgə bəyanatın verilməsi AP üzvlərinin, ümumiyyətlə bölgədə sülh və əminamanlığın beynəlxalq hüququn təməl prinsipləri əsasında təmin olunması mövqeyindən çıxış etmələrinə rəğmən bölgədə mövcud olan cari vəziyyətdən hələ də tam məlumatlı olmadıqlarını göstərir:

"İlk növbədə AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, AP-nin öz qətnamələrində illərdir ki, beynəlxalq hüquq prinsipləri, həmçinin BMT TŞ qətnamələri əsasında həllinə çağırdığı Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Azərbaycan ərazi bütövlüyünü təmin edib və BMT TŞ-nin 1993-cü il tarixli müvafiq qətnamələrinin həyata keçirilməsini təkbaşına təmin edib. Başqa sözlə desək, AP üzvlərinin istinad etdiyi və dövlətlərarası münasibətlərin təməlini təşkil edən Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipləri rəhbər tutulub. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla bölgədə yeni reallıq yaranıb.

AP üzvlərinin sözügedən üçtərəfli bəyanatın bölgədə sabitliyin təmin olunmasına gətirdiyini qeyd etməsi təqdirəlayiqdir. Çünki hazırkı mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə tərəflər arasında etimadın qurulması üçün, məhz 10 noyabr tarixli üçtərəfli razılaşmanın icrası və bu istiqamətdə müvafiq addımların atılması vacibdir. Azərbaycan tərəfi, öz növbəsində sözügedən razılaşmanın icrası üçün, o cümlədən humanitar məsələlərin həlli sahəsində bütün lazımi addımları atır, lakin Ermənistan tərəfinin imza atdığı bu bəyanata sadiqliyi sual doğurur. Yaxşı olardı ki, AP üzvləri Ermənistan tərəfinə hərbi əməliyyatların dayandırılması ilə bağlı birgə bəyanata imza atdıqdan az qala 20 gün sonra nə səbəbdən Azərbaycan ərazilərinə diversant qrupunu göndərdiyi ilə bağlı sual ünvanlayardı. Bəlkə o zaman AP üzvləri haqqında bəhs olunan Ermənistan hərbçilərinin heç də hərbi əsir deyil, atəşkəs elan olunduqdan sonra məqsədyönlü şəkildə Azərbaycan ərazilərinə göndərilmiş terrorçu diversant qrupunun üzvləri olduğunu anlayardı.

Ümumiyyətlə, Ermənistanın atəşkəs elan olunduqdan sonra terror aktları törətmək məqsədilə əraziyə hərbi qulluqçularını göndərməsi, bu ölkənin iştirakçısı olduğu Şərq Tərəfdaşlığının təməl prinsiplərinə və ümumilikdə Avropa dəyərlərinə hörmət etmədiyini açıq şəkildə nümayiş etdirir.

Mədəni irs məsələsinə gəldikdə isə, AP üzvlərinə yaxşı bəlli olmalıdır ki, Azərbaycanın onilliklərdir ki, işğal altında qalan ərazilərində Ermənistan tərəfinin apardığı qeyri-qanuni fəaliyyət nəticəsində bütün tarixi, mədəni və dini irs demək olar ki, məhv edilib, sözügedən abidələrin dağıdılması, talan edilməsi, mənşəyinin dəyişdirilməsi ilə bağlı hərbi cinayətlərə bərabər fəaliyyət həyata keçirilib. Bu məsələ Azərbaycan tərəfindən davamlı şəkildə beynəlxalq platformalarda, o cümlədən Avropa İttifaqı institutları ilə təmaslarımız zamanı qaldırılsa da AP üzvlərinin bu günədək bu məsələ ilə bağlı bir dənə də olsun bəyanat verməməsi təəssüf doğurur. AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir.

Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli "Unikal"a açıqlamasında deyib ki, Avropa Parlamentində meydana çıxan bu bəyanat ilk növbədə Azərbaycan diplomatiyasının uğursuzluğunu göstərir. Onun sözlərinə görə, hətta ordumuzun Qarabağda əldə etdiyi uğurlu nəticələr - torpaqlarımızın işğaldan azad edilməsi və qalib durumumuz da diplomatiyamızın ondan bəhrələnmək gücündə olmadığını göstərir:



"Təəssüf doğuran hal ondan ibarətdir ki, uzun illər işğal altındakı torpaqlarımızın danışıqlar vasitəsilə - sülh yolu ilə qaytarılacağı haqqında vədlər verilərək ermənilərin həmin ərazilərdə möhkəmlənməsi təmin edilmişdir. Halbuki indi bir daha sübut olunur ki, diplomatiyamız adi həqiqətləri belə lazımi ünvanlara çatdırmaqda acizdir. Azərbaycan xarici siyasətdə heç vaxt birmənalı mövqe ortaya qoymayıb. Hətta müharibənin həll edilməsi əvəzinə onu daha da mürəkkəbləşdirməyə çalışan və ermənilərə havadarlıq edən, heç bir əsas olmadan "xalqların öz müqəddəratını təyin etmək hüququ"nu Dağlıq Qarabağda yaşayan ermənilərə şamil edən ATƏT-ə doğru-düzgün etiraz edə bilməyib. Haqlı ola-ola haqsız duruma düşmüşük. Lakin ən doğru qərar ATƏT-in vasitəçilik missiyasından imtina etmək olardı. Bunu o vaxt etməsək də, heç olmasa indi mütləq belə bir qərar verilməlidir".

Politoloq onu da qeyd edib ki, bütün bunlar dünyanın gözü qarşısında baş verib: "Ona görə də beynəlxalq təşkilatlar Azərbaycanın ittiham edilməsinə sanki öyrəşiblər. Birgə bəyanatda qərəzlə yanaşı məsələnin mahiyyətindən xəbərsizlik də hiss olunur. Bu isə Avropa ölkələrində, xüsusilə də Avropa Parlamentindəki təmsilçilərimizin fəaliyyətsizliyinin nəticəsidir. Hər şeyi güclü erməni lobbisinin üzərinə atmaqla məsuliyyətdən qurtarmağa çalışmaq doğru deyil. Həmin səfirlərimiz dövlət büdcəsindən külli miqdarda vəsait alırlar və onlar Avropaya gəzməyə yox, ölkəmizin maraqlarını təmsil etməyə göndəriliblər. Görünür, diplomatik təmsilçilik məsələsinə də yenidən baxılmalıdır, əks halda dövlətimiz gələcəkdə də bu cür ədalətsiz mövqe ilə tez-tez qarşılaşa bilər. Bundan başqa Diaspor Komitəsinin də məsuliyyətini qeyd etmək lazımdır. Onun fəaliyyəti ya soydaşlarımız arasında bölücülük yaradır, ya da ölkə daxilində media üzərindədir".

***Z.Məmmədli***

# Yuxarı siniflər və universitetlərdə tədris bu tarixdən bərpa olunur

***Təhsil Nazirliyinin təklifinə əsasən, ölkə ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi mərhələli olaraq əyani formada sanitar-gigiyenik tələblər nəzərə alınaraq aşağıda qeyd edilmiş qaydada davam etdiriləcək.***

**"Unikal" xəbər verir ki, 8 fevral tarixindən:**

Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla, ölkənin digər şəhər və rayonlarında yerləşən, layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən ümumi təhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla;

Layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verməyən ümumi təhsil müəssisələrində isə tədris ümumi orta təhsil səviyyəsində

**(I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla;**

Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən müstəqil tədris binası və əlverişli maddi-texniki bazası dərnək üzvləri arasında fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçiriləcək.

**2021-ci il 15 fevral tarixindən:**

**Məktəbəqədər təhsil müəssisələrində;**

Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə olmaqla

**Xüsusi məktəblərdə (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla;**

Ali və orta ixtisas təhsili və peşə təhsili müəssisələrində praktiki məşğələlər tələb olunan ixtisaslar üzrə (müvafiq laboratoriya və xüsusi təchiz edilmiş auditoriyalarda) və təhsilalanların fiziki iştirakını tələb edən fənlərin və mövzuların əvvəlcədən müəyyən edilmiş cədvəllər üzrə tədrisi (tibb, yaradıcılıq, mühəndislik və s.) ənənəvi formada bərpa olunacaq.

# Dərslər həftə üzrə belə keçiriləcək

***2021-ci il 15 fevral tarixindən Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə olmaqla ənənəvi formada bərpa olunacaq.***

Unikal.org xəbər verir ki, bununla bağlı Təhsil Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, bundan başqa, xüsusi məktəblərdə dərslər (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla keçiriləcək.

# Prezident onu sədr təyin etdi



***Vüqar Əhəd oğlu Süleymanov Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri təyin edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

V.Süleymanov bu təyinata qədər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışırdı.

# Vilayət Eyvazov təqaüdə göndərdiyi rəisləri qəbul etdi



***Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmalarının son yaş həddi ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisi, polis polkovniki Rahib Qarayev və Tovuz Rayon Polis Şöbəsinin keçmiş rəisi polis polkovniki Şirzad Əsgərovu ayrı-ayrılıqda qəbul edib.***

"Unikal"xəbər verir ki, yolasalma mərasimində nazir uzun illər daxili işlər orqanlarında çalışmış və cinayətkarlıqla mübarizəyə həsr etmiş polkovniklərin peşəkar polis zabitləri kimi gənclərə örnək bir yol keçdiklərini diqqətə çatdırıb.

V.Eyvazov uzun illər qüsursuz xidmətlərinə görə təltif olunduqları DİN-in "Fəxri fərmanı"nı onlara təqdim edib.

# Nazirlikdən tələbələrin köçürülməsi ilə bağlı açıqlama

***"Tələbələrin köçürülməsi qaydasında subbakalavrların köçürülməsi və ixtisas dəyişməsi məsələsi yoxdur".***

Unikal.org xəbər verir ki, bunu Təhsil Nazirliyinin əməkdaşı Günay İsgəndərova bildirib. O eyni zamanda qeyd edib ki, köçürülmə yay və qış sessiyaları zamanı olur: "Qış sessiyası fevralın 1-dən 7-nə qədər aparılır, yay və qış sessiyasından başqa vaxtda köçürülmə nəzərdə tutulmayıb".

G.İsgəndərova qeyd edib ki, I kurs I semestrdən sonuncu kursa qədər tələbə köçürməsi mümkündür: "Tələbə universitet daxilində ixtisas dəyişmək istəyirsə, öz ixtisas qrupu daxilində və balı çatdığı qədər olan ixtisaslara dəyişə bilər. Əgər tələbə dövlət universitetinə daha az balla daxil olubsa, Bakı və Sumqayıt istisna olmaqla regionlardakı dövlət universitetlərində öz ixtisaslarına uyğun daha yüksək ballı ixtisaslara köçürülə bilər".

Magistratura səviyyəsində tələbələrin öz ixtisası üzrə bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi və ya təhsilalma formasını dəyişməsi qaydasına gəldikdə isə o qeyd edib ki, bunun üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Yoluxanların sayı azaldı

***Azərbaycanda koronavirus infeksiyasına 152 yeni yoluxma faktı qeydə alınıb, 263 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 3 nəfər "COVID-19"dan vəfat edib.

# PA rəhbəri nazirləri topladı

***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.***



Unikal.org xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqlar və müəyyənləşdirdiyi strateji istiqamətlərə uyğun həyata keçirilən işlər haqqında iclas iştirakçılarına məlumat verib.

O qeyd edib ki, milli əhəmiyyət kəsb edən bərpa və yenidənqurma işlərinin dinamik və keyfiyyətli icra edilməsi, habelə bu proseslərdə ən qabaqcıl standart və texnologiyaların səmərəli tətbiqi ölkəmizin qarşısında duran əsas vəzifələrdən biridir.

Samir Nuriyev dövlətimizin başçısının tapşırıqları əsasında müvafiq qurumlar tərəfindən həyata keçirilən işlərin əlaqələndirilmiş və ardıcıllığa uyğun olaraq mərhələli şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

İclasda Qərargah tərəfindən hazırlanmış Strateji Fəaliyyət Planı və Tədbirlər Planı əsasında nazirlik və dövlət təşkilatları tərəfindən vaxt qrafikinə uyğun olaraq görülməli işlər nəzərdən keçirilib.

17 istiqamət üzrə işçi qruplarının fəaliyyət göstərdiyi mərkəzdə hazırda 55 qurum və 150-yə yaxın əməkdaş təmsil olunur. Mərkəzin fəaliyyətinə daimi əsasda təhkim edilmiş şəxslərlə bərabər konkret mövzu və tapşırıqların icrası məqsədilə ekspertlər də cəlb edilib.

İclasda Qərargahın nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin, işğaldan azad edilmiş ərazilərə qayıdış, ətraf mühitin qorunması və enerji təminatı, şəhid ailələri və Vətən müharibəsi iştirakçılarının sosial təminatı, şəhərsalma, nəqliyyat-infrastruktur və digər istiqamətlərdə fəaliyyət göstərən işçi qruplarının məruzələri dinlənilib, qaldırılan məsələlərlə bağlı ətraflı müzakirələr aparılıb və zəruri tapşırıqlar verilib.

# Füzuli-Şuşa yolunda işlərin birinci mərhələsi yekunlaşdı

***Prezident İlham Əliyevin yanvarın 14-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan və Füzuli rayonundan başlayaraq Şuşa şəhərinə qədər uzanan I texniki dərəcəli magistral avtomobil yolunun tikintisi davam etdirilir.***



Agentlikdən "Unikal"a verilən məlumata görə, yeni layihəyə əsasən, çətin relyefə malik olan ərazilərdə, dolaylarda inşa ediləcək körpü və tunellər hesabına yolun uzunluğu 84.6 km təşkil edəcək. İnşa ediləcək tunellərin ümumi uzunluğu təqribən 3 km olacaq. Bundan başqa, yeni trassa üzrə müxtəlif səviyyəli yol qovşaqlarının inşası da nəzərdə tutulur. Yeni Füzuli-Şuşa avtomobil yolu 4 və 6 hərəkət zolaqlı olmaqla iri yaşayış məntəqələrindən, həmçinin məşhur Topxana meşəliyindən yan keçməklə inşa edilir. Yolun ilk 48 km-i 6, 48-84.6 km-i isə 4 hərəkət zolağından ibarət olacaq. Müvafiq olaraq yol yatağının eni 29.5 və 21.5 metr təşkil edəcək. Yeni trassa üzrə hazırlanan layihəyə Şuşanın məşhur İsa Bulağınadək əlavə 2 km-lik II texniki dərəcəli yolun inşa edilməsi də daxil edilib. 2 hərəkət zolaqlı olacaq İsa Bulağı yolu başlanğıcını yeni Füzuli-Şuşa avtomobil yolunun təqribən 82-ci km-dən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunu uzunluğu 900 metr olan tunel vasitəsi ilə keçməklə inşa ediləcək.

Bundan başqa Füzuli-Şuşa avtomobil yolu inşasına start verilən yeni Füzuli Hava Limanı yaxınlığından keçir. Bu səbəbdən magistral yolu hava limanı ilə əlaqələndirmək məqsədi ilə 27-ci km-də yol qovşağının və aerovağzala giriş yolunun inşası da layihə üzrə nəzərdə tutulur.

Yeni Füzuli-Şuşa avtomobil yolunun inşası 4 hissə üzrə aparılır. Bu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin iki tabeli təşkilatı tərəfindən tikintisi aparılan 0-17 və 17-34-cü km-lik hissələri, "AZVİRT" MMC-in inşa etdiyi 34-51-ci km-lik hissə və Türkiyənin "Kolin İnşaat" şirkəti tərəfindən inşası aparılan 51-84.6 km-lik hissəsidir.

Hazırda yolun 0-3, 34-37 və 51-53-ci km-lik hissələrində torpaq yatağının inşası işləri yekunlaşdırılıb və növbəti kilometrlik ərazilərdə bu istiqamətdə işlər davam etdirilir.

Başlanğıcını M6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçən yeni Füzuli-Şuşa magistral avtomobil yolunun inşasının 2022-ci il ərzində tamamlanması nəzərdə tutulur. Şuşanın düşməndən azad olunmasının mənəvi rəmzi olan və 101 km uzunluğa malik "Zəfər Yolu"nun dövlət başçısının tapşırığına əsasən, genişləndirilərək II texniki dərəcəyə uyğun inşası da davam etdirilir.

Artıq "Zəfər yolu" boyunca tikinti işlərinin birinci mərhələsi yekunlaşdırılıb. Cəmi 2 ay ərzində sözügedən yol genişləndirilib, yeni torpaq yatağı inşa edilib və sözügedən yol ilə gediş-gəliş təmin olunub.

***Zaurə***

# Prezident vətəndaşlara müraciət etdi

## İlham Əliyev: “Azərbaycan vətəndaşlarından xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.***

“Unikal” xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.

-Siz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir. Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin.

Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. Mən insanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun.

Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər.

Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın.

Agentliyin qarşısında böyük vəzifələr durur. İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik dövlət agentliyidir. Əlbəttə ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Yeni texnikanın alınması, əlbəttə ki, növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər.



Mən ardıcıllıqla bağlı öz fikirlərimi dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, birinci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra ziyanın qiymətləndirilməsi, ondan sonra artıq bərpa işləri aparılacaqdır.

Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir. Siz bu sahədə təcrübəli beynəlxalq mütəxəssisləri cəlb edərək işçilər üçün həm ölkə daxilində təlim kursları keçirməlisiniz, həm də xaricdə qısamüddətli kurslar təşkil olunmalıdır ki, bizim mütəxəssislər, istehkamçılar özləri-özlərini qoruya bilsinlər, eyni zamanda, burada ən qabaqcıl təcrübə tətbiq edilsin.

Peyk görüntülərindən səmərəli istifadə etməliyik. Peyk görüntüləri bizə əlavə imkanlar yaradır, həm müharibə dövründə, həm də müharibədən sonra təbii ki, bərpa işlərində. Biz ermənilər tərəfindən qırılmış meşələrin həcmini məhz peyklərdən müəyyən edə bilmişik və indi yerlərdə bunu təsdiq edirik. Meşələrimizin 54 min hektarı Ermənistan rəhbərliyi tərəfindən qırılıb, talan edilib və satılıb. Peyk görüntüləri, eyni zamanda, minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik.

Mən müharibə başa çatandan sonra Müdafiə Nazirliyinə göstəriş vermişdim ki, əlavə istehkamçı taborlar yaradılsın və onlar yaradılıbdır. Azad edilmiş torpaqlarda minalardan təmizləmə işi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilir və bu günə qədər işin təqribən 80-90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Amma sizin rəhbərlik edəcəyiniz agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Əlbəttə, Müdafiə Nazirliyinin istehkamçıları bundan sonra da çalışacaqlar. Çünki işin həcmi kifayət qədər böyükdür. Ancaq Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin. Çünki əvvəlki agentliyin texniki təchizatı çox aşağı səviyyədə idi, say tərkibi aşağı səviyyədə idi. Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir. Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması - əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında. Ağacların bir hissəsini yük maşınlarına doldurub Ermənistana satmağa aparıb. Qalan ağacları, sadəcə olaraq, qırıb ki, bizə qalmasın. Özləri tikmədikləri, - azərbaycanlıların yaşadıqları evləri ki, onları zəbt etmişdilər, - yandırıblar, dam örtüklərini, pəncərə çərçivələrini, sanitar qovşaqlarını çıxarıb aparıblar. Bu biabırçı kadrlar xarici mediada da kifayət qədər işıqlandırılmışdır. Görün, onlar nələri özləri ilə aparırlar?! Sanitar qovşaqlarını. Mənfur xuntanın özünə ofis yaratdığı Şuşa şəhərinin keçmiş raykom binasında kondisionerləri, radiatorları bu qaçaqaçda çıxarıblar. Çünki biz bilirdik ki, onlar oradan necə qaçırdılar. Bəlkə də qaçışda rekord nəticələr göstərmişlər. Amma bu qaçaqaçda da bellərinə yəqin ki, radiator, kondisioner bağlayıb Ermənistana qaçırdılar. Yəni, bizim bütün infrastrukturumuz, binalar yerləyeksan edilib. Ona görə hər kəs başa düşməlidir ki, bu işin miqyası nə qədər böyükdür və Azərbaycan bu bərpa işlərinə təkbaşına start verib. Biz heç kimdən yardım gözləmədən buna start vermişik və bütün işlər plan üzrə gedir. Ona görə, siz Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq etməlisiniz, onlarla görüləcək işlərin cədvəlini birgə tutmalısınız, hansı sahələr daha əvvəl təmizlənməlidir, yəni, burada da metodologiya var, dünya metodologiyası var, peyk təsvirləri var.

Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, mən hesab edirəm ki, biz özəl şirkətləri bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir. Hesab edirəm ki, onları cəlb etmək işimizi yüngülləşdirmək üçün önəmli addım olacaqdır. Hesab edirəm ki, bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq, mən hesab edirəm ki, özəl şirkətlər yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və beləliklə, biz bu işləri daha qısa müddət ərzində görə bilərik. Əlbəttə ki, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir. Eyni zamanda, Minatəmizləmə Agentliyi onlara sertifikatlar da verməlidir, onlar akkreditasiyadan keçməlidir. Həmçinin xarici şirkətlərlə birgə müəssisələr də yaradıla bilər. Ona görə, siz agentliyin rəhbəri kimi bu işlərə də fikir verin.

Biz Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq. Yəni, bu, Azərbaycan standartları olmalıdır, əlbəttə ki, dünya praktikasına da baxmaq lazımdır. Hesab edirəm ki, bizim azad edilmiş ərazilərdə olan bu minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir. Təmizləmə işləri də, əlbəttə ki, ardıcıllıqla aparılmalıdır. Burada da prioritetlər düzgün müəyyən edilməlidir. Siz bu prioritetləri də Operativ Qərargahla mütləq razılaşdırın. Çünki bu prioritetlər bizim bərpa işlərimizlə də uzlaşmalıdır. İlk növbədə, misal üçün, infrastruktur obyektləri - indi yollar çəkilir, mütləq o sahədə minatəmizləmə işləri aparılmalıdır, hava limanı tikilir, orada da indi bu işlər aparılır, elektrik xətləri çəkilir, yol boyunca bu işlər görülməlidir.

İnkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik. Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir.

Biz güclü bir qurum yaratmalıyıq, ilk növbədə, onun başlıca vəzifəsi əraziləri minalardan təmizləmək olmalıdır. Bizim Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni, bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər.

Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov dedi:

-Çox sağ olun, möhtərəm cənab Prezident. Sürətlə inkişaf edən Azərbaycanımız bu gün zəfər çalmış ölkədir. Bu, sözsüz ki, Sizin həm Prezident, həm də Ali Baş Komandan kimi gərgin əməyinizin parlaq nəticəsidir. Bu gün ölkəmiz əsası Ulu Öndərimiz tərəfindən qoyulan inkişaf strategiyasını uğurla davam etdirərək yeni hədəflərə doğru irəliləyir. Qarabağa böyük qayıdış bu hədəflərdən biridir. Bu hədəflərə nail olmaq üçün, Siz qeyd etdiyiniz kimi, mina təhlükələrindən qurtulmaq birinci dərəcəli vəzifələrə aiddir.

Hörmətli cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, agentlik bütün imkanlarını səfərbər edəcək və qarşımıza qoyulmuş vəzifələrə, hədəflərə nail olacaqdır.

Azad edilmiş ərazilərdə minatəmizləmə işləri tapşırığınıza əsasən lazımi səviyyədə, beynəlxalq standartlara uyğun və keyfiyyətlə yerinə yetiriləcəkdir. Mən qürur duyuram ki, belə bir məsuliyyətli işin təşkilində iştirak edəcəyəm və bu etimadınıza görə Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

# “Bəzi məmurlar Qarabağı bölüşdürmək eşqinə düşüblər”

## Akif Nağı: “Azərbaycanın nazirləri, deputatları, müəyyən vəzifə tutan məmurlar oliqarxlaşıblar, ona görə də hərəsinin ağzından bir avaz gəlir”

***Vətən Müharibəsindən sonra doğma Qarabağa qayıdış məsələsi gündəm olub. Bəzi məmurların bundan fürsət kimi istifadə etmək niyyəti müzakirə olunmaqdadır. Hətta Prezident bu günlərdə dövlət televiziyasına verdiyi müsahibəsində Şuşa ilə bağlı “plan”ları olan məmurlar barədə fikirlərini bildirərək xəbərdarlıq da etdi. “Unikal” qəzetinə müsahibə verən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı ilə söhbətimiz də bu mövzu ətrafında oldu.***

***-Akif bəy, Qarabağa qayıdışla bağlı məsələ gündəmə gələndən bəri, bəzi məmurlar Şuşada daş üstünə daş qoyulmadan artıq ora göz dikiblər. Necə düşünürsünüz, bu niyyətin arxasında nə dayanır?***

-Mən hesab edirəm ki, Azərbaycanın ən böyük problemlərindən biri məmur problemidir. Məmurların başını yığmaq, nizama salmaq çox çətindir. Azərbaycan müstəqilliyini yeni əldə etmiş ölkədir, kadr ehtiyatları o qədər də çox deyil. İnsanlar köhnə düşüncələrdə qalırlar. Ona görə də çox çətindir. Artıq bu məsələni prezident də dilə gətirdi. Bu problemləri biz görürdük. Azərbaycanın nazirləri, deputatları, müəyyən vəzifə tutan məmurlar oliqarxlaşıblar, ona görə də hərəsinin ağzından bir avaz gəlir. Hesab edirlər ki, Azərbaycanı bölüşdürüblər. Hansısa zona filan nazirindir, orda o obyektlər tikə bilər və sairə. Belə şeylər gözümüzün qarşısında baş verir. Qarabağ savaşında rolu olmayan bəzi məmurlar indi oranı bölüşdürmək eşqinə düşüblər. İndi köhnə əhval-ruhiyyə ilə Şuşaya da hücum etmək istəyirdilər, oranı müəyyən təsir dairələrinə bölmək, torpaqları götürmək istəyirdilər. Villalar, obyektlər və sairə. Prezident də bunu dilə gətirdi. Mən hesab edirəm ki, prezident ictimai rəyi də nəzərə alaraq onlarla mübarizə aparmalıdır. Yəni təkcə inzibati tədbirlərlə buna nail olmaq görünür ki, çətin məsələdir. Hamısı müraciət edir, xahiş edir. Bu bir komandadır, sözlərini yerə salanda inciyirlər. Narazılıq yaranır.

***-Maraqlısı odur ki, adıçəkilən məmurlarda utanmaq hissi də yoxdur...***

-Bu adamlarda utanmaq yoxdur. Oliqarxlar eybəcərdirlər. Bilirsiniz, məmurda qorxu hissi olmalıdır, qanunlardan qorxmalıdırlar. Mən öz vicdanları qarşısında yox, qanun qarşısında cavab verməli olduqlarını deyirəm. Son vaxtlar bəzi nazirlərin, şirkət rəhbərlərinin villalarını göstərirlər. Yəni, dəhşətdir. Bu insanların bir vicdanı yoxdur ki, bu ölkədə nə qədər ac-susuz var. Kasıb, çörəyə möhtac olan insanlar var. Şəhid ailələri var. Nə olar ki, imkanınız olanda? Biraz məhdudlaşdırın. Gərək elə yarım milyonluq maşınlarda gəzəsiniz, 50 milyonluq villalarda yaşayısınız? Harınlayıblar. Yəni, çox çətin vəziyyətdir. Kimsə çıxarılır, yerinə başqası təyin olunur, o da həmin şeydir.

***-Onda belə çıxır ki, qorxu yoxdur. Bəlkə bu, cəzasızlıqdan və ya yüngül cəzalardan irəli gəlir?***

-Təbii ki, o da var. Amma müəyyən dönəmdən bir görürsən ki, kimlərisə tuturlar, həbslər olur. Amma bu sağalmaz xəstəlikdir. Yenə də qanunlar sərtləşdirilməlidir. Dövlət rəhbərliyi buna görə məsuliyyət daşıyır. Yəni mən belə başa düşdüm ki, dövlət rəhbərliyi xalqa müraciət elədi. Xalqa bir növ şikayət elədi ki, mən bunların əlində qalmışam. Amma tarixdən bilirik ki, çox dövlət başçılarının bu kimi problemləri olub. Orta əsrlərdən müasir dövrədək. Məsələn, Yaponiyada mənəviyyat da, qanunçuluq da var. Amma orada baş nazir istefa verəndən sonra ona cinayət işi açıldı. Bu rüşvətxor imiş, korrupsiyaya qurşanıbmış və sairə. Ona görə də qanuna əməl olunması, qanunla cəzalandırma ciddi şəkildə təkmilləşdirilməlidir. Heç bir güzəşt olmadan cəza tədbirləri görülməlidir. Prezident bu məsələdə ictimai təşəbbüsləri nəzərə almalıdır. Mətbuat vasitəsilə, partiya və ictimai təşkilatların fikirləri ilə. Yəni ictimai rəy belə formalaşır. O rəy ilə hesablaşmaq lazımdır. İctimai rəyə arxalanmaq lazımdır. Bir neçə istiqamət üzrə proseslər aparılsa, müəyyən dəyişikliklərə nail olmaq olar. Ən azından azaltmaq olar.

***-Çox adamın adı çəkildi, Şuşanın icra başçısından başqa...***

-Şuşanın icra başçısı yazıq adamdır, bədbəxt adamdır. Dövlət qulluqçusudur, oturub orada. Bəzən görürəm ki, sosial şəbəkələrdə xal qazanmaq üçün ona hücum olunur ki, orda nə oturmusan və sairə. O dövlət məmurudur, ona əmr olunsa, gedib Şuşada oturar da. Dediyim kimi, ictimai rəy nəzərə alınmalıdır. O, vəzifəyə gətiriləndə bir mənfi rəy formalaşdı onun haqqında...

***-Şuşa həm qələbədən əvvəl, həm sonra Azərbaycan üçün önəmli mərkəzdir. Necə düşünürsünüz. Şuşaya daha çevik, daha bacarıqlı rəhbər lazım deyilmi?***

-Bəli. Şuşa bizim üçün xüsusi əhəmiyyətə malikdir. Ora rəhbərlik edən şəxs bütün mənalarda bütöv olmalıdır. Əsli-kökü olmalıdır, görkəmi və sair. Hər şey şərtdir. Şuşa bizim üçün büllur kimi saf şəhərdir. Çalışmaq lazımdır ki, korlamayasan, imicinə zərər gəlməsin Şuşanın. Bəlkə də ona görə Şuşaya göndərmirlər, başqa adam axtarırlar.

***-Qayıdışla bağlı fikirlər səslənir. Cocuq Mərcanlı alınarkən kiçik qayıdış oldu. İndi də böyük qayıdış barədə danışılır. Prezident də çıxışlarında bu mövzuya toxunub. Qarabağ Azadlıq Təşkilatı olaraq sizin nə təklifləriniz var?***

-1999-cu ildən biz Qarabağa yürüşlər təşkil edirdik. Biz evimizə qayıtmaq istəyirdik. Böyük qayıdış ləngimədən həyata keçirilməlidir və bizim yanaşmamız budur ki, bu proses Xankəndidən, Xocalıdan, Xocavənddən və Ağdərədən başlamalıdır. Dövlət şərait yaratmalıdır, maşınlar ayrılmalıdır. Xankəndidə, Xocalıda yaşayanlar əşyalarını maşına yığıb oralara getməlidirlər. Maşın karvanları Xankəndiyə yönəlməlidir. Onların qarşısını heç kim kəsməməlidir. Nə sülhməramlısı, nə başqası kəsə bilməz. Bu karvanların qarşısında Qarabağ Azadlıq Təşkilatı olaraq biz getməyə hazırıq. Qoy gülləyə biz tuş gələk, minalanmış sahələrdən biz keçək. Çünki bu ideyanı biz 20 ildən çoxdur ki, dilə gətiririk. Yürüşlər keçiririk. Həmişə Bakıdan qarşımızı kəsirdilər. Amma bir dəfə Ağdam-Bərdə-Tərtər dörd yoluna gedib çata bildik, oradan səngərlərə getdik.

***-Mövcud vəziyyətdə, hazırkı şərtlərdə bir az çətin məsələdir...***

-Heç bir çətin məsələ yoxdur. Bu ərazilər Azərbaycan əraziləridir. Və belə də tanınır. Rusiya prezidenti də rəsmi şəkildə bildirdi ki, Qarabağ, o cümlədən Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Dövlət səviyyəsində bu qərar ictimaiyyət və xalqla birgə verilməlidir.

Azərbaycan ərazisidirsə, Azərbaycan vətəndaşları ora gedə bilər. 44 günlük müharibədə Ermənistana qaçan ermənilər bəh-bəhlə Qarabağa qaytarılır. 30 ildir ki, qaçqın düşən Azərbaycan vətəndaşları Xankəndiyə niyə qayıtmalı deyil? Söhbət ondan gedir ki, Rusiyanın öz marağı var, beynəlxalq qüvvələrin öz maraqları var. Azərbaycan da öz maraqlarını ifadə etməlidir, qorumalıdır. Maşın karvanları sülhməramlı postlarına dirənməlidir ki, çəkilin. Böyük qayıdış belə olmalıdır. Yoxsa Cəbrayılın, Ağdamın və digər yerlərin bərpa olunmasını gözləyək, Xankəndi sonraya qalsın - belə olmaz.



**“Böyük qayıdış ləngimədən həyata keçirilməlidir və bizim yanaşmamız budur ki, bu proses Xankəndidən, Xocalıdan, Xocavənddən və Ağdərədən başlamalıdır”**

***Z.Məmmədli***

## Qarabağ ermənilərinin sayı 2 dəfə şişirdilib - Yerevanın yalanı ifşa olundu



***Ermənistanın əmək və sosial məsələlər naziri Mesrop Arakelyan özü də bilmədən rəsmi Yerevanın növbəti yalanını üzə çıxarıb.***

Ötən gün parlamentdə deputatlara hesabat verən nazir hazırda Ermənistan ərazisində Qarabağdan gələn 20 mindən çox sakinin olduğunu etiraf edib. Nazir onların hamısının müvəqqəti yaşayış yerləri ilə təmin edildiyini əlavə edib.

“Ermənistanda müvəqqəti yaşayan Qarabağ sakinləri üçün yaşayış sahələrinin inşa olunması müzakirə edilir. Bundan başqa, onların kirayə xərcləri də nazirlik tərəfindən kompensasiya olunacaq”.

Qarabağdakı Rusiya sülhməramlı kontingentinin bu gün verdiyi açıqlamaya əsasən, noyabrın 10-dan bu günə qədər Ermənistandan bölgəyə 52 058 şəxsin qayıtdığını elan etmişdi.

Ümumilikdə, Dağlıq Qarabağa qayıdan və Ermənistan ərazisində yaşayan ermənilərin toplam sayı 72 mindən çox deyil.

Halbuki, Ermənistan rəsmiləri Dağlıq Qarabağın daimi erməni əhalisinin sayının 150 mindən çox olduğunu iddia edirdi.

Beləliklə, əmək və sosial məsələlər naziri Mesrop Arakelyan rəsmi Yerevanın 30 il davam edən yalanını ifşa etdi.

# Bəzi dövlət şirkətlərinin rəhbərlərini gözləyən böyük təhlükə...

## Dövlət vəsaiti hesabına ailə biznesi quranların qara günləri başlayır

***Hələ 2017-cı ildə açıqlanmışdı ki, hökumət dövlət büdcəsi hesabına 3 mlrd. manat borc qaytarıb. Təkcə xarici və daxili dövlət borclarını yox, dövlət şirkətlərinin də xarici borclarını ödəyib.***

Hesablama Palatasının rəyində belə deyilirdi. Ekspertlər isə həmin vaxt vurğulayırdılar ki, bir il ərzində büdcədən ödənilən borcların məbləği bununla bitmir - "Ümumdövlət xidmətləri" bölməsindən Maliyyə Nazirliyi xarici dövlət borclarının qaytarılmasına 1.5 mlrd. manata qədər də vəsait yönəldib. Sonra da haqlı olaraq sual edirdilər: bu qədər borc yükünə 17 mlrd. manatlıq büdcə necə dözsün?

Qeyd edək ki, elə həmin il dövlət başçısının tapşırığına əsasən, minlərlə hüquqi və fiziki şəxsin vergi borclarına görə əlavə faiz borcları silindi. Vergi amnistiyası çərçivəsində borcları qeyd-şərtsiz silinən 18 932 hüquqi şəxsin sırasında nazirliklər, komitə və digər dövlət şirkətləri də var idi. Bu mövzu aktuallığını qorumağa davam edir: Azərbaycanda ayrı-ayrı dövlət şirkətlərinin borcu fantastik rəqəmlərlə müşayiət olunur. Həmin borcların ümumi məbləği isə milyard manatlarla ölçülür. Onların təkcə büdcəyə milyard yarım borcunun olduğu bildirilir. Dəfələrlə qeyd edildiyi kimi, həmin dövlət şirkətləri bir tərəfdən öz sahələrində təbii monopolistlərdir, digər tərəfdən isə hər il büdcədən külli miqdarda borc alırlar. Sual kifayət qədər bəsit, eyni zamanda konkretdir: belədə necə olur ki, onlar hər ilin sonunda adətən zərər açıqlayır, üstəlik, daha da borclanırlar? Absurd deyilmi?

Əlbəttə, absurddur. İzahı varmı? Təbii, var. Lakin həmin şirkətlər cəmiyyətə, mətbuata bu izahatı açıqlamağa gərək görmür, ekspertlərin, medianın haqlı tənqidlərini susqunluqla qarşılamağı üstün tuturlar. Müstəqil iqtisadçılar illərdir eyni fikri təkrarlamaqdan yorulublar: dövlət sektoru ölkənin maliyyə sistemini çökdürür; odur ki, yeni islahatlar həm də vaxt itirmədən dövlət şirkətlərindən, ölkənin büdcə sisteminin menecmentindən başlamalıdır. Artıq prosesin başladığını söyləmək olar. Dövlət şirkətlərinin idarəçiliyi ilə bağlı çoxdan gözlənilən addımlar atılmağa başlayıb. Onlarda şəffaflığın, hesabatlılığın artırılması üçün prosesə start verilib.

Məsələn, bu günlərdə Dövlət Neft Şirkətinin Müşahidə Şurasının yaradılmasını yada salaq. Yaxud: ötən ilin avqustunda ölkədə həyata keçirilən davamlı struktur islahatları iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədi ilə Azərbaycan İnvestisiya Holdinqinin təsis edilməsini xatırlayaq. Bu holdinq onun idarəetməsinə verilmiş dövlət şirkətlərinin və müəssisələrin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin (dövlət müəssisələri) vahid prinsiplər əsasında idarə edilməsini, fəaliyyətinin təkmilləşdirilməsini, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığın və iqtisadi səmərəsinin yüksəldilməsini, onların rəqabət qabiliyyətinin təmin olunmasını, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılmasını təmin etməlidir. Bütün bunlar öz yerində... Lakin çoxdan cavabını gözləyən önəmli bir sualı da diqqətdən qaçırmaq olmaz. Sual belədir: necə olur ki, əksər dövlət şirkətləri hər il zərər açıqladıqları, ilbəil daha da borclandıqları halda bu dövlət şirkətlərinə rəhbərlik edənlər əməlli-başlı oliqarxlaşıblar? Bir az da konkretləşdirsək, necə ola bilər ki, hər hansı bir dövlət şirkətinin yüz milyonlarla manatlıq borcu var, hesabatlarında ziyanla işlədiyi göstərilir, lakin həmin dövlət şirkətinin rəhbərinin ailə biznesi bunun əksinə olaraq getdikcə böyüyür, çiçəklənir? Bu ziddiyyəti, bu təzadı, bu anormallığı belə şirkət rəhbərləri nə ilə əsaslandırırlar, görəsən?

Ümumiyyətlə, əsaslandıra bilirlərmi? Bilirlərsə zəhmət çəkib bizi - vətəndaş cəmiyyətini, medianı da maarifləndirsələr, məlumatlandırsalar, yaxşı olmazdımı? Əlbəttə, yaxşı olardı. Həm də çox yaxşı olardı. Ancaq biz bu oliqarxməmurlardan belə bir maarifləndirmə, məlumatlandırma gözləmirik. Çünki belədə özlərini ifşa etmiş olarlar. Bir daha təsdiqlənər ki, həmin oliqarx-məmurların ilbəil böyüyən, genişlənən ailə bizneslərinin çiçəklənmə səbəbi elə rəhbəri olduqları dövlət şirkətlərindəki qeyri-şəffaflıq, qeyri-hesabatlılıqdır. Daha da dəqiqləşdirsək, sərəncamlarındakı böyük vəsaitləri müxtəlif fəndlərlə öz ailə bizneslərinə yönəltmələridir.

Ekspertlər haqlı olaraq hesab edirlər ki, zərərlə işləyən, borc bataqlığında çabalayan dövlət şirkətlərində keçmişə yönəlik geniş miqyaslı təftişlər, yoxlamalar aparmaq, bu şirkətlərin qanını zəli kimi soran korrupsiya mexanizmləri ifşa edilməlidir. Aşkarlanan yeyintilərə, mənimsəmələrə görə isə cinayət işlərinə start verilməlidir. Dövlətdən oğurlanaraq ailə bizneslərinə yönəldilən vəsaitlər son qəpiyinədək ortaya çıxarılmalı, həmin cinayətlərə imza atanlar isə kimliyindən asılı olmayaraq dəmir barmaqlıqlar ardına göndərilməlidir. Beləcə, hər bir məmur növbəti dəfə dərk etməlidir ki, dövlət vəsaitləri hesabına ailə biznesi qurmağın axırı yaxşı heç nə vəd eləmir. Açığı, son zamanlar səngimək bilməyən anti-korrupsiya əməliyyatlarına nəzər salanda bütün proseslərin məhz bu istiqamətdə, üstəlik, yüksələn xətlə cərəyan etdiyini əminliklə söyləmək mümkündür.



***Orxan Həsənli***



# İcra başçısı onlayn müşavirə keçirdi

***Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı yanında onlayn müşavirə keçirilib. Müşavirədə rayonun icra strukturunun nümayəndələri və bələdiyyə sədrləri iştirak ediblər.***

Mövcud vəziyyətlə bağlı məlumatları dinləyən İcra başçısı yerlərdə görülən işlərlə bağlı tövsiyə və tapşırıqlarını verib. Xüsusi ilə qeyd edib ki, ölkə rəhbərliyinin siyasi kursunun mühüm istiqamətlərindən biri də dövlətimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə əlillərinə göstərilən böyük diqqət və qayğıdır. Rayonumuzda da Vətən müharibəsi iştirakçılarının, şəhid ailələrinin gündəlik ailə-məişət qayğıları ilə maraqlanmaq, problemlərinin həlli ilə müntəzəm məşğul olmaq hər birimizin ən ümdə vəzifəsi olmalıdır.

İcra başçısı müşavirə iştirakçılarına yaz-tarla işlərinə hazırlıqla bağlı tədbirlərin davam etdirilməsi barədə tapşırıqlarını verib. Həmçinin rayon və şəhər ərazisində səliqə-səhman işlərinin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb və bu işlərdə ilk növbədə haqqı ödənilən ictimai işlərdə çalışanların qüvvəsindən səmərəli istifadə olunması və əmək intizamına nəzarətin gücləndirilməsini tələb edib.

Eyni zamanda İcra başçısı cox mühüm sosial əhəmiyyət daşıyan vaksinasiya tədbirlərinin həyata keçirilməsindən danışarkən, bununla əlaqədar ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə bu sahədə həyata keçirilən tədbirləri diqqətə çatdırıb, o cümlədən Lənkəran rayonunda əhalinin COVİD-19-a qarşı vaksinasiya prosesinin yüksək mütəşəkkilliklə həyata keçirilməsi üçün bütün zəruri tədbirlərin görüldüyünü bildirib.

İcra başçısı icra strukturunun nümayəndələri və bələdiyyə sədrlərinə COVİD-19 pandemiyası ilə əlaqədar kütləvi vaksinasiyaya hazırlıqla bağlı yerlərdə əhali arasında düzgün təbliğat və izahat işlərinin aparılması, əhali kateqoriyalarının daha diqqətlə öyrənilməsi, tənha şəxslərin müəyyənləşdirilməsi və bu kompaniyaya cəlb edilməsinə hərtərəfli köməklik göstərməsini tövsiyə edib.

# “Mutasiyaya uğramış virusun Azərbaycanda müşahidə olunma riski...” - Deputat

***“Yoluxma sayında müşahidə olunan azalmalar Azərbaycanın koronavirusla mübarizə tədbirləri çərçivəsində atdığı addımların effektiv həyata keçirilməsinin bir nümunəsidir. Hazırda yoluxma sayındakı azalmalar və xəstəxana çarpayılarında doluluq faizinin kifayət qədər aşağı olması onu göstərir ki, aparılan sərt karantin tədbirləri öz effektini verib”.***

Bunu Teleqraf.com-a açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli deyib. Deputat bildirib ki, yoluxma sayındakı azalmalar və karantin rejiminin yumuşaldılması cəmiyyətdə arxayınlıq yaratmamalıdır: “Vətəndaşlar məsuliyyətli olmalı, məsafə saxlamalı, maskadan daim istifadə etməli, şəxsi gigiyenaya riayət etməlidir. Yəni qorunma tədbirləri olduğu kimi davam etdirilməli, hər bir insan öz sağlamlığına diqqət yetirməlidir. Bununla yanaşı, Azərbaycanda vaksinasiya prosesinə start verilib. Artıq tibb işçilərinin 70 faizdən çoxu peyvənd olunub. Digər tədbirlər isə öz effektivliyini müəyyən bir zaman keçdikdən sonra göstərəcək. Həm qorunma tədbirləri, həm də peyvəndin əhalinin digər qruplarını əhatə etməsi, bu mübarizədə effektivliyi bir neçə dəfə artıracaq. Təbii ki, bu müddət ərzində virusun mutasiyaya uğramış yeni ştammlarının Azərbaycanda müşahidə olunma riski olduğundan və vaksinasiya prosesinin hələ tam müəyyən edilən bütün hədəf kütlələrini əhatə etmədiyindən bir qədər də diqqətli olmalıyıq. Dövlətin atdığı addımlar, o cümlədən vaksinasiya prosesinin geniş kütlələri əhatə etməsi mərhələli formada alışdığımız həyat tərzinə keçməyimizə şərait yaradacaq”.

# Nazim İbrahimovun yuxusunu qaçıracaq iddia...

## Keçmiş komitə sədrinin vəzifədə olduğu dövrlə bağlı korrupsiya yoxlamalarına başlanacağı gözlənilir

***Azərbaycanda korrupsiyaya qarşı mübarizə tam sürəti ilə davam edir; cəmiyyət az qala hər həftə müxtəlif iri məmurların, indiki və sabiq vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və həbs olunması xəbərləri ilə çalxalanır.***

İctimaiyyət tərəfindən təqdirlə qarşılanan və diqqətlə izlənən bu anti-korrupsiya əməliyyatlarının davamlı olacağı, getdikcə daha da genişlənəcəyi qarşıdakı dövrdə sürpriz həbslərin baş tuta biləcəyi istisna edilmir. Bu sırada təxminən üç il öncə Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri postundan kənarlaşdırılan Nazim İbrahimovla bağlı da müəyyən iddialar səslənir. Belə ki, onun adıçəkilən Komitəyə rəhbərlik etdiyi dövrdə ciddi korrupsiya halları yaşanıb və məhz bu İbrahimovun 2018-ci ilin aprelindən etibarən işsiz qalmasına gətirib çıxarıb. Bunu Prezident Administrasiyasının o vaxtkı rəhbəri Ramiz Mehdiyevin N.İbrahimov vəzifəsindən uzaqlaşdırıldıqdan sonra səsləndirdiyi fikirlər də təsdiqləmişdi. Mehdiyev həmin vaxt bildirmişdi ki, Diasporla İş üzrə Dövlət Komitəsinin işində narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib".

Administrasiyasının sabiq rəhbəri qeyd etmişdi ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb". Bu açıqlamalardan sonra ictimaiyyətdə və mətbuatda yeni gözləntilər meydana çıxmışdı: təxminlər bu yöndə idi ki, N.İbrahimov sadəcə postunu itirməklə vəziyyətdən çıxa bilməyəcək, onun haqqında dövlət tərəfindən ayrılan maliyyə yardımları öz ünvanına çatmadığı üçün korrupsiya ittihamı ilə cinayət işi başlanacaq və proses həbsə qədər uzanacaq.



© Trend News Agency

Ancaq aradan üç il keçib və sabiq diaspora şefindən hüquqi müstəvidə heç bir haqq-hesab çəkilməyib. Bunun səbəbini və ya səbəblərini isə izah etmək çox çətindir. Adi məntiq də onu deyir ki, Diasporla İş üzrə Dövlət Komitəsində korrupsiya vardısa (necə ki, var olduğu Prezident Administrasiyasının keçmiş rəhbəri səviyyəsində təsdiqlənmişdi!) qanunlar işə düşməli, əlaqədar qurumlar hərəkətə keçməli və istintaq hərəkətlərinə start verilməli, prosesin sonunda isə məsələ məhkəmə müstəvisində öz hüquqi qiymətini almalı idi. Lakin bu baş vermədi. Nəticədə ictimaiyyətdə əksəriyyət belə düşünməyə başladı ki, adıçəkilən Komitənin keçmiş sədri artıq sudan quru çıxmağı bacarıb...

Daha diqqətçəkən məqam isə odur ki, Diasporla İş üzrə Dövlət Komitəsində büdcə vəsaitlərinin təyinatı üzrə xərclənmədiyi, ünvanına çatmadığı açıq şəkildə məlum olsa da, bu qurumda sabiq sədr bir yana, heç onun kadrlarına da toxunulmadı. Halbuki biz bir çox digər dövlət qurumlarında rəhbər şəxslər olmasa belə, nisbətən aşağı ranqlı vəzifəlilərin korrupsiya, yeyinti səbəbindən cəzalandırıldığına az şahid olmamışıq.

Maraqlıdır ki, Nazim İbrahimovla bağlı bu situasiyanın oxşarını onun "iş adamı" olduqları söylənən qardaşları ilə bağlı da müşahidə edirik. Sabiq diaspora şefinin özü ilə bərabər, qardaşları ilə də bağlı son bir neçə ildir çoxsaylı iddialar səsləndirilirdi; bura komitə sədri olan qardaşın yeyinti əməllərindən tutmuş biznesmen qardaşlarla bağlı müxtəlif ittihamlar daxil idi. Ancaq həmin ittihamlarla bağlı da ciddi hüquqi ölçülər götürüldüyünü söyləmək mümkün deyil. Bütün bu yazılanları ümumiləşdirsək, belə aydın olur ki, istər sabiq komitə sədri, istərsə də onun yaxın ətrafı ilə bağlı qalaqqalaq ittihamlar, faktlar, şikayətlər olduğu halda, onlar barədə sərt hüquqi tədbir görülməsinə nə, yaxud nələrsə mane olub. Əlbəttə, kimsəyə həbs arzulamırıq. Lakin qanunların aliliyi hər şeydən ucada dayanır. Son iddialara görə, məhz bu baxımdan qarşıdakı dövrdə sürpriz gəlişmələrin şahidi ola bilərik. Belə ki, bəzi sabiq məmurlarla yanaşı Nazim İbrahimovun da vəzifədə olduğu dövrlə bağlı təftişin başlayacağı deyilir. Keçmiş komitə sədrinin bu postda olarkən yol verdiyi mənimsəmələrlə bağlı cinayət işinə start veriləcəyi, onun özünün də istintaqa cəlb olunacağı vurğulanır...

***Sənan Mizə***

# Pandemiya dövrünün "başağrısı": Onlayn alış-veriş...

***Pandemiya başladığı dövrdən karantin tədbirləri bəzi sahələrin fəaliyyətini dayandırdı. Bu müddət ərzində ən çox təsirlənən sektorlardan biri də alış-verişlə gəlir əldə edənlər oldular. Mağazaların bağlanması səbəbilə insanlar onlayn alış-verişə üz tutdular. Sərfəli və keyfiyyətli alış-veriş etmək istəyənlər ölkəxarici alış-verişə üstünlük verdilər.***

Ötən həftə xaricdən məhsul gətirən daşıyıcı şirkətlərdən birinin hesabına haker hücumu nətiəsində insanlara qeyri-etik mesajlar göndərildi. Bu zaman müştəriləri təşvişə salan bir məqam ortaya çıxdı: Məlumatlarımızın məxfiliyi nə dərəcdə qorunur? Şirkətlərə etibar edə bilərikmi?

"Unikal" xəbər verir ki, teleqraf.com bu və digər suallarla bağlı araşdırma aparıb. Mövzu ilə bağlı İKT İnformasiya Mərkəzinin direktoru Fərid Kazımov bildirib ki, müştərilərin məlumatlarının məxfiliyinin qorunması qlobal problemdir. Onun sözlərinə görə, dünyada vaxtaşırı müştəri məlumatları oğurlanır və sızdırılır: "Bunun qarşısını almağın yalnız bir yolu var. Təhlükəsizlik tədbirləri gücləndirilməli, çox mürəkkəb sistem tətbiq olunmalıdır. Məsələn, kimsə logistika şirkəti qurmaq istəyir, lakin proqramçılar bu sistemi hazırlamır. Şirkətlər az pul xərcləmək naminə mürəkkəb işləri görəcək proqramçıları cəlb etmirlər.

Bu nöqteyi-nəzərdən frilanes işləyən, kiçik, peşəkar olmayan komandalar işi öhdəsinə götürür. Hazırladıqları proqram təminatları da



görünən problemləri yaradır. Peşəkar, sertifikasiyası olan IT şirkətləri cəlb olunmalıdır. Bunların hazırlanması sahibkarlara baha başa gəlir".

Fərid Kazımovun fikrincə, problemlərin baş verməməsi üçün vətəndaşlar hər hansı xidmətdən istifadə etməzdən əvvəl onun təhlükəsizlik meyarları ilə yaxından tanış olsunlar: "Çünki bir neçə proqramçının hazırladığı saytla insanlara təhlükəsizlik təminatı vermək düzgün deyil. Xaricdə belə platformaları yaratmaq üçün proqramçıya 1 milyondan yuxarı məbləğ ödənir. Bu saytların daha dayanıqlı işləməsi, təhlükəsizliyinin qorunması üçündür. Təssüflər olsun ki, Azərbaycanda belə hallar nəzərə alınmır. Kustar formada biznes qurmağa çalışırlar. Müştərilərin məlumatlarının sızdırılması artıq trend halını alıb".

Hüquq müdafiəçisi Sahib Məmmədov bildirib ki, onlayn alış-veriş və buna bənzər hallarda fərdi məlumatları qoruyan tərəf hər zaman məsuliyyət daşıyır:

"Məlumatların onların səhlənkarlığı nəticəsində oğurlanması, yaxud özləri tərəfindən ötürülməsi qanunvericiliyə uyğun məsuliyyət yaradır. Təbii ki, ona qarşı mülki iddia vermək olar. Bu, ciddi problemdir. Elektron sistemdə hər zaman haker hücumları olur. Tərəfin borcudur ki, etibarlı sistem yaratsın. Əks halda, insanların bank məlumatları oğurlana, şəxs maddi ziyana düşə bilər. Bununla yanaşı, təchizatçının adından feyk saytlar yaradılır. İnsanlar aldanıb ora məlumatlarını yerləşdirib, əməliyyatlar aparırlar. Bu zaman da onların kart bilgiləri oğurlanır. Bu kibercinayətlər kateqoriyasına aid məsələdir. Yəni vətəndaşın özü də işi görəcəyi şirkəti əvvəlcədən araşdırmalı, məlumatları etibar etməzdən öncə onun təhlükəsizliyindən əmin olmalıdır".

Ölkəmizdə əvvəllər də onlayn alış-veriş var idi. Maraqlıdır, pandemiya dövründə artan tələbat ölkə iqtisadiyyatına necə təsir edib?

İqtisadçı Natiq Cəfərli deyir ki, ölkəmizdə onlayn alış-veriş sisteminin təşkilində ciddi problemlər var: "Onlayn alış-veriş son 10 ildə ən sürətlə inkişaf edən sahədir. Pandemiya bu sürətin xeyli artmasına səbəb oldu. Azərbaycan hələ dünyada gedən trendlərdən geri qaldığına görə, pandemiya dövründə insanlar onlayn alış-verişi öyrənməyə, bundan istifadə etməyə başladılar. Bu da həm altyapı çətinlikləri yaratdı, həm də hələ bizim kommersiya qurumlarımız buna tam hazır deyildi. Yeni-yeni altyapı çalışmaları qurdular. Normal çalışan saytlar istifadəyə verildi. İnsanların bu sahədə marağının və inkişafının artmasına səbəb oldu.

Bəzi qərarlar da verildi ki, bunlar pandemiya dövründə yanlış, məntiqsiz qərarlar idi. Bunlardan biri də Gömrük Komitəsinin təşəbbüsü ilə xaricdən sifarişlərin limitinin ay ərzində 1000 dollardan 300 dollara endirilməsi oldu. Bu, tamamilə yanlış qərar idi. Çünki bütün dünyada bunun əks tendensiyasını müşahidə etdik. Onlayn sifarişlərin həcmi artır, dövriyyə yüksəlirdi. Amma Azərbaycanda tamamilə tərsinə qərar verərək, bu limiti azaltdılar. Bu da onlayn alış-verişin, əsasən də xaricdən gələn məhsulların həcmində azalmaya səbəb oldu.

İndi də qərarın bu vəziyyətdə qalması onlayn alış-verişin qarşısında duran ən böyük maneələrdən biridir. Azərbaycan dünyada gedən trendlərə görə geridə qalıb. Dövriyyədə ötən illərə nisbətən artım var, amma həcm olaraq Rusiya, Türkiyədə olan həcmdən çox-çox geridəyik".

İqtisadçının fikrincə, onlayn alış-verişin bir sıra müsbət tərəfləri də var: "Bu alış-veriş növü şəffaflığı artıran əsas elementdir. Onlayn alış-veriş zamanı dövriyyəni gizlətmək, vergidən yayınmaq mümkün deyil. Eyni zamanda, əgər normal yanaşma olsaydı, bu sahədə kiçik sahibkarlıq daha çox inkişaf edərdi. Limitin 1000 dollardan 300 dollara endirilməsini Gömrük Komitəsi izah etdi ki, insanlar sui-istifadə hallarına yol verərək, bundan biznes kimi istifadə edirdilər. Lap yaxşı, onsuz da iş yerlərinin çoxu bağlıdır, işsizliklə bağlı ciddi problem var. Bunun qabağını almaqdansa, bunu inkişaf etdirmək üçün qərarlar verilməli, dövriyyədən düzgün vergi tutmaqla, dövlət büdcəsinə də əlavə xeyir gətirmək mümkün idi.

Gömrük Komitəsi bildirir ki, insanlar 1000 dollarlıq alış-veriş edərək vergi ödəmir, biznes qurur və vergidən yayınma halları olurdu. Bu, əksinə, mənfi cəhət deyildi, onu müsbətə çevirmək mümkün idi. Qanunvericilikdə cüzi dəyişikliklər etməklə 1000 dolları dövriyyəyə cəlb etmək, hətta artırmaq da olardı.

Təklif etmişdik ki, bu limiti 5 000 dollara qədər artırmaq olar. Gömrük rüsumunun dərəcəsi ilə birlikdə 5 faiz vergi qoyulduğu zaman yüzlərlə insan özünə iş qura, dövriyyə ilə büdcəyə əlavə gəlir gətirə bilərdi. Dünyada bu trend varsa, deməli, dünya ölkələri ağılsız deyillər".

# “Azəriqaz” rəhbəri Ruslan Əliyevin yersiz inadkarlığı...

## Abonentlər də haqsızdır, nazirlik də, deputat da... haqlı bircə “Azəriqaz”dır?

***Ötən sayımızda yazdığımız kimi, smart tipli yeni qaz sayğaclarının mexaniki sayğaclarla əvəzlənməsindən sonra qaz sərfiyyatının artması ilə bağlı mübahisələr, müzakirələr başlayıb. Vətəndaşların bu məsələ ilə bağlı şikayətləri bir-birini əvəz edir. Hətta ictimaiyyətin tanınmış nümayəndələri də mexaniki sayğaclar quraşdırıldıqdan sonra qazpulunun 2-3 dəfə artıq gəlməsindən şikayətlənməyə başlayıb.***

“Azəriqaz” isə bu narazılıqları haqsız saymaqda, az qala bütün abonentləri yalan danışmaqda suçlamaqdadır. Aradan keçən bir həftədə bu mövzu ilə bağlı maraqlı gəlişmələrin şahidi olduq: öncə Energetika Nazirliyi açıqlama yayaraq bildirdi ki, cari ilin 25-27 yanvar tarixlərində Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki Azərbaycan Metrologiya İnstitutunun nümayəndələrinin iştirakı ilə şikayətçilərə məxsus olan istismar müddəti bitmiş 27 ədəd qaz sayğacı laboratoriya şəraitində yoxlanılıb.

Məlumata görə, yoxlamada iştirak etmək istəyən abonentlərin iştirakı təmin olunub. Sayğaclar ən çox şikayət olunan ərazilərdən - Xəzər, Sabunçu və Binəqədi rayonlarından seçmə üsulu ilə götürülüb. Yoxlamaların nəticələri hər bir qaz sayğacı üçün müvafiq sənədlərdə əks etdirilib. Araşdırma nəticəsində bəzi sayğacların sərfiyyat aşağı olduqda qaz həcmini normaya uyğun hesablamadığı müəyyənləşdirilib və “Azəriqaz” İstehsalat Birliyi hesabına yeniləri ilə əvəz edilib! Bir sözlə, Energetika Nazirliyi abonent şikayətlərinin tamamilə haqlı olduğunu açıqlayıb.

Daha sonra isə Milli Məclis üzvü, Respublika Ağsaqqallar Şurasının sədri Eldar Quliyev mövzu ilə bağlı sərt açıqlamalarla çıxış etdi. Bildirdi ki, smart tipli qaz sayğaclarının mexaniki sayğaclarla əvəzlənməsi yolverilməzdir. Sitat: “İndi qazın pulunu kart vasitəsilə ödəyirik, istifadə edirik. Ödədiyimiz məbləğə uyğun qaz verilir. Mexaniki sayğacların quraşdırılması o deməkdir ki, artıq köhnə sistemə qayıdırıq. Yəqin ki, mexaniki sayğaclara müdaxilə, hava vurmaq şansı böyükdür. Bu, fırıldaqçılıqdır. Qazı yandırırsan, istiliyi olmur. Məsələn, şəkərin şəkərlilik, kərə yağının yağlılıq dərəcəsi var. Qaz əvəzinə daha çox hava vururlar. Havanı vururlar, sayğac yazır, məbləğ şişir. Belə hallarla bağlı mütləq şikayət etmək lazımdır. İnsanları aldatmaq olmaz axı. Vicdanlı məmurlarla yanaşı vicdansız məmurlar da var. Xalqı incidənlər vicdansız məmurlardır”.

Lakin qəribədir ki, Energetika Nazirliyi və Milli Məclis üzvü səviyyəsində açıqlamalar da Ruslan Əliyevin baş direktoru olduğu “Azəriqaz” İstehsalat Birliyini öz yersiz inadkarlığından əl çəkdirmədi. Bütün bu açıqlamaların ardından qurumun ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Ceyhun Səfərov iddia etdi ki, Energetika Nazirliyinin açıqlamasında sayğacların sərfiyyatı ilə bağlı cümlə qəlizdir. Sitat: “Bildirilir ki, araşdırma nəticəsində bəzi sayğacların sərfiyyat aşağı olduqda qaz həcmini normaya uyğun hesablamadığı müəyyənləşdirilib. Qaz ölçü qurğularına ona görə dövlət yoxlanış müddətində açılıb baxılır ki, onların iş prinsiplərində, işlək vəziyyətində müəyyən qüsurlar ola bilər. Bu qüsurların çıxması tam normaldır. Ona görə də dövlət yoxlanışından sonra bəzi sayğaclar ümumiyyətlə, istismara yararsız hesab olunur və çıxdaş olur. Bəziləri isə təkrar istismar üçün səndələşdirilib saxlanılır.

Açıqlamada sayğacın iş prinsiplərində, işlək vəziyyətində qüsurların olması qeyd olunur, amma bu o demək deyil ki, həmin sayğac sərfiyyatı artıq qeydiyyata alıb. Artıq ödəniş qeydə alınmayıb, belə bir hal təsdiqlənməyib. Sadəcə, oradakı cümlə qəlizdir, hamı elə başa düşüb ki, abonent artıq ödəniş edib”. Əziz oxucuları Səfərovun dediklərindən sonra Energetika Nazirliyinin açıqlamasını yenidən oxumağa dəvət edirik. O zaman görəcəksiniz ki, nazirliyin cümlələrində anlaşılmaz, qəliz heç nə yoxdur. Açıq şəkildə, aydın dildə, ibtidai sinif şagirdinin belə rahatca anlayacağı tərzdə yazılıb ki, bəzi sayğaclar sərfiyyat aşağı olduqda qaz həcmini normaya uyğun hesablamır! Vəssalam, şüttamam! Hətta bundan sonra da durub artıq sərfiyyatla bağlı şikayətləri əsassız çıxarmağa cəhd etmək gülməlidir. Həm gülməlidir, həm də ağlamalı.



Ona görə gülməlidir ki, Ruslan Əliyevin direktoru olduğu qurumda bütün bunlardan sonra da hamını - abonentləri, deputatları, nəzarətçi-təftişçi qurumları haqsız çıxarmağa cəhd edirlər, belə fikirləşirlər ki, hamı yalan danışır, bircə adıçəkilən İstehsalat Birliyi haqlıdır. Bu qurum hətta sabah qatığın rənginin qara olduğunu söyləsə biz gərək gözümüzə yox, onun dediklərinə inanaq. Ağlamalıdır ona görə ki, son illərdə ölkədə genişmiqyaslı islahatlar aparıldığı, istənilən dövlət idarəsinin, təşkilat və ya müəssisənin öz işini yalnız bir prinsip - xalqa düzgün, keyfiyyətli xidmət üzərində qurmalı olduğu barədə tələblər səsləndiyi, ictimai-sosial narazılığa yol aça biləcək addımlardan çəkinməli olduğu barədə xəbərdarlıqlar edildiyi halda bəziləri hələ də öz iş metodlarını, idarəçilik təfəkkürünü yeniləmək, dəyişmək istəmir.

**_Toğrul Əliyev_**



## Müdafiə Nazirliyinin yanında İctimai şura yaradıla bilər?

***Azərbaycanda qüvvədə olan “İctimai iştirakçılıq haqqında” qanuna əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də bələdiyyələrin yanında İctimai şuralar yaradılır.***

Məşvərətçi qurum olan İctimai şuraların yaradılmasında məqsəd dövlət və cəmiyyət həyatının müxtəlif sahələrinə aid qərarların qəbulunda, mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyət institutlarının iştirakını təmin etməkdir.

Hazırda əksər nazirlik və dövlət komitələrinin yanında İctimai şura fəaliyyət göstərir. Müdafiə Nazirliyi isə hələ ki istisna təşkil edir.

İctimaiyyət nümayəndələrinin sosial şəbəkələrdə irəli sürdüyü təkliflərdən biri Müdafiə Nazirliyinin də yanında İctimai şuranın yaradılması ilə bağlıdır.

Doğrudanmı Müdafiə Nazirliyinin yanında İctimai şuranın yaradılmasına ehtiyac var?

Modern.az saytı bu sualla bir neçə şəxsə müraciət edib.

Milli Məclisin deputatı Fazil Mustafanın sözlərinə görə, əgər ictimaiyyətlə əlaqə sistemi düzgün qurularsa, şuraya da ehtiyac qalmaz: “Müdafiə Nazirliyi bir qədər fərqli qurumdur. Düşünürəm ki, burada İctimai şuranın olması gizlilik baxımından müəyyən qədər effektiv yol deyil. Amma, buna görə də Müdafiə Nazirliyində ictimaiyyətlə əlaqələr mexanizmi düzgün qurulmalıdır.

Mənim fikrimcə, Müdafiə Nazirliyinin ictimaiyyətlə əlaqələr sistemi tamamilə fərqli bir istiqamətdə olmalıdır. Daha çox ictimaiyyətin iradlarını, şikayətlərini araşdırma imkanları əldə etməlidirlər. İctimai şura modeli olmasa da, ictimaiyyətlə əlaəqlər modeli doğru qurularsa, şuraya ehtiyac qalmaz”.

“Qarabağ Qaziləri” İctimai Birliyinin mətbuat katibi, qazi jurnalist Rey Kərimoğlu hesab edir ki, Müdafiə Nazirliyi yanında belə bir şuranın yaradılmasına ciddi ehtiyac var: “Bütün sahələr kimi, ordu ilə bağlı məsələlərdə nöqsanlar yox deyil. Ona görə, hesab edirəm ki, təcili olaraq Müdafiə Nazirliyi yanında da İctimai şura yaradılmalıdır. Amma sanki sehirli bir əl Müdafiə Nazirliyi yanında belə bir şuranın yaradılmasının qarşısını alır.

Hesab edirəm ki, Müdafiə Nazirliyində islahatlar aparılmalıdır. Adı keçmiş Baş Qərargah rəisi Nəcməddin Sadıqovla birgə korrupsiya, rüşvətxorluq, qanunsuzluqda hallanan zabitlər vəzifəsindən kənarlaşdırılmalıdır. Hüquqi müstəvidə araşdırma aparılmalıdır”.

Tərxis Olunmuş Hərbiçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli bildirib ki, bu məsələ də öz həllini tapacaq: “Şuranın yaradılması məsələsi çox aktualdır. Hərbi qurumların özünəməxsus istiqaməti ondan ibarətdir ki, burada hərbi, dövlər sirri anlayışı var. Buna görə qərar verilən zaman hər şey nəzərdən keçirilməlidir.

Qeyd etmək istəyirəm ki, Müdafiə Nazirli yanında ictimai şura hərbi sahə üzrə ixtisaslaşmış şəxslərdən təşkil olunmalıdır. Düşünürəm ki, gələcəkdə bu məsələ öz həllini tapacaq”.



# Agentlik yoxlamaları gücləndirib

***Koronavirus (COVID-19) pandemiyası dövründə insanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq, ictimai iaşə müəssisələrində COVID-19-a yoluxma hallarının və ya virusun yayılmasının qarşısının alınması məqsədilə həmin müəssisədə çalışan işçi heyət və istehlakçıların xüsusi davranış qaydalarına əməl etməsi zəruri şərtlərdəndir. Qeyd edək ki, Agentliyin müfəttişləri tərəfindən hazırda ölkə üzrə fəaliyyət göstərən ictimai iaşə müəssisələrində nəzarət tədbirləri həyata keçirilir. İctimai iaşə müəssisələrində yerində xidmətin bərpa olunması ilə bağlı yoxlama-nəzarət tədbirlərinin miqyası daha da genişləndirilib. Aparılan monitorinqlər zamanı pandemiya dövrünün tələblərinə əməl etməyən ictimai iaşə müəssisələri aşkarlandığı halda qanunvericiliyə uyğun olaraq tədbirlər həyata keçiriləcəkdir.***

AQTA-dan Unikal.org-a bildirilib ki, qanunvericiliyə əsasən, ictimai iaşə müəssisələrində müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq hər adambaşına müəyyən edilən sahə ikiqat artırılmalıdır. Qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafə isə 2 metrdən az olmamalıdır.

Xəstəliyə yoluxma riskini azaltmaq üçün ictimai yerlərdə ortaq istifadə edilən səthlərin mütəmadi təmizlənməsi və dezinfeksiya edilməsi zəruridir. Təmizlik-dezinfeksiya işləri iş saatı ərzində, əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Sanitar-gigiyenik qaydalara əsasən, ictimai iaşə müəssisələrində sanitar məişət otaqları (sanitar qovşaq, soyunub-geyinmə otağı və s.) işlək və təmiz vəziyyətdə saxlanmalı, axar isti və soyuq su təchizatı ilə təmin edilməlidir. Hər bir müəssisənin təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə daimi olaraq təmin edilməsi şərtdir.

İşçi heyət hər zaman şəxsi gigiyena qaydalarına ciddi riayət etməlidir. Həmçinin onların dəyişəkli təmiz iş geyimi olmalıdır. Gün ərzində bir çox insanla təmasda olduqlarından qoruyucu vasitələrlə və dezinfeksiyaedici məhlulla təmin olunmalıdırlar.

Bundan başqa, sahibkarlar tərəfindən hər bir ictimai iaşə müəssisəsində məsul şəxs təyin edilməli və bu məsul şəxs haqqında məlumatlar Agentliyə şəxsi kabinetlər vasitəsilə və ya monitoring@afsa.gov.az elektron poçt ünvanına göndərilməlidir.

***Famil***

# Səlim Müslümov həbs edildi

## Keçmiş nazir hansı cinayətlərdə ittiham olunur; başqa bir sual - növbədə kimlər var?

***Azərbaycanın sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov cinayət məsuliyyətinə cəlb olunub.***

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məlumatına görə, Müslümov Səlim Yanvar oğlunun Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar DTX-də araşdırılıb.

Toplanılan materiallar əsasında başlanılan cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub.

Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bu arada məlum olub ki, keçmiş əmək və əhalinin sosial mu?dafiəsi naziri Səlim Mu?slu?mova irəli sürülmüş ittihamlara əsasən, onu 12 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası gözləyir. Ona verilən ittihamlar arasında ən ağır maddə rüşvət alma ilə bağlıdır. Cinayət Məcəlləsinin 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) 8 ildən 12 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur. Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər fəslinə aid olan 308.2 (ağır nəticələrə səbəb olan mühüm zərər vurulmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və 313 (vəzifə saxtakarlığı) maddələri üzrə isə ən yüksək cəza kimi 7 ilədək azadlıqdan məhrumetmə cəzası verilə bilər.

Cinayət qanunvericiliyinə əsasən, cinayətlərin məcmusuna görə cəza təyin edilərkən qəti cəzanın müddəti və ya həcmi məcmuya daxil olan cinayətlərə görə ayrı-ayrılıqda təyin edilmiş cəzaların daha ağırından çox ola bilməz.

Xatırladaq ki, Səlim Müslümovun saxlanıldığına dair ilk xəbəri Unikal.org saytı yayıb. Lakin keçmiş nazirin atası bu məlumatı təkzib edib. Bununla belə sonda saytın yaydığı xəbər rəsmi təsdiqini tapıb və Müslümovun həqiqətən həbs edildiyi aydınlaşıb. Sabiq nazirin saxlanılması ictimai rəydə xüsusi təəccübə səbəb olmayıb. O, vəzifədə olarkən adı daim rüşvət və korrupsiya faktlarında hallanıb. İstər Dövlət Gömrük Komitəsinin sədr müavini (2000-2002), istər Dövlət Sosial Müdafiə Fondunun sədri (2002-2018), istərsə də Əmək və Əhalinin Sosial Müdafiəsi (2013-2018) naziri işlədiyi müddətdə ən çox tənqid olunan iri məmurların siyahısında ilk pillələrdə dayanan Səlim



Müslümovun nə üç il öncə vəzifədən kənarlaşdırılması, nə də indi barəsində cinayət işinin açılmasında qeyri-adi heç nə yoxdur. Yüksək postlar tutduğu müddətdə sürətlə varlanan və misilsiz sərvətə sahib olan eks-nazir ölkənin sosial-müdafiə sistemini tamamilə rüşvət və korrupsiya bataqlığına çevirmişdi. Elə onun, yaxınlarının saysız-hesabsız şirkətlərə, ölkə ərazisində və ondan kənarda dəyəri fantastik məbləğlərlə ölçülən daşınmaz əmlaka, biznes obyektlərinə yiyələnməsinin kökündə də məhz həmin qanunsuz əməllərdən əldə edilən böyük pullar dayanırdı. Müslümovun mənimsədiyi pulların 2 milyard manatdan çox olduğu barədə mətbuatda, cəmiyyətdə uzun müddətdən bəridir davam edən müzakirələr də onun imza atdığı korrupsiya cinayətinin miqyasının nə qədər geniş olduğunu təsdiqləyir.

Bütün bunları nəzərə aldıqda sabiq nazirin saxlanılmasında təəccüblü heç nə yoxdur. Əksinə, cəmiyyətin çoxdankı gözləntisi, nəhayət, reallaşıb. Çünki Azərbaycan ictimaiyyəti korrupsioner məmurlarla mübarizənin sadəcə onların vəzifədən kənarlaşdırılması ilə yekunlaşmasını istəmir. Belələrinin həm də qanunlar qarşısında cavab verməli və layiq olduqları cəzaları almasını arzulayır. Müslümovun həbsi artıq bu istiqamətdə də prosesin başladığından xəbər verir.

Həmin prosesin sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri ilə yekunlaşmayacağı da gələn bilgilər arasındadır. Belə ki, son illərdə vəzifəsindən kənarlaşdırılan bir neçə nazir və komitə sədrinin də Səlim Müslümovun aqibətini yaşayacağı gözlənilməndir.

***Elvin Rüstəmov***

# “Şuşada namaz qılmaq mənim üçün Kərbəlanı ziyarətə bərabər oldu” - Qurbanəli Əliyev

***Vətən sevgisini bütün qəlbi ilə yaşayan əsgərlərimizdən biri də Qurbanəli Əliyevdir. O, Şuşa azad olunduqdan sonra Aşağı Gövhər Ağa məscidində azan verən, namazı qılan ilk hərbçi kimi yadda qalıb.***

“Unikal” qəzeti xəbər verir ki, Qurbanəli artıq hərbi xidmətdən tərxis olunub və Şuşada yaşananları Modern.az-la bölüşüb.

- Bizim dinimizdə cihad vacibatdır, hansısa bir yerdə haqq təcəlli edəcəksə, haqq yolunda savaşmaq, şəhid olmaq böyük qürurdur. Vətənimizdə müharibə getdiyi halda kim özünə yaraşdırar ki, isti yerdə otursun. Ürəyində vətən sevgisi olan heç kəs bunu edə bilməz. Mən də vətənimin çətin vəziyyətində onun yanında olmağı özümə borc bildim. General Polad Həşimovun şəhidlik zirvəsinə ucalması isə mənə daha çox təsir etmişdi, ona görə də iki dəfə “hərbi komissarlığa” müraciət etdim, sonra çağırdılar, vətənə olan borcumu ödəmək üçün yola düşdüm. Peşman olmadım, şükürlər olsun ki, Allah bu torpaqlar uğrunda savaşmağı bizə nəsib etdi.



### “Ən böyük arzum Şuşanı görmək idi...”

- Xocavənd, Hadrut istiqamətlərində döyüşlərdə iştirak etdim. Ən ağır döyüş nöqtəmiz Füzuli şəhəri idi idi. Son yollandığımız yer isə Şuşa oldu. Ən böyük arzum Şuşanı görmək idi, şükürlər olsun ki, Allah oranı görməyi, ilk dəfə azan oxuyub, namaz qılmağı mənə qismət etdi.

### “Cəbhəyə yollanarkən söz vermişdim...”

- Orada yaşanan hisslər sözlərlə ifadə olunacaq qədər asan deyil. Yalnız yaşayıb anlamaq lazımdır. Cəbhəyə yollanarkən söz vermişdim ki, Şuşa məscidində ilk dəfə azan oxuyub namaz qılacam, sözümün üstündə durdum. Şuşada namaz qılmaq mənim üçün Kərbəlada namaz qılmağa bərabər oldu. Bu hissləri də sözlə ifadə etmək olmur. 30 il bizim məscidlərə edilən hörmətsizlik aradan qalxdı.

### “Düşünmürəm dostum ölüb, o şəhiddir və yaşayır...”

- Müharibə zamanı ən yaxınlarımızı itirdik, amma bu acıya dözdük, çünki onların qanı yerdə qalmadı. Ən yaxın qardaşlarımdan biri şəhid oldu. Cəbhədən geri döndükdən sonra qardaşımın məzarını ziyarət etdim. Mən düşünmürəm ki, dostum ölüb, o şəhiddir və yaşayır. Yanımızda olmasada, ruhən və mənən bizimlədir, heç vaxt onu unutmarıq.

### “Qardaşlarımızın qanı yerdə qalmadı”

- Noyabrın 10-u atəşkəs elan olduğu və qələbə qazandığımız barərə xəbəri bizə komandirlərimiz dedi. Amma yenə də bizdə arxayınçılıq olmadı, çünki ermənilər hər an hər şey edə bilərdilər. Onlar öz uşaqlarının paltarlarını, öz evlərini, öz yaxınlarını qoyub qaçan millətdilər. Sevincimizin həddi-hüdudu yox idi, çünki artıq qardaşlarımız ölməyəcəkdi, hamı sağ-salamat evinə qayıdacaqdı. Biz qələbə xəbərini eşitmədik, onu yaşadıq. .

### “Şəhid olmaq arzusu ilə getmişdim...”

- Bizim geri dönüş qərarımız Müdafiə Nazirliyi tərəfindən verilmişdi, sadəcə, postların boş qalmaması üçün bir neçə müddət yenidən cəbhə bölgəsində qaldıq. Təvəllüdlə buraxıldığımız üçün mənim gəlməyim yanvar ayının 11-nə qismət oldu. Hər kəs məni çox gözəl qarşıladı, bilmirəm ki, mən bu cür qarşılanmaya layiq idim ya yox, düşünürəm ki, qədərindən çox etdilər. Mən isə geri qayıdacağıma inanmırdım, çünki şəhid olmaq arzusu ilə getmişdim, amma qismət olmadı. Müharibəyə getdiyim üçün heç peşman olmadım, əksinə, yenidən olsa iştirak edərəm, çünki istəmirəm mənim orada gördüklərimi bundan sonrakı nəsillərimiz yaşasın.

### “Azan səsi qarşısında Allah onları susdurdu...”

- Müharibə zamanı çox hadisələr baş verdi. Bunlardan biri isə heç vaxt yaddaşımdan silinməz. Biz Xankəndi istiqaəmtində erməni postunda olduq, orada azan vermək istəyən zaman komandirimiz dedi ki, ”Azanı biraz yavaş səslə ver, ermənilər eşidib söyüb, təhqir etməsinlər”.

”Komandir onlar heyvandılar, işləridə ancaq hürməkdir” dedim, başladım azan verməyə, bu an bizdən qabaqda iki erməni var idi, azan verməyə başladığım zaman qarşımıza 20-ə yaxın erməni yığıldı. Sanki Allah onların ağzına qıfıl vurmuşdu, heç nə etmədən dayanmışdılar. Komandir də gördü ki, onlar susdular, azan səsi qarşısında Allah onları susdurdu. Mən azan verəverə düşünürdüm ki, hər an vura bilərlər, amma Allah icazə vermədi, əlləri, qolları bağlandı.

Biz Füzulidə olduğumuz zamanlarda da azan verirdim, azan səsini eşidən kimi onlar atışa başlayırdılar. Namaz qıldığımız anlarda belə ermənilər dayanmırdı, amma Allahımız bizi qorudu. Çox hadisələr gəlib başıma, amma ermənilərin azanın qarşısında susmağı unudulacaq bir an deyil.

### “Arzularım çoxdur...”

- Dostumu itirdikdən sonra həyatda nəyisə arzulamağı fikirləşmədim. Amma əvvəldən ürəyimdə olan arzularım çox idi. İlk növbədə istəyirdim ki, müqəddəs Həcc ziyarətində olum, bundan sonra Allah qismət etsə gedərəm. Hər zaman demişəm, indi də deyirəm ki, həyatımızda ən xeyirlisi nədisə, Allah onu bizlərə qismət eləsin. Arzularım çoxdur...

***Mehri QURBAN***

# Səhiyyə sahəsində atılan uğurlu addımların inkişafı üçün bütün imkanlar yaradılıb



***Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət Onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan müasir, qüdrətli və dinamik inkişafa malik olan ölkə kimi tanınır.***

Bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahələrində davamlı inkişaf müşahidə edilir. Xüsusilə də, səhiyyə sahəsində uğurlu addımlar atılıb, bu sahənin inkişafı üçün bütün imkanlar yaradılıb. Bunlardan biri də icbari tibbi sığortanın tətbiqidir. Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi mərhələli şəkildə həyata keçirilir. Bu istiqamətdə ilk olaraq pilot layihələr icra edildi və alınan nəticələr çox müsbət oldu. Pilot layihələrlə əhatə olunmuş şəhərlərdə həm tibbi xidmətin keyfiyyəti artdı, həm də vətəndaşların məmnunluğu yüksək səviyyədə oldu. Ona görə də icbari tibbi sığortanın ölkə üzrə tətbiqi tədricən genişləndiriləcək, aprel ayının birindən etibarən bütün ölkəni əhatə edəcək. İcbari tibbi sığortanın tətbiqində yüksək maddi-texniki bazaya malik olan səhiyyə müəssisələrinin əhəmiyyəti böyükdür. Ölkəmizdə son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib. Səhiyyənin xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Ölkəmizdə səhiyyənin səviyyəsinin yüksəlməsi son elmi texnoloji yeniliklərin tətbiqi sahəsində mümkün olub. Məhz pandemiya dövründə ölkə səhiyyəsinin bu duruma adekvat olması reallığı tam əks etdirir. Koronavirus pandemiyası dövründə bu sahədə görülən işlər, o cümlədən yeni tibb müəssisələrinin açılması ölkə səhiyyəsi ilə bağlı mənzərənin açıq təzahürüdür. Koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığının qorunması məqsədilə Prezident İlham Əliyevin rəhbərliyi ilə virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlər həyata keçirilməyə başlanmışdır. Cənab Prezident də çıxışlarında dəfələrlə vurğulayıb ki, dövlətimiz üçün ən vacib məsələ vətəndaşların sağlamlığıdır. Azərbaycan Prezidentinin bütün istiqamətlərdə həyata keçirdiyi siyasətin mərkəzində insan amili dayanır. Məhz buna görə də, Azərbaycan dövləti bir çox iqtisadi və maliyyə risklərinə baxmayaraq, vətəndaşların sağlamlığının qorunması üçün bütün mümkün addımları atdı. Aztəminatlı ailələrə, işsizlərə və pandemiyadan əziyyət çəkmiş sahibkarlıq subyektlərinə davamlı maddi-mənəvi dəstək, göstərilən qayğı bu gün də razılıqla qarşılanmaqdadır. Bu tədbirlərin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiyaya qarşı mübarizədə ölkəmizdə görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim edib.

Ölkəmizdə koronavirusla mübarizə uğurla davam etdirilir. Bu gün dövlətin görmüş olduğu önləyici tədbirlərin nəticəsi olaraq koronavirusa yoluxma sayında azalma müşahidə olunur. Eyni zamanda bu virusa yoluxmuş insanların mütləq əksəriyyəti sağalaraq evlərinə göndərilib. Virusdan qorunmaq və bu xəstəliyin profilaktikası istiqamətində də mühüm addımlar atılıb. Ötən müddət ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılıb. Yürüdülən dövlət siyasəti və vətəndaşların artan məsuliyyəti nəticəsində bu gün Azərbaycanda koronovirusla bağlı vəziyyət nəzarət altındadır.

Ölkəmizdə koronavirusa qarşı vaksinasiya prosesinə yanvarın 18-dən başlanılıb və uğurla davam etdirilir. Vaksinasiyanın əhəmiyyəti bu infeksiyaya qarşı orqanizmdə immunitetin yaranmasına nail olmaqla xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaqdan ibarətdir. Azərbaycanın aldığı Çinin “SinoVac” şirkətinin istehsal etdiyi “CoronoVAC” vaksini bir neçə ölkədə kliniki sınaqlardan keçirilib və mənfi təsiri aşkarlanmayıb. Cənab Prezident İlham Əliyev ölkəmizdə aparılan vaksinasiya il bağlı bildirmişdir ki: “Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdi. Eyni zamanda, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda, biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Eyni zamanda, biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib”.

***MM Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov***

# "Xankəndinə", yoxsa "Xankəndiyə"? - Bəs "w" hərfini dilimizə kimlər gətirib...

## Dil fövqəl milli sərvətdir, onu fərdlərin təfəkkürünə bağlamaq olmaz



***Azərbaycan dilinin inkişaf tarixinə nəzərən əminliklə deyə bilərik ki, dilimiz hazırda özünün çiçəklənmə və intibah dövrünü yaşayır. Buna ölkəmizin müstəqilliyi dövründə nail olunub. Azərbaycan dilinin dövlət dili statusu qazanması ilə ictimai funksiyası genişlənib, yazarlar tam sərbəstləşib, kütləvi informasiya vasitələrinin texniki imkanları böyüyüb, televiziyalar, internet portalları, sosial şəbəkə və çap mediasının keyfiyyət və kəmiyyətində ciddi dəyişikliklər baş verib. İndi yazacağım fikri məqsədli şəkildə əvvəlki yazılarımda da işlətmişəm, təkrar da olsa, bir daha xüsusi olaraq vurğulamağa məcburam.***

Azərbaycan dövləti dilimizin təmizliyinin qorunması və şəffaflığının təmin olunması üçün nə lazımdırsa, artıqlaması ilə edib. Dövlət dili statusu almış Azərbaycan dilinin təmizliyinin qorunması və şəffaflığının təmin edilməsi üçün müvafiq sərəncamlar verilib, həmçinin, dilimizin inkişafı, təmizliyi və şəffaflığının qorunması üçün rəsmi dövlət qurumları yaradılıb. Təəssüflər olsun ki, Azərbaycan dövlətinin dilimizin inkişafı, təmizliyinin qorunması barədə həyata keçirdiyi tədbirlər dilimizin inkişafı və təmizliyinin qorunmasına bilavasitə məsul olan rəsmi qurum və onların əməkdaşları tərəfindən lazımi səviyyədə qiymətləndirilmir, görülən işlər dövlətin həyata keçirdiyi tədbirlərə adekvat deyildir.

Azərbaycan dilinə dövlət qayğısının bariz bir nümunəsinə diqqət edək. 70 illik sovet dövründə cəmi dörd dəfə işıq üzü görən orfoqrafiya lüğətimiz 2004-2020-ci illər arasında 3 dəfə nəşr olunub. "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən, orfoqrafiya lüğətimiz hər beş ildən bir yenidən işlənilib təkmilləşdiriləcək nəşr olunacaq.

Bəllidir ki, dil dinamik bir varlıqdır, ondan hər gün fasiləsiz olaraq istifadə edilir. Telekanallar 24 saat yayımlanır, çap mediası gündəlik nəşr olunur, internet portalları sutka ərzində intensiv fəaliyyət göstərir. Ancaq fasiləsiz informasiya yayımlayan və maarifləndirmə missiyasını həyata keçirən kütləvi informasiya vasitələri dil qüsurlarından xali deyildir. Azərbaycan dilinin təmizliyi və səffaflığına birbaşa məsul olan qurumlar hər gün rastlaşdığımız dil qüsurlarını gündəlik qeyd etməli və diqqətə çatdırmalıdırlar. Sadə bir məntiq var. Səhv və qüsur vaxtında aradan qaldırılmayanda göz öyrəşir, şüuraltına oturur, yaddaşa yazılır, bununla da vərdiş halını alır.

İkinci Qarabağ müharibəsinin getdiyi dövrdə ardıcıl olaraq azad edilən kəndlərimizin bir çoxunun adı bu və ya digər səbəblərdən səhv yazılırdı. Yol verilən orfoqrafik səhvləri adi texniki qüsur kimi qəbul etmək mümkün deyil. Toponimlər tamamilə təhrif olunmuş bir formada yazılırdı. Həmin ərəfədə bu cür qüsurlar başadüşülən və bağışlanılması mümkün olan hal idi. Qələbə sevinci bu cür qüsurları kiçik məsələ kimi qəbul etməyə tam haqq qazandırırdı. Artıq müharibənin yaratdığı həyəcan arxada qalıb və zəfər zəngi çalınıb. Daha qüsurlara yol verməyə və buraxılan səhvləri də bağışlamaq doğru qəbul olunmaz.

### Hansı doğrudur: "y", yoxsa "n"?

Kütləvi informasiya vasitələrində son günlər daha çox rast gəlinən bir səhv barədə fikir bildirmək istərdim. Demək olar ki, əksər çap və elektron mediasının səhifələrində Xankəndi sözünün yönlük halda səhv yazılışı ilə rastlaşırıq. Səhv olaraq Xankəndiyə yazılır. Məqaləni yazarkən Google.az saytında "Xankəndiyə" sözünü məqsədli olaraq axtarışa verdim. Axtarış prosesində dilçi ekspertin doğru rəyi ilə də rastlaşdım. Dilçi ekspert sözdəki bitişdirici samitin "n" olduğunu söyləsə də, mediamızda hələ də səhv davam etdirilir. Səhv haradan qidalanır? Məlumdur ki, yönlük halın şəkilçisi -a,-ə-dir. Sözün sonu saitlə bitəndə "y" bitişdirici samiti artırılır. Bu qaydanı orta məktəbdən bilirik. Məs. Bakı-ya, Şəki-yə.

Xankəndi mürəkkəb sözdür. Etimoloji yaranışı da kifayət qədər şəffafdır. Qarabağ xanı İbrahim xanın qış iqamətgahının yerləşdiyi məkan olduğundan "Xankəndi" adlandırılıb. Sözün formalaşma modeli də kifayət qədər sadə və aydındır: xanın kəndi. Xankəndi formasında birləşərək mürəkkəb söz olub. İkinci növ təyini söz birləşməsi modelində yaranan bu mürəkkəb sözün birinci tərəfində yiyəlik hal şəkilçisi düşüb. Bir qədər də açıq desək, bu mürəkkəb söz qeyri-müəyyən yiyəlik haldadır. Söz birləşməsinin (mürəkkəb sözün) ikinci tərəfi (kəndi) mənsubiyyətin üçüncü şəxsinin təkindədir. Məhz bu səbəbdən söz birləşməsi əsasında formalaşmış bu tipli mürəkkəb sözlər hallananda bitişdirici samit "y" yox, "n" olmalıdır. Digər nümunələrə diqqət edək. Şah dağı-na, Xəzər dənizi-nə, Qız qalası-na və s.

Haqqında danışdığımız sözün düzgün yazılışını orfoepik və orfoqrafik dil normativləri də açıq-aşkar formada təsdiq edir. Tələffüz zamanı Xankəndiyə yox, Xankəndinə deyilir. Xankəndiyə deyiləndə "y" bitişdirici samitinin yerinə düşmədiyi açıq şəkildə görünür. Sözün (Xankəndi) yaranma strukturu doğru variantı "-n" samitini diktə edir. Belə olan təqdirdə söz niyə deyildiyi kimi yazılmasın?

### Bu gün və bugünkü

Çap və elektron mediasında hər gün "bu gün" və "bugünkü" sözləri ilə rastlaşırıq. Başqa cür desək, mediamız bu sözlərsiz keçinə bilmir. Bu sözlərdən hər gün istifadə edilsə də, ancaq onun yazılışında dil normativlərinə əməl olunmur. Çap və elektron kütləvi informasiya vasitələrində səhv olaraq "bu gün" sözü bitişik, "bügünkü" sözü isə ayrı yazılır. Aydınlıq üçün bildiririk ki, "bu" işarə əvəzliyi, "gün" isimdir. Bu və gün sözlərinin hər biri müstəqil vurğu ilə deyilir. Elə bu səbəbdən də ayrı yazılmalıdır. Bugünkü sözü isə bitişik yazılmalıdır. Çünki söz bir vurğu ilə deyilir və bir məfhumu ifadə edir. Qeyd etdik ki, bu işarə əvəzliyi, gün isimdir. Ancaq bugünkü sözündə məna və məfhum "kü" şəkilçisinin artırılması ilə tamamilə dəyişib. Dilimizdə -kı, -ki, -ku, -kü şəkilçilərinin köməyi ilə zərfdən sifət əmələ gəlir. Məs. axşamkı söhbət, səhərki iş, bugünkü hadisə və s.

Bu məqamda onu da qeyd edək ki, bugünkü, ogünkü və birigünkü sözləri bitişik yazılan sözlər kimi orfoqrafiyamızda təsbit olunub.

### Söz yerində olmayanda...

Çap və elektron mediasında ən çox rast gəlinən səhvlərdən biri cümlədə söz sırasının pozulmasıdır. Söz sırasının pozulması dilçilik elmində termin kimi inversiya adlandırılır. Latın mənşəli olan bu sözün mənası "yerdəyişmə" deməkdir. Fikrin ifadə vasitəsi sayılan cümlə, həcmindən asılı olmayaraq, pozulmaz qanunauyğunluğa, dəyişilməyən struktur qaydasına malikdir. Əlbəttə, bu məqamda dünya dillərinin özünəməxsus qaydaları da qeyd olunmalıdır. Azərbaycan dilində də sabit cümlə strukturu mövcuddur. Məlum olsa da, bir daha diqqətə çatdırmaq istərdik. Mübtəda cümlənin əvvəlində, xəbər sonunda, təyin təyinolunandan əvvəl, zərflik, adətən, xəbərdən əvvəl gəlir. Cümlədə sözlərin düzgün sıralanması ən vacib dil normativlərindən sayılır. Bu sıralanma fikrin ifadə çalarından asılı olaraq, şeir və şüarda pozula bilər. Onu da diqqətə çatdırmaq vacibdir ki, şeir və şüarda söz sırasının pozulması fikrin doğruluğuna xələl gətirmir. Ancaq digər hallarda söz sırasının pozulması fikrin təhrif olunmasına, məzmunun dəyişilməsinə gətirib çıxarır.Cəmiyyət tərəfindən ciddi qəbul olunan bir çox internet saytlarında hər gün belə nümunələrə rast gəlinir.

Məs. 1. "Putin etimadı itirdiyi üçün onu vəzifədən çıxardı". Cümlənin məzmunundan belə çıxır ki, etimadı itirən Putindir. Əslində, belə olmalıdır: "Putin onu etimadı itirdiyi üçün vəzifədən çıxardı".

2. "Şuşada yerləşən Vaqifin məqbərəsindən birbaşa bağlantı". İlk baxışda yol verilən səhv texniki qüsur kimi qəbul oluna bilər. Əslində, bu, ciddi struktur səhvi - söz sırasının pozulmasıdır. Söz sırasını bərpa etməklə cümlədə fikir aydınlaşır: "Vaqifin Şuşadakı məqbərəsindən birbaşa bağlantı".

Onu da qeyd edək ki, nümunə gətirdiyim cümlələr saytlarda dərc olunmuş məqalələrin sərlövhəsində yazılıb.

### Əlifbamizda neçə hərf var?

İctimaiyyət tərəfindən ciddi qəbul olunan bəzi qəzet və saytlara istinadən deyə bilərik ki, əlifbamızda 32 yox, 33 hərf var. 33-cü hərflə oxucular da rastlaşmamış olmazlar. Həmin qəzet və saytlar Azərbaycan əlifbasına dilimizin fonetik və qrafik normalarını kobud şəkildə pozaraq, ingilis dili üçün xarakterik olan "w" (dablyu) hərfini gətiriblər. Onlar heç bir ehtiyac olmadan Nyu York sözünü New York şəklində yazırlar. Görəsən, onlar "w" hərfini klaviaturada kompüterin dilini dəyişərək yazdıqlarını bilmirlərmi? Ən azından texniki səhv etdiklərinin fərqində olmalıdırlar. Belə ki, kompüterdə "w" yazarkən (mən indi "w" hərfini yazmaq üçün kompüterdə dil dəyişikliyi apardım) mütləq ingilis dilini seçməlidirlər.

Yeri gəlmişkən, onu da qeyd edək ki, bu tipli sözlərin yazılışı (coğrafi adlar) "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə də düzgün təsbit olunmayıb. Nyu York, Nyu Cersi, Nyu Meksiko və b. coğrafi adların defislə yazılmasının heç bir elmi əsası yoxdur. Fikrimizi "Nyu York" sözünə istinadən izah edək. New (nyu) ingilis dilində yeni, təzə mənasını ifadə edir, York isə İngiltərənin qədim şəhərlərindən birinin adıdır. İngiltərənin həmin şəhərinin şərəfinə adıçəkilən yaşayış məskəni Nyu York adlandırılıb. Necə ki, Yeni Yaşma, Yeni Göyçə,Yeni Zod və başqa coğrafi adları defissiz yazırıq, eləcə də Nyu York, Nyu Cersi, Nyu Meksiko və başqa sözləri defissiz yazmalıyıq. Bu sözlərin orijinalında- ingiliscəsində defis yoxdur. Ehtimal ki, bu sözlərin səhvən defislə yazılması rus dilinə istinadla bağlıdır.

Qeyd etmək lazımdır ki, durğu işarələrinin həddindən artıq işlənilməsi bütövlükdə dilimizə, o cümlədən yazı prosesinə yalnız ağırlıq gətirir. Şərti və əsassız, heç bir dil normativinə əsaslanılmadan qoyulan durğu işarələrinə lüzum yoxdur.

### Səhvlər haradan qaynaqlanır?

Bu barədə əvvəllər də qeydlərim olub. Hər hansı mətnin ictimaiyyətə qüsursuz təqdimatı redaktə və korrektura prosesi ilə birbaşa bağlıdır. Düzdür, ən kiçik informasiya belə ilkin mərhələdən doğru, dürüst və savadlı hazırlanmalıdır. Ən savadlı hazırlanan mətn belə redaktə və korrekturadan keçməlidir. Etiraf edək ki, mətn çox oxunduqca səhvlərdən təmizlənir və cilalanır. Bu məqamda onu da etiraf edək ki, yaşadığımız günlərdə redaktə və korrektura institutu redaksiyalar tərəfindən lazımi səviyyədə dəyərləndirilmir.

Bu gün texnologiyanın yaratdığı hüdudsuz imkanlar sayəsində nəinki nöqsanlara yol verməmək, hətta buraxılmış səhvlərin bir çoxunu sonradan belə aradan qaldırmaq mümkündür. Elektron mediada yol verilmiş qüsurlar istənilən vaxt düzəldilə bilər.

İctimai hadisə sayılan dil xalqa, ümumən ictimaiyyətə xidmət göstərir. Belə olduğundan bütövlükdə ictimaiyyət dilimizin qayğısına qalmalı, onun təmizliyinin qorunmasına, şəffaflığının təmin olunmasına xüsusi diqqət yetirməlidir. Dil cəmiyyətin digər ictimai dəyərlərinin də reallaşmasını təmin edir. Dil ümumxalq mülkiyyəti olduğundan onu ayrı-ayrı fərdlərin düşüncə və davranışına bağlamaq mümkün deyildir.

***Xeybər Göyyallı***

# Zaqatalanın uca zirvələrə yüksələn qartalı...

## 24 il Vətənə qulluq etmiş Abakar - Biz Sizinlə qürur duyuruq!

***44 günlük Vətən Müharibəsində bütün hərbiçilər rütbəsindən asılı olmayaraq birləşdilər, düşmənə qarşı fədakar mübarizə apardılar. Şanlı Ordumuzun yüzlərlə yüksək mayor, polkovnik-leytenantı, polkovnik, hətta generalları da-siravi əsgərlərlə birlikdə səngərdə, ön cəbhədə erməni dığalarına qarşı vuruşdular. Azğın düşmənə diz çökdürdülər. Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq təcrübəli zabit, ömrünün 24 ilini hərbiyə həsr etmiş, bu illər ərzində qüsursuz, nümunəvi xidmət etmiş, Müdafiə Nazirliyinin Qusar şəhərində yerləşən "N" saylı hərbi hissəsinin hərbi-siyasi işlər üzrə komandir müavini - mayor Abakar Məhəmməd oğlu Hacıyev ölkəmizin hərb tarixində yeni tarix yazdı.***

Hətta Böyük Vətən Müharibəsində fərqli olaraq belə taktiki gediş etdi. Yüksək çinli zabitlər, müharibə başlayan gündən bizim fəxrimiz mayor Abakar Hacıyevin rəhbərliyi ilə hərbi hissənin zabit, gizir, xidmətdən əlavə hərbi xidmətini davam etdirən, çavuş heyəti, sıravi əsgərlər tabor heyəti ilə nüharibənin ilk günündən ön cəbhə xəttinə gəliblər və ölüm-dirim mübarizəyə başlayıblar... Yaşadığı ömür yolunda hərbi qulluqçuluğu dövründə daima qartal kimi uca zirvələri dolaşan Azərbaycanın mərd oğlu, inadkar zabitimiz Abakar Hacıyev cəbhədə də qartal kimi azğın düşmənə qan udurdu. Hərbiçilərə, əsgərlərə ruh yüksəkliyi verərək son damla qanınadək döyüşdü... Döyüş əməliyyatlarını təşkil etməklə yanaşı əlində silahla əsgərlərlə çiyin-çiyinə vuruşdu, onları tək qoymadı mayor-"zampalit" Abakar Məhəmməd oğlu Hacıyev Və, Vətənimizin bütövlüyü uğrunda...

Bəs, bu İkinci Qarabağ Savaşında əbədiyyətə qovuşan, qəhmanlıq dastanı yaratmış mayor şəhid Abakar Hacıyev kimdir? Gəlin qəhrəmanımızla tanış olaq. O, 1979 -cu il aprel ayının 11 -də Zaqatala rayonu Dardoqqaz kəndində Məhəmməd kişi ilə Pirdas ananın ailəsində dünyaya göz açıb. Bu ailədə 3 qardaş Abakar, Vüqar, Arif və 1 bacı Gülnar böyüyüb, boya-başa çatıblar. 2004-cü ildə dünyasını dəyişən Abakarın atası Məhəmməd kişi keçmiş "Bakı Fəhləsi" kolxozunda, kənddə baytar həkimi işləyib, yaxşı xidməti ilə el-obada böyük hörmət qazanan kişilərdən olub. Pirdas ana isə övladlarını halallıqla böyütmək üçün tütün əkib, barama yetişdirib və bağ-bağçaya qulluq edib, bar-bərəkət yetişdirib. Valideynləri hər övladını tərbiyəli, zəhmətsevər, nümunəvi və Vətənpərvər ruhda böyüdüblər. Həyat yoldaşı dünyasını dəyişəndən sonra ailənin yükünü çəkən Pirdas xanım övladlarını oxutdurub və oğlanlarını, övladlarını elimizin gözəl adət-ənənələri ilə evləndirib və qızını gəlin köçürüb. Artıq, Pirdas ana nəvələri ilə bütün dərd, kədərini unutmağa çalışır. Haqqında danışdığımız qəhrəmanımız ailənin böyük övladı, ailənin dayağı, möhkəm dirəyi və ağsaqqalı olub.

Təbiətcən sakit, mülayim, xoş xasiyyətli olan Abakar məktəb yaşlarından yüksək rütbəli hərbiçi olmaq arzusu ilə yaşayıb. O, əvvəlcə Sumaylı kənd məktəbiin 8-ci sinfini bitirdikdən sonra, 9-cu və 10 -cu sinfini isə Zaqatala şəhərindəki Şıxali Qurbanov adına 3 saylı orta məktəbində oxuyub. Bu məktəbləri əla qiymətlərlə bitirən Abakar Hacıyev Ali Hərbi Dənizçilik Məktəbinə olub.

"...Mən, bir ana kimi Abakar hərbiçi olmağı bildirəndə tərəddüd etdim. Çünki, o, çox sakit təbiətli, kimsənin xətrinə dəymək istəməyən, ancaq yaxşılıq etməyə çalışan, tarix-hərbi fənlərini böyük həvəslə ürəkdən öyrənirdi. Məktəb illərində tarixi qəhrəmanların həyatlarından dönə-dönə maraqlanırdı. O, rus imperiyasına qarşı 25 il mübarizə aparan İmam Şamilin hərəkatı barədə dəfələrlə kitablarını mütaliə etmişdi. Onun idealı İmam Şamilin güclü - qorxmaz sərkərdələrindən olan Hacı Murad idi. Lev Tolstoyun onun barəsində yazdığı "Qafqaz Qartalı" əsərini bir neçə dəfə oxumuşdu" -deyə oğlu şəhid olandan sonra qara libasını əynindən çıxartmayan Pir-



das ana səbirlə, təmkinlə, mülayim səslə oğlunun keçdiyi ömür yolunu - həyatını nəql etdi:

Abakarın 11 yaşı olanda "20 Yanvar Faciəsi" baş vermiş, 13 yaşında "Xocalı soyqırımı" törədilmiş və Qarabağda erməni azğınlar Birinci Qarabağ Savaşına başlamışdı. Uşaq olmasına baxmayaraq bu yaşananlar barədə necə hisslər keçirdiyini çox yaxşı başa düşürdü. Torpa iddiasında olan xain qonşulara - erməni daşnaklarına qarşı necə nifrət olduğunu oxuyurdu. O, seçdiyi hərbi sənətinə çox ürəkdən bağlı idi, bu mürəkkəb sahənin çətinliklərinə baxmayaraq, daha da təkmilləşməyə, təcrübəsini artırmağa, hansı hərbi hissədə çalışsa da inadkarlığı, dürüstlüyü ilə hamıya nümunə olmağa çalışardı. Gənc kadrlara gözəl məsləhətlər verərər, onların hərbi-siyasi biliklərin öyrədilməsində böyük səy göstərərdi - Abakar. Azərbaycan Silahlı Qüvvələrində 24 ildən çox zabit kimi xidmət edən oğlum eyni zamanda nigaran görünürdü. Çünki, Azərbaycanımızın ərazisinin bir hissəsi düşmən əsarəti altında olmasını qəbul etmirdi. Tezliklə müharibənin başlamasına həmin ərazilərin hərb gücü ilə qaytarılmasına əmin idi, bizim fəxrimiz - fədaimiz..."

Ailəsindən öyrəndik ki, Abakar Hacıyev Ali Hərbi Dənizçilik məktəbii müvəffəqiyyətlə bitirdikdən sonra leytenant kimi fəaliyyətinə Sumqayıt şəhər H. Z. Tağıyev adına qəsəbədəki Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində işə başlamışdır. Yüksək intellektual səviyyəyə malik, mədəni davranışı ilə seçilən, əsil hərbiçiyə xas keyfiyyətləri olan, daima öz üzərində çalışmış Abakar Hacıyev daha sonra hərbi qulluğunu əsasən cəbhə bölgələrində yerləşən hərbi hissələrdə yüksək səviyyədə komandir kimi davam etdirib. Onun hərbi xidmət yolu Beyləqan, Füzuli, Goranboy rayonlarındakı "N" saylı hərbi hissələrdən keçib və Azərbaycan Silahlı Qüvvələrinin ən etibarlı andına sadiq zabit kimi yetişib. Abakar eyni zamanda dəfələrlə müxtəlif xarici ölkələrdə hərbi biliklərin təcrübəsini artırmaqla yanaşı hərbi-siyasi, döyüşə hazırlıq təlimlərində fəal iştirak edib. O, hər hansı bir hərbi hissədə xidmət etsə də öz nümunəvi rəftarı, hərbi andına sadiqliyi ilə, komandanlığın, zabit və əsgər heyətinin, zabit və əsgər heyətinin böyük hörmətini qazanıb. Milli ordumuza neçə - neçə zabit yetişdirən, müxtəlif hərbi vəzifələrdə çalışan Abakar əlaçı, qüsursuz xidmətə, təcrübəli, yüksək çinli bir zabit kimi Müdafiə Nazirliyi tərəfindən dəfələrlə yubiley, qüsursuz xidmətə görə medallarla, fəxri fərmanlarla və dəyərli hədiyyələrlə mükafatlandırılıb.

Azərbaycanımızın fəxri, qəhrəmanlar diyarı Zaqatalanın adını uca zirvələrə çıxartmış, daima qartal tək göylərdə bərq vuran, ağayanalığı ilə, nümunəvi tərbiyəsi ilə, hərbiçilərin - əsgərlərin sevimlisi olmuş - Abakar Hacıyev həm də ailəcanlı ailə başçısı olub.

07 sentyabr 2007 -ci il tarixdə rayonda tanınmış, ziyalı, böyük hörmət qazanmış Arzu xanımla ailə həyatı qurmuşdu. Bu mərd zabitin qəlbən sevdiyi Arzu Hacıyeva da ali təhsillidir. O, Bakı Slavyan Universitetinin filologiya fakültəsinin rus bölməsini əla qiymətlərlə bitirmişdir. Abakar həyat yoldaşına, ailəsinə çox bağlı, diqqətcil adam olub. Ərlə - arvad bir-birlərinə çox sadiq idi. Bu ailənin 3 övladı var. Böyük övladının oğlu Hacının - 12, qızı Elviranın - 10, son beşiyi Eldar isə 4 yaşındadır.

"Abakar 2017 -ci ildə Müdafiə Nazirliyinin sərəncamı ilə, Qusar şəhərində yerləşən "N" saylı hərbi hissənin komandir müavini təyin edilib. Ürəyi Vətən eşqi ilə döyünən, daima işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi üçün narahatlıq keçirən, 2016 -cı ili aprel döyüşləri zamanı həyat yoldaşım Goranboy rayonunda yerləşən hərbi hissədə komandir müavini idi. O, da həmin döyüşlərin fəal iştirakçısı olsa da, bizə heç nə bildirməmişdir..." deyərək, sakitcə söhbətimizə qoşulan cəsur zabitimizin xanımı daha sonra əlavə etdi: "O, harda olursa, olsun daima bizimlə əlaqə saxlayır, bizim yaşayış tərzimizlə maraqlanar, uşaqların hal-əhvalını, təhsili barədə soruşardı. Bizim problemlərimizi həll etməyə çalışardı. Hərbi xidməti barədə ailəmizdə heç nə danışmazdı. O, hərbi sirləri möhkəm saxlayar, bu barədə heç nə söyləməzdi. Hərbi hisədə böyüklü - kiçikli zabitlər, sıravilərdə onun xətrini çox istəyirdilər. Hamı ilə necə davranmaq lazım olduğunu yaxşı bacarırdı. Abakarın hərbi xidmətini bitirməsinə bir ildən çox az vaxt qalmışdı. Təqaüdə çıxdıqdan sonra Ali Hərbi Məktəbdə müəllim işləməyi arzulayırdı - Abakar... Ancaq... Qəfildən başlanan müharibə bütün arzularımızın üstündən xətt çəkdi. Üç övladını bizə əmanət qoydu, getdi... Bizə yaddan çıxmaz xoş xatirələr yaşatdı O..."

Zabit şəhidimizin əzizlərinin onun barəsində söylədiklərini dinlədikcə sanki Abakarın keçməkeşli, mənalı, hərbiçi həyatı kinolenti kimi gözümün önündən keçirdi. Bacısı Gülnarın qardaşı barədə dedikləri daha təsiredici idi. Təsəvvür edin ki, qardaş itkisi nə deməkdir, bacı üçün. O, hisslərini belə misralarla ifadə etdi:

Göz yaşların sel olarmış,<br>
Bu dünya puçmuş, yalanmış.<br>
Qardaş sənin gedişin,<br>
Ölümdən betər olarmış.<br>
Yandırdı bağrımı bu həsrət,<br>
Dondurdu qəlbimi bu həsrət.<br>
Sağalmaz bir yara içində,<br>
Yıxdı varlığımı, əzdi bu həsrət.

O, başqa cür adam idi. Hamımızın qayğına qalırdı, diqqət yetirirdi, dərdinə şərik olur, köməyini əsirgəmirdi. Atamız dünyanı dəyişəndən sonra, o, bizə həm qardaş, həm də ağsaqqalıq etdi. Anamızın sağ əli oldu, bizə dayaq oldu. Mən Avrasiya Akademiyasında təhsil alanda hər gün mənim vəziyyətimlə, necə oxumağımla maraqlanar hər bir problemini həll edərdi... Daima cəbhə bölgələrdəki hərbi hissələrdə xidmət etdiyi üçün onu gec-gec görürdük. Sonuncu dəfə 6 ay əvvəl görüşmüşdük. Heç inanmırdım ki, bu qardaşımla sonuncu görüş olacaqdı... Heyf, Abakardan, əvəz edilməz qardaşım..."

Qayınanası Fatimat Bulayeva: Abakar ayrı oğul idi. Onda, yüksək rütbəli zabitlərdə xarakterizə olan bütün müsbət dəyərləri vardı. Həm övladların müdrik bir atası, həm də Milli Ordumuzun beynəlxalq təcrübəli zabiti, komandiri kimi nadir insan idi. Onu oğlanlarımdan seçmirdim. Həmişə Vətən yanğısı ilə yaşayan Abakarımızın həyatı gələcək nəslə nümunə olacaq bir ömür yaşadı. O, döyüş meydanında hərbiçi yoldaşlarını tək qoymadı - Vətənimizin azadlığı yolunda o uca - şəhidlik zirvəsii fəth etdi... Bizim qəlblərimizdə isə tarixi iz qoyub getdi..."

Bəli, 27 sentyabr 2020 -ci il tarixində ermənilərin xaincəsinə təxribatından sonra başlanan Vətən Müharibəsində xidmət etdiyi - komandir müavini olduğu hərbi hissənin tam zabit və əsgər heyəti ilə - ön cəbhədə döyüşən Abakar Hacıyev mərdliyi, dönməzliyi ilə - qəhrəmanlığı dastanı yaratdı - adını qızıl hərflərlə hərb tarixinə yazdı. Azərbaycan Silahlı Qüvvələrinin əvəzedilməz zabiti - mayor Abakar Hacıyev İkinci Vətən Savaşında Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarının azad edilməsində xüsusi şücaət göstərib. Döyüşçü yoldaşlarının bildirdiklərinə, qorxmaz, mərd zabitimiz düşmənlə ölüm-dirim mübarizəsi apararaq əsas uğurlu döyüş əməliyyatlarının təşkil edilməsində fəallıq göstərib.

24 il Azərbaycanımızın Silahlı Qüvvələrində qüsursuz xidmət və təqaüdə çıxmağa 1 il qalmış Hadrut uğrunda döyüşlərdə 28 oktyabr 2020 -ci il tarixində yaralı döyüşçüləri xilas edərkən qəhrəmancasına həlak olub.

Qeyd edək ki, torpaqlarımızın azadlığı uğrunda həlak olan Abakar Məhəmməd oğlu Hacıyevin hərbi rütbəsi mayor olsa da, o, polkovnik - leytenant rütbəsi səviyyəsində hissənin komandir müavini kimi qulluq göstərirdi. Ömrünün yarısını hərbi xidmətə həsr etmiş təcrübəli zabit müharibə başlananadək polkovnik-leytenant rütbəsi verilməli idi. Eyni zamanda Abakar Hacıyev hərbidəki əla xidmətlərə və müharibədəki igidliyə və şücaətə görə "Vətən Müharibəsinin Qəhrəmanı" fəxri adına təltif olunmalı idi. Çünki, o, buna layiqdir. Onunla hərbi hissədə xidmət edən və müharibədə onunla döyüşən hərbi qulluqçuların söylədiklərinə görə, şəhid zabitimizin çoxlu sayda yetirmələri bu savaşda həm şəhid, həm də qazi olaraq - qəhrəmanlıq nümunəsi göstəriblər.

Prezidentin sərəncamı ilə - elimizin fəxri, adı dillərdə dolaşan, gələcək nəslə nümunə olan Abakar Hacıyev göstərdiyi şücaətlərə görə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub. 28.10.2020 -ci il tarixində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş zamanı həlak olan Abakar Hacıyev "Şəhid" və onun ailəsi "Şəhid ailəsi" statusu alıb.

...İndi-Dardoqqaz kəndində yaşayan Hacıyevlər ailəsinin ağbirçəyi Pirdas ana, şəhid zabitin ömür - gün yoldaşı olmuş - Arzu xanım, onların 3 övladı, bacısı Gülnar, qardaşları Vüqar Arif və digər əziziləri hələ də böyük səbirsizliklə Abakarın yolunu gözləyirlər. Böyük nigarançılıqla, ümidlərlə... Əlbəttə ki, doğulub, böyüyüb, başa çatdığı Dardoqqaz kənd qəbristanlığında uyuyan şəhid zabitimiz, komandir müavini Abakar Məhəmməd oğlu Hacıyev ölməzliyə qovuşub, daima qəlblərdə yaşayacaq, xatırlanacaq... yüksək rütbəli zabit, dəyərli - əsil insan kimi... Ruhun şad olsun...! Əziz qardaşımız...

Qeyd: Yaxşı olardı ki, Sumaylı kənd tam orta məktəbinin pedaqoji kollektivi şəhid zabit Abakar Məhəmməd oğlu Hacıyevin adının, onun ilkin təhsil aldığı həmin məktəbə verilməsinə təşəbbüs göstərərdilər.

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# ABŞ-İran münasibətlərinin perspektivi

## Nə İran o İrandır, nə də Amerika o Amerika...



***Donald Tramp administrasiyasının 2018-ci ilin may ayında 2015-ci ildə İran və Qərb ölkələri arasında əldə edilən nüvə sazişindən çıxmaq qərarı, İranın gəmiçilik, aviasiya, maliyyə və enerji sektorlarını hədəf alan geniş sanksiyaları, İranın Qüds Qüvvələrinin komandanı general-leytenant Qasim Süleymanini qətlə yetirilməsi, İranın Amerika bazasına o vaxta qədər görünməmiş hücumu nəticəsində 100-dən çox ABŞ əsgərinin ağır yaralanması ABŞ-İran münasibətlərini müharibə astanasına kimi gətirib çıxartdı.***

Ağ Evin yeni rəhbəri Co Baydenin seçkilər zamanı İranla bağlı o qədər də sərt olmayan çıxışları İranla mülayim münasibətlərin qurulması, hətta nüvə sazişinin yenidən bərpa olunması ehtimalınım dünya, əsasən də İran və Amerika mediasında müzakirə edilməsinə səbəb oldu. Düzdür, ABŞ və İran prezidentlərinin qərar verməsində Senat, Pentaqon, Konqres, Ali Dini Rəhbər institutlarının heç də az təsiri yoxdur. Həm də, bu gün nə İran o İrandır, nə də Amerika o Amerika. Beləliklə, ABŞ-İran münasibətlərinin perspektivləri ilə bağlı ekspertlər Xeberlent.az-a öz fikirlərini bildirdilər:

Politoloq Şahin Cəfərli: Əvvəla, onu qeyd edim ki, Amerika sistemində İran məsələsinə iki baxış var. Respublikaçılar hesab edir ki, İranın bu destruktiv fəaliyyətlərinin qarşısını almaq (əsasən uran və raket proqramlarının məhv edilməsi) üçün İrana çox ciddi təzyiqlər edilməli, ağır sanksiyalar tətbiq olunmalı, hətta, ehtiyac yaranarsa, güc işlədilməlidir. Demokratların baxışı bir az fərqlidir. Onlar bu məsələnin dialoq və əməkdaşlıq çərçivəsində həll ediləcəyinə inanırlar. Təsadüfi deyil ki, demokrat prezident Barak Obamanın dövründə İranla bu məlum anlaşma - uran anlaşması imzalandı. Lakin respublikaçı olan Tramp gəldikdən sonra ABŞ həmin müqavilədən çıxdı. İran da öz növbəsində mərhələ-mərhələ həmin müqavilədən geri çəkilməyə başladı. Yeni seçilən demokrat Cozef Baydenin isə iradəsi ABŞ-ın yenidən həmin anlaşmaya qayıtmasından ibarətdir. Demokratlar hesab edirlər ki, uranın zənginləşdirilməsi problemində Trampın sərt basqı siyasəti əks effekt verərək İranı nüvə silahını əldə etməyə daha da yaxınlaşdırıb. Bu baxımdan Amerikanın yeni administrasiyası bu məsələdə İranla dialoqa tərəfdardır və artıq qeyrirəsmi şəkildə də olsa tərəflər arasında danışıqlar başlayıb. Bayden ötən günlərdə İran məsələsi üzrə xüsusi nümayəndə təyin etdi və bundan sonra tərəflər arasında rəsmi səviyyədə də müzakirələr başlayacaq. Əlbəttə ki, həmin müqavilənin şərtlərinə yenidən qayıtmaq elə də asan məsələ deyil, yəni, qeyd etdiyimiz kimi, İran ötən müddətdə bu anlaşmadan mərhələ-mərhələ geri çəkilib və uranı yenidən böyük miqdarda zənginləşdirməyə başlayıb. Digər tərəfdən də, Tramp dövründə Amerika İrana qarşı yeni və çox ağır sanksiyalar tətbiq edib. İndi İran tərəfinin əsas şərti ondan ibarətdir ki, yeni ABŞ hökuməti əvvəlcə Tramp dövründə tətbiq olunan sanksiyaları ləğv etsin, ondan sonra biz masaya oturmağa hazırıq. ABŞ da buna isti baxmır, onlar deyirlər: Qoy əvvəlcə müzakirə başlasın; əgər müzakirənin gedişində razılaşma əldə olunar və İran tərəfi konstruktiv mövqe sərgiləyərsə, onda biz Tramp dövründəki sanksiyaları ləğv edə bilərik. Onu qeyd edim ki, söhbət heç də İrana qarşı tətbiq olunmuş bütün sanksiyaların ləğvindən getmir, çünki prezidentin aradan qaldıra bilməyəcəyi, Konqres tərəfindən tətbiq olunan sanksiyalar da var. Söhbət sadəcə Tramp dövründə prezident qərarı ilə tətbiq olunan sanksiyaların ləğvindən gedir. Hər halda, önəmli olan məqam odur ki, indi hər iki tərəf, həm ABŞ, həm İran dialoqa meyillidir. Başqa bir tərəfdən, problem təkcə İranın uran proqramı ilə bağlı deyil, eyni zamanda İranın raket proqramı da ABŞ və xüsusilə onun müttəfiqi İsraili narahat edir. ABŞ hesab edir ki, bu raket proqramı da müəyyən səviyyələrə qədər azaldılmalıdır, yəni İran İsraili vura biləcək ballistik raketlərin istehsalını dayandırmalıdır. İran isə bunu, təbii ki, qəti şəkildə rədd edir və raket istehsalını özünün suveren hüququ hesab edir. Beləliklə, raket istehsalı proqramı da danışıqların gedişində gündəmə gələ bilər.

Politoloq Ramiya Mamedova: Sualınıza cavab olaraq demək istəyirəm ki, əlbəttə, bu gün, sizin dediyiniz kimi, nə Amerika o Amerikadır, nə də İran o İrandır. İslam inqilabından bəri ABŞ ilə İranın münasibətləri gərgin olub və gərgin olmaqda da davam edir. Amma hər prezident seçkisindən sonra ABŞ siyasətində müəyyən dəyisikliklər olur. Müşahidələrimiz onu göstərir ki, Demokratlarla Respublikaçılar arasında İranla bağlı siyasət də fərqlidir. Bilirik ki, hazırda ABŞ-ın Yaxın Şərqdə ehtiyat etdiyi dövlətlərdən biri də İrandır. ABŞ və İsrail İranın uranı zənginləşdirməsini, Yaxın Şərqdə və Qafqazda artan nüfuzunu özünə təhlükə kimi görür və bu hal ABŞ-İran münasibətlərində gərginlik yaradır. İranın artan nüfuzunun qarşısını almaq üçün ABŞ İrana tətbiq etdiyi sanksiyaların sayını artırır. Obama hakimiyyəti dövründə ABŞ-İran münasibətlərində sanksiyaların cüzi də olsa ləğv edilməsi, nüvənin zəngiləşdirilməsi ilə bağlı Avropa ölkələrinin də dəstəklədiyi sazişin bağlanması kimi addımlar atılıb sözügedən dövlətlər arasında xeyli yaxınlaşmasa olsa da, Tramp hakimiyyəti dövründə nəinki bu sazişdən, ümumiyyətlə İranla olan münasibətlərdən tam imtina edildi. Səbəblərdən biri kimi Trampın Yaxın Şərq layihəsində mühim yer tutan İsrailin güclənməsi məsələsi də götürülə bilər.

Tramp prezidentliyi dövründə ABŞ-ın geopolitik nüfuzunu artırmaqdan çox, iqtisadi cəhətdən güclənməsinə, xarici ölkələrdə olan ABŞ hərbçilərinin geri çağırılması, işsizliyinin azaldılması və s. bu kimi addımlar atmaqla dövləti daxildən möhkəmləndirməyə çalışdı və buna qismən də olsa nail oldu. Düşünürəm ki, Baydenin hakimiyyəti dövründə İrana münasibət - eynilə Obamanın hakimiyyəti dövründəki kimi - yumuşalmağa doğru gedəcək. Bu yaxınlarda Türkiyəyə səfər etmiş İran İslam Respublikası Xarici İşlər naziri Zərif türk diplomatiya idarəsinin başçısı Çavuşoğlu ilə birgə mətbuat konfransında belə bir fikir söylədi ki, İran hər zaman digər dövlətlərlə dostluq münasibətlərində olmaq istəyir və əgər uranın zənginləşdirilməsi ilə bağlı sazişə qayıdarsa, bu, hətta ABŞ-la münasibətlərə də aid ola bilər. Burda belə bir məsələ var ki, bugünkü gündə İrana belə bu gərginlik yaramır. Bilirik ki, İran iqtisadi baxımdan pis vəziyyətdədir. Dollar bahalaşıb, rial düşüb, habelə İran blokadada olan bir ölkə olaraq iqtisadiyyatını əsasən öz daxilində dövr elətdirir.

Düzdür, ABŞ idarəçiliyində, daxili-xarici siyasətində Senatın, Pentaqonun, Konqresin təsirləri az deyil, amma buna baxmayaraq, Baydenin Trampdan fərqli olaraq İranla bağlı siyasətin yumuşaldılması üçün addımlar atacağı, Obamanın apardığı siyasəti davam etdirəcəyi gözlənilir. Buna rəğmən, Bayden Trampdan fərqli olaraq, münaqişə zonalarında, dünyada ABŞ-ın varlığını qabarıq göstərərək geopalitik nüfuzunu gücləndirməyə çalışacaq.

Politoloq Elxan Şahinoğlu: Keçmiş prezident Donald Trampın dövründə İranın Amerikayla münasibətləri xeyli gərginləşdi. Bunun da əsas səbəbi o idi ki, Donald Tramp hakimiyyətə gələr-gəlməz - vəd etdiyi kimi - nüvə anlaşmasından çıxdığını bəyan etdi. Halbuki bu anlaşma ondan qabaq, Barak Obama vaxtında imzalanmışdı. Tramp bu anlaşmadan çıxdı və vəziyyət gərginləşdi. Ondan sonra Amerika Qasim Süleymaniyə sui-qəsd həyata keçirdi, bu da münasibətləri lap pisləşdirdi. İranda qisas əməliyyatı haqqında çox danışıldı. Düzdür, iranlılar amerikan bazalarına raket zərbələri endirdilər, amma ABŞ hərbçiləri arasında böyük itkilər olmadı. Cozef Baydenin hakimiyyətə gəlməsi ilə müəyyən qədər yumşalma proqnozlaşdıra bilərik, çünki Cozef Bayden Barak Obamanın, bir növ, müavini - vitse-prezident olub. İranla aparılan danışıqlarda o da iştirak edirdi və o da nüvə anlaşmasının tərəfdarı idi. Ona görə mümkündür ki, Bayden administrasiyası yenidən nüvə anlaşmasına geri qayıtsın. İranın da əsas istəyi bundan ibarətdir. Bu olarsa, bölgədə müharibə riski xeyli azala bilər. Çünki müharibə riski artdıqca bunun Azərbaycana da mənfi təsiri yaranar. Azərbaycan iki böyük dövlət - Amerika və İran arasında müharibə olmasını istəmir, çünki biz hümanitar böhranla üzləşə bilərik. Ona görə bu münasibətlərin nisbətən yumuşalması bizim maraqlara da cavab verir. Ola bilər danışıqlar yenidən başlasın, ancaq İranla uranın zənginləşməsi ilə bağlı sazişin imzalanması o demək deyil ki, ABŞ-İran münasibətləri normallaşacaq, çünki ABŞ İranı terrorçu təşkilatları silahlandırmaqda, Suriyaya, İraqa təsir göstərməkdə ittiham edir, bundan başqa, bölgədə İsrailin maraqları kimi həssas mövzular da var. Amerika bu siyasətindən əl çəkməyəcək və İrana qarşı sərtliyini davam etdirəcək. Bu il iyunda İranda keçiriləcək prezident seçkiləri ABŞ və bütün dünya tərəfindən diqqətlə izlənəcək. İranda, son rəy sorğularına görə, artıq generallar da siyasətdə rol oynamağa çalışırlar və hansısa generalın prezidentliyə namizədliyini verəcəyi də istisna deyil. Hətta Xarici İşlər naziri Zərifin adı çəkilir. Yəni İran hakimiyyətinə mühafizəkar dairələrdən kimsə gəlsə, bu, ABŞ-İran münasibətlərinə yaxşı heç nə vəd etməyəcək. Növbəti İran prezidenti liberal dairələrdən olarsa isə, bu, gərginliyin indikindən çox olmayacağına ümid verər.

***Bəhruz Salmanov***

## Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağ həqiqətləri işğaldan azad edilmiş torpaqlarımız vasitəsilə dünyaya nümayiş etdirilməlidir!

## Kamilə Əliyeva: "Milli Məclis Qarabağ həqiqətlərinin dünya ölkələrinin parlamentlərinə və onların deputatlarına çatdırmaqda çox böyük işlər görüb və görməkdədir"

***Azərbaycan 44 günlük haqq savaşından qalib ayrılsa da, Dağlıq Qarabağ həqiqətlərinin dünyaya duyurulması yönündə işlər davam etməkdədir. Düşmənin 28 il işğal altında saxladığı torpaqlarımıza amansız divan tutması, xalqımıza məxsus maddi, tarixi mədəniyyət abidələrini dağıtması, daşı-daş üstündə qoymaması Dağlıq Qarabağ həqiqətlərinin, Ermənistanın işğalçı üzünün dünyaya nümayiş etdirilməsi üçün əsl fürsətdir. İşğaldan azad edilmiş torpaqlarımızdakı mənzərə, məscidlərimizə qarşı edilən təhqiramiz davranış dünyanın diqqətinə mütləq şəkildə çatdırılmalıdır.***

Millət vəkili Kamilə Əliyeva bu istiqamətdə iş aparmağın vacib olduğunu söyləyir. Deputat məsələyə kompleks şəkildə yanaşmalı olduğumuzu bildirir: "Vətən Müharibəsində Ermənistan üzərində tarixi qələbə qazandıq. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında 44 gün ərzində hərb meydanında Ermənistan ordusunu darmadağın etdi. Sirr deyil ki, son 200 il idi ki, erməni təbliğat maşını gecə-gündüz dayanmadan bütün dünyada anti-Azərbaycan təbliğatı aparırdı. Bu təbliğatla ermənilər istər çar Rusiyası, istərsə də SSRİ dövründə bütün dünyanı inandırmağa çalışırdılar ki, Qarabağ torpağı ermənilərə məxsusdur. Əfsuslar olsun ki, onlar bir sıra hallarda buna nail olurdular. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra erməni təbliğatının qarşısının alınmasında görüləcək təbliğat işlərinə başlanıldı. Son 17 ildə cənab İlham Əliyev Prezident seçildikdən sonra Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması daha da mütəşəkkil və sürətlə aparılmağa başladı. Bəli, biz qələbəni 44 günə qazandıq. 17 il Prezident cənab İlham Əliyev gecə-gündüz, yorulmadan, istər hərb, istər iqtisadi, istərsə də təbliğat sahəsində günbəgün bu qələbəni yaxınlaşdırdı. Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə



çatdırılmasını üç hissəyə bölsək, çox düzgün olardı. Vətən Müharibəsindən əvvəl, müharibə dövrünə və müharibədən sonrakı dövrə. Cənab İlham Əliyev Prezident seçildiyi ilk vaxtlardan istər dünya ölkələrinin başçıları ilə görüşlərində, istər beynəlxalq təşkilatlarda, istərsə də BTM-nin ali kürsüsündəki çıxışlarında birinci məsələ olaraq Qarabağ həqiqətlərini gündəmə gətirirdi və Ermənistanın işğalçı dövlət olduğunu qeyd edirdi. Eyni zamanda cənab Prezident bütün dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının bu sahədəki işlərini daha da gücləndirdi. Digər təşkilatlar ilə sıx əməkdaşlıq yarandı. Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın Qarabağ həqiqətlərinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri oldu. Bütün həqiqətləri, hadisələri, faktları Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, on illərdir erməni diaspor tərəfindən yayılan yalan və uydurmaların qarşısını almaq Heydər Əliyev Fondunun fəaliyyətində həmişə mühüm yer tutub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə bir sıra dövlətlərdə əsrin faciəsi olan Xocalı soyqırımı ilə əlaqədar "Xocalıya ədalət " aksiyaları təşkil edildi. Dünyanın 10-dan artıq dövlətində Xocalı soyqırımı rəsmən tanındı. Müharibə dövründə cənab İlham Əliyev dünyanın 30-dan çox ən nüfuzlu telekanallarına Qarabağın tarixi, həqiqətləri, eləcə də Ermənistanın törətdikləri vəhşiliklər barədə müsahibələr verdi. Bu dövrdə Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin səfirləri və nümayəndələri ilə geniş brifinqlər keçirildi, onların Ermənistan ordusunun müharibə ərazisində çox uzaqda yerləşən mülki əhalinin yaşadığı evləri atəşə tutması və dağıtmalarını, mülki şəxslərin qətlə yetirdiklərini əyani şəkildə öz gözləri ilə görmələri üçün həmin ərazilərə səfər təşkil edildi. Xarici KİV-lərin müxbirləri Ermənistan vəhşilikləri barədə reportajlar hazırladı və öz ölkələrində nümayiş etdirildi. Müharibədən sonrakı dövrdə də xarici diplomatlar və KİV-lərin nümayəndələrinin artıq işğaldan azad edilmiş kənd və şəhərlərimizə səfərləri təşkil edildi və bir daha Ermənilərin törətdikləri vəhşilikləri öz gözləri ilə gördülər. Görülən bu təbliğatların nəticəsində artıq dünya ictimaiyyəti əsl Qarabağ həqiqətlərini başa düşməkdədir və Azərbaycanın haqlı olduğunu dilə gətirməkdədir. Bu gün görülən bütün bu işlər davamlı olaraq görülür və görülməkdədir. Xaricdəki diaspor təşkilatlarımız digər dövlətlərin diaspor təşkilatları ilə əməkdaşlığı daha da gücləndirilməyi və Ermənistan təbliğatına qarşı onlarla sıx əməkdaşlıq etməlidirlər. Gənclərimiz sosial şəbəkə vasitəsilə Qarabağ həqiqətlərini digər ölkələrdə ki həmyaşıdlarına çatdırılması ilə əlaqədar daha aktiv olmalıdırlar. Milli Məclis Qarabağ həqiqətlərinin dünya ölkələrinin parlamentlərinə və onların deputatlarına çatdırmaqda çox böyük işlər görüb və görməkdədir. Demək olar ki, Azərbaycan parlamenti ilə əksər dövlətlərin parlamentlərində Dostluq qrupları yaradılmışdır. Bu dostluq qruplarındakı xarici parlamentarlər vasitəsilə Qarabağ həqiqətləri dünya parlamentinə də çatdırılır. Milli Məclisin rəhbərliyi tərəfindən bu sahədəki işlərimiz daha da təkmilləşdirilir və sürətləndirilir".

Qeyd edək ki, Ermənistan işğal dövründə Azərbaycana külli məbləğdə ziyan vurub. Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində orada İslam mədəniyyətinə aid olan bütün muzeylər, məscidlər, abidələr dağıdılıb. Təkcə İslam mədəniyyətinə aid abidələr deyil, digər abidələr də məhv edilib. İlk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal-hazırda hərbi məqsədlər üçün istifadə edilərək qəsdən dağıdılıb. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Beş minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və Xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları da dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilib. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardman zamanı yerlə-yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğal edilməsi nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, Azərbaycan professional musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), Azərbaycan vokal sənətinin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın (100-dən çox əşya) xatirə muzeylərinin, Ağdam tarix-diyarşünaslıq muzeyinin (2 mindən çox əşya), Qubadlı tarix-diyarşünaslıq muzeyinin (3 mindən çox əşya), Zəngilan tarix-diyarşünaslıq muzeyinin (6 minədək əşya) fondları qarət edilib. Əfsuslar olsun ki, bu abidələrin dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktiki olaraq mümkün deyil.

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# Ana 15 yaşlı qızını kişi ilə tutdu: "Yataq otağında..." - Şok təfərrüat

***Abşeron rayonunda 15 yaşlı qıza qarşı əxlaqsız hərəkətlərdə ittiham olunan Neftçala rayon sakini, 1986-cı il təvəllüdlü Taleh Bağırovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Taleh Bağırov Masazır qəsəbəsində "Bağçalı Evlər" yaşayış kompleksində 2005-ci il təvəllüdlü Südabə Əhmədovaya (ad və soyad şərtidir - red.) qarşı əxlaqsız hərəkətlər edib.

İstintaq orqanı tərəfindən Taleh Bağırovun barəsində Cinayət Məcəlləsiin 153.1-ci (on altı yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə) maddəsi ilə ittiham elan edilib.

## "İşıqları düzəltməyimi xahiş etdi"

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Taleh Bağırov elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. O, qeyd edib ki, heç bir yerdə daimi işləməyib, tikintidə fəhləlilik edib: "2019-cu ilin yanvarından dekabr ayına kimi Masazır qəsəbəsində yerləşən Qurtuluş-93 yaşayış kompleksində yeni binalarda fəhlə kimi işləmişəm.

Təxminən noyabr ayının əvvəllərində axşam saatlarında işdən çıxaraq evə gedərkən əvvəllər tanımadığım, sonradan adının Südabə olduğunu bildiyim şəxs mənə küçədə yaxınlaşdı, zəng vurmaq üçün telefon lazım olduğunu bildirdi.

İstifadəmdə olan mobil telefonu həmin şəxsə verdim. Südabə mənim telefonumla kiməsə zəng vurdu, təxminən 2-3 dəqiqə danışdı. Südabənin telefonla danışıb qurtardıqdan sonra mənə anasının hazırda xəstəxanada olduğunu, evdə tək qaldığını və evlərinin işıqlarının yanmadığını bildirdi. Məndən işıqları düzəltməyimi xahiş etdi".

## "Eyvandan küçəyə tullandım"

Taleh Bağırovun sözlərinə görə, Südabə ilə birlikdə Bağçalı yaşayış kompleksində üç mərtəbəli binanın birinci mərtəbəsində yerləşən evə gedib: "Südabə mənzilin giriş qapısını açarla açdı, içəriyə daxil oldu. Mətbəxə gedərək oradan şam yandırdı, dəhlizə tərəf getirdi. Mən isə işıqları düzəltmək istədim, amma düzəldə bilmədim. Təxminən beş dəqiqə sonra evin qapısı döyüldü.

Qapını açmaq istəyərkən Südabə qapını döyən şəxsin anasının olduğunu gördü, məndən gizlənməyimi tələb etdi. Bu sözlərdən sonra qorxdum və hadisənin qurama olduğunu başa düşdüm. Evdən çıxmağa yer axtardım. Evin qapısı açıldı, kiminsə içəriyə girdiyini hiss etdim.

Sonra qorxumdan evin eyvanında olan plastik pəncərədən küçəyə tullandım, qaçaraq getdim".

## "Məni şərləməməyi xahiş etdim"

Taleh Bağırovun ifadəsinə görə, təxminən 5-6 gün keçdikdən sonra onun istifadəsində olan mobil telefona yadında qalmayan nömrədən zəng gəlib: "Zəng edən özünü Südabənin anası kimi təqdim etdi. Qadın evdə olmadığı vaxt Südabənin yaşadığı evə zorla keçərək, azyaşlı qızı ilə cinsi əlaqədə olduğumu bildirdi, polisə şikayət etməməyim müqabilində məndən pul istədi.

Südabənin anasına qızını əvvəllər tanımadığımı, Südabə ilə heç bir münasibətim olmadığını, heç vaxt Südabəyə qarşı seksual hərəkətlər etmədiyimi, cinsi əlaqədə olmadığımı bildirdim. Südabənin anasından məni şərləməməyi xahiş etdim".

Taleh Bağırov bildirib ki, özünü Südabənin anası kimi təqdim edən şəxs onun ünvanına söyüşlər söyüb, tutduracağını bildirib: "Bundan sonra Südabənin ailəsi ilə maraqlandım. Südabə və anasının bir neçə dəfə adlarını bilmədiyim şəxsləri şərlədikləri, tutdurduqları məlum oldu. Hətta bir nəfər onların əlindən Rusiyaya qaçaraq gedib. Mənə zərərçəkmiş şəxs tərəfindən şər-böhtan atılıb".

## "Anamın təhriki ilə ifadə vermişəm"

Cinayət işi üzrə məhkəmədə zərərçəkmiş qismində ifadə verən Südabə Əhmədova bildirib ki, Masazır qəsəbəsində Yeni Bakı yaşayış kompleksində yerləşən 4 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdidir:

"Təqsirləndirilən şəxslə heç bir yaxınlığım olmayıb. Anamın təhriki ilə polis idarəsində ona qarşı şikayət edib, izahat vermişəm. Həmin hadisədən sonra mənə mənəvi cəhətdən dayaq duran İlqarın evində yaşayıram.

O, avtobus sürücüsüdür, hər problemimlə məşğul olur. Hazırda təqsirləndirilən şəxsə qarşı heç bir şikayətim yoxdur".

## "İnandım, tanış olduq..."

Məhkəmədə Südabə Əhmədovanın ibtidai istintaq zamanı verdiyi ifadəsi araşdırılıb. O, həmin ifadəsində göstərib ki, təxminən bir il öncə oxuduğu məktəbdən evə gələrkən və dayanacaqda sinif yoldaşları ilə söhbət edərkən adını bilmədiyi 20-25 yaşlı bir kişi ona yaxınlaşıb: "Həmin kişi mənimlə tanış və dost olmaq istədiyini bildirdi. Ona etiraz etdim, tanımadığım adamla tanış olmadığımı bildirdim, yaşadığım evə getdim.

Həmin şəxs 2-3 dəfə dalımca düşdü, israrla mənimlə tanış olmaq istədiyini bildirdi. Mən də ona inandım, tanış olduq. Adının Taleh olduğunu dedi. Mən də ona yalandan adımın Sara olduğunu bildirdim".

## "Dedi, evdə söhbət edək"

Südabə Əhmədova qeyd edib ki, Taleh bir neçə dəfə onu məktəbdən evə, evdən məktəbə avtobusla ötürüb, yol boyu söhbət ediblər: "Söhbət vaxtı Taleh məndən yaşımı soruşanda, ona yaşımı demədim, lakin 8-ci sinifdə oxuduğumu bildirdim. Həmin gündən Taleh arxamca düşdü, yaşadığım evin ünvanını öyrəndi.

Bir dəfə Taleh mənim arxamca düşəndə ona evdə oturaraq dost kimi söhbət etməyi xahiş etdi. Birinci dəfə evə gələndə onunla oturaraq söhbət etdik. Subay olduğunu, Bakı şəhərində qaldığını bildirdi. Məndən xoşu gəldiyini dedi və mənə qarşı heç bir hərəkətlər etmədi".

## "Köynəyini əynindən çıxardı, tərifləməyə başladı"

Südabə Əhmədovanın ifadəsinə görə, təxminən bir həftə sonra Taleh yenidən onun arxasına düşüb:

"Bizə gələcəyini, ona görə də qapını açıq saxlamağımı bildirdi. Səhər saatlarında yaşadığım evə gəldi, mənimlə bir az söhbət etdi. Amma mənə qarşı heç bir hərəkət etmədi.

Təxminən bir həftə sonra Taleh yenidən eyni qaydada yaşadığım evə gəldi, mənimlə söhbət etdi. Evin hər tərəfini gözdən keçirdi, sonra köynəyini əynindən çıxardı, məni tərifləməyə başladı. Mənə yaxınlaşaraq yataq otağında boynumdan və sinəmdən öpdü, əynimi soyunmağımı istədi. Əynimi soyunmadım, Taleh geyinərək getdi".

## "Gəl, sənə 20 manat verim, cinsi əlaqədə olaq"

Südabə Əhmədova qeyd edib ki, bir həftə sonra məktəbdən qayıdanda Talehin məhlədə dayandığını görüb: "Talehin arxamca evə gəlməsi üçün qapını açıq saxladım. O, evə keçdi. Bir az mənimlə söhbət etdi. Yataq otağında boynumdan və sinəmdən öpdü. Dedi, gəl, sənə 20 manat verim, arxadan cinsi əlaqədə olaq. Talehə dedim ki, sənin pulun lazım deyil. O da üstümə gəlmədi, əynini geyinərək getdi.

Bir həftə sonra yenidən yaşadığım evə gəldi. Sinəmdən, boynumdan öpdü, şalvarını və alt paltarını çıxardı. Talehi əlim ilə itələdim. Buna baxmayaraq, məni soyundurdu, yataq otağında divanın üzərinə uzatdı. Qeyri-təbii yolla mənimlə intim əlaqədə oldu. Mən hamama girəndə Taleh əynini geyinərək getdi".

Südabə Əhmədova bildirib ki, təxminən bir həftə sonra səhər saatlarında anası evdə olmayanda Taleh yaşadığı evin qapısının açıq olduğunu görüb və içəriyə daxil olub: "Yenə boynumdan və sinəmdən öpdü, məni soyundurdu, arxadan mənimlə cinsi əlaqədə oldu. Təxminən 5 dəqiqəyə yaxın intim əlaqədə olduq. Taleh bir həftədən bir, anam məni evdə tutana qədər yanıma gəlib, intim əlaqədə olmuşuq".

## "Anam xəstəxanaya düşdü"

Südabə Əhmədovanın ifadəsinə görə, oktyabrın 2-də, günorta saat 14 radələrində məktəbdən evə gələrkən Talehin yaşadığı binanın blokunun qarşısında dayandığını görüb: "Blokun qabağında çoxlu sayda adam olduğunu gördüm. Qapını açıq saxlamadım, anamın işdən zəng vurmadığını gördüm, özüm anama zəng vurdum. Anamın telefonunun səsinin evdən gəldiyini eşitdim.

Səs gələn yerə getdikdə, telefonun yataq otağında çarpayının üzərində gördüm. Telefonu götürərək anamın iş yoldaşına zəng vurdum. Anamı soruşdum. İş yoldaşı anamın halının pisləşdiyini və işlədikləri institutda həkimin yanına düşdüyünü bildirdi.

Təxminən 10-15 dəqiqə keçdikdən sonra həmin xanımın nömrəsinə təkrar zəng vuraraq anamın gəlib-gəlmədiyini soruşdum. O, anamın təcili tibbi yardım avtomobili ilə Respublika Mərkəzi Xəstəxanasının reanimasiya şöbəsinə apardıqlarını bildirdi".

## "Anamın yanına getdiyimi bildirdim"

Südabə Əhmədova qeyd edib ki, daha sonra xalası ona zəng vurub, hal-əhval soruşub: "Xalama anamın işdə halının pisləşdiyini, xəstəxanaya aparıldığını bildirdim.

Anamın yanına getmək üçün paltarlarımı dəyişdim, evdən çıxarkən Talehi blokun qarşısında gördüm. Məndən hara gedəcəyimi soruşdu. Anamın Respublika xəstəxanasında reanimasiya şöbəsində olduğunu və onun yanına getdiyimi bildirdim. Taleh məndən xəstəxananın yerinin tanıyıb-tanımadığımı soruşdu. Ona oranı tanımasam da, adamlardan soruşaraq gedəcəyimi bildirdim. Taleh mənə xəstəxananın yerini tanıdığını, mənə göstərə biləcəyini bildirdi.

Bir yerdə olduğumuzu kimsənin bilməməsi üçün Taleh mənə arxası ilə gəlməyimi xahiş etdi. Taleh evin yaxınlığından keçən 525 saylı sərnişin avtobusuna əyləşdi. Mən Talehdən kənarda oturdum və Şamaxinka adlanan yerdə birlikdə avtobusdan düşdük, oradan da 69 saylı sərnişin avtobusuna əyləşdik, 20 Yanvar metrostansiyasına getdik. Oradanda xəstəxanaya anamın yatdığı reanimasiya şöbəsinə getdik. Taleh məni xəstəxananın həyətində gözlədi.

Mən anamla görüşdüm. Anam mənə evə getməyimi, səhəri gün yanına gəlməyimi xahiş etdi. Anamla sağollaşaraq xəstəxanadan çölə çıxdım. Orada məni gözləyən Talehi gördüm".

## "İşıqların söndüyünü bildirdim"

Südabə Əhmədova bildirib ki, saat təxminən 20 radələrində yaşadığı evə çatıb: "Evə daxil olduqda işıqların yanmadığını gördüm. Daha sonra bloka çıxdım, anama zəng vurmaq istədim. Talehin yaxınlıqda dayandığını gördüm, anama zəng vurmaq üçün onun telefonunu aldım.

Taleh mənə telefonunu verdi, anama zəng vurdum, evə çatdığımı, evin işıqlarının isə sönmüş olduğunu bildirdim. Anam da mənə kimin nömrəsindən zəng vurduğumu soruşdu. Yalandan tanımadığım xalanın telefonundan zəng vurduğumu bildirdim.

Anamla telefonla danışarkən uzaqdan Samirənin (ad şərti verilib - red.) yaşadığım evin qapısını döydüyünü gördüm. Qapını açan olmadığından sonuncu blokdan çölə çıxaraq məndən həyətdə neynədiyimi soruşdu. Samirəyə anamla telefonla danışdığımı bildirdim. Samirə məndən kimin telefonu ilə danışdığımı soruşdu. Sonuncuya dayımın telefonu ilə danışdığımı bildirdim".

## "İntim əlaqəyə girmək istəyəndə qapı döyüldü"

Südabə Əhmədovanın ifadəsinə görə, bundan sonra Samirə ona telefonla danışdıqdan sonra evə getməyi tələb edib: "Talehə telefonu qaytararaq, onunla sağollaşdım. Taleh mənə "evdə təksənsə gəlim" sözlərini dedi. Mən razılaşmadım. Lakin evin qapısını açaraq içəriyə girəndə Taleh arxamca keçdi, qapını bağlayaraq açarları yerə atdı. Ev qaranlıq olduğundan şam axtararaq tapdım.

Şamları yandırıb, yataq otağında masanın üzərinə qoydum. Taleh mənim paltarlarımı soyundurdu. Dedi ki, heç kəsə, heç bir söz demə. Mənim sinəmdən, dodağımdan, boynumdan öpdü. İntim əlaqəyə girmək istəyən zaman qapı döyüldü.

Qapıya tərəf getdim və kim olduğunu soruşdum. Qapının biri tərəfindən Samirə səsini çıxartdıqda qapını açmaq istədim. Taleh isə mənim əlimdən tutaraq qapını açmamağımı tələb etdi".

## "Mənə sürpriz olduğunu dedi"

Südabə Əhmədova bildirib ki, bundan sonra Taleh əynini geyinib: "Mən paltarımı tapa bilmədiyimdən qapıya tərəf getdim. Taleh isə ayaqqabılarını əlinə götürərək evin yataq otağına tərəf keçdi, dolabın içərisinə girdi. Qapını kimin döydüyünü soruşdum. Samirə də "mənəm, sənə yemək gətirmişəm" sözlərini dedi.

Qapını açdıqda Samirə mənə sürprizi olduğunu dedi və qapı arxasından anam çıxdı. Anam qışqıraraq "o, haradadır" deyə soruşdu. Samirə ilə anam tualetə tərəf baxdılar, tualetdə heç kimin olmadığını görüb, yatdığım otağa keçdilər. Orada da heç kimi tapmayanda anam yataq otağının qapısını açdı. Talehin ayaq üstə dayandığını gördü.

Taleh qorxusundan mətbəxə tərəf qaçdı, mətbəxdə olan əşyaları dağıdaraq eyvanın setkasını cırıb, küçəyə tullandı. Lakin ayaqqabıları evdə qaldı".

Bu cinayət işinə Abşeron rayon Məhkəməsində hakim Şövkət Nəcəfovanın sədrliyi ilə baxılıb.

Taleh Bağırov 10 ay müddətinə azadlıqdan məhrum edilib. Taleh Bağırovun barəsində həbs qətimkan tədbiri seçilib və məhkəmə zalında həbs olunub.



# "Mikro sahibkarların hüquqları pozulur" - Biz nə edək?



***Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla Dövlət Vergi Xidməti arasında mübahisələr davam edir. Kiçik və orta sahibkarların hüquqi fəaliyyət meyarlarına ciddi maneələr yaradılır. Sahibkarlıq sahəsində Dövlət Vergi Xidmətinin qanunsuz müdaxilələri əsas problemə çevrilib. Yaranmış problemlə bağlı iqtisadçı Orxan Şükürov və vəkil Vüqar Cavadov "İslahat.az" xəbər portalına münasibət bildiriblər.***

"AMV Consulting" şirkətinin direktoru, iqtisadçı Orxan Şükürov açıqlamasında qeyd edir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları təsdiq edilmişdir. İqtisadçı həmçinin Vergi Məcəlləsində sahibkarlıq kateqoriyalarına görə bəzi azadolmalar və güzəştlər müəyyən edilməsini vurğulayıb: "Azadolma və güzəştlərin sırasında ən çox imtiyazlar mikro sahibkarlıq subyektlərinə şamil olunub. Bu dövlətimizin iqtisadi inkişafı üçün aparılmış düzgün siyasətdir. Belə ki, mikro sahibkarlara dəstək verilməsi bir başa onların inkişafına və böyüməsinə zəmin yaradır, bu da öz növbəsində ölkədə işsizlik səviyyəsinin azaldılmasına və büdcəyə vergi daxil olmalarının həcminin artmasına səbəb olur.

Mikro sahibkarlıq subyektlərini bu güzəştlər arasında ən çox sevindirən onların gəlir, mənfəət və əmlak vergilərinə tətbiq edilən böyük güzəştlərdir. Lakin əfsuslar olsun ki, bu meyarların müəyyənləşdirilməsi qaydaları nazirlər kabineti tərəfindən 2018-ci ildə təsdiqlənsə də mikro sahibkarlarla Dövlət Vergi Xidməti arasında indiyə qədər mübahisələr davam edir".

Mütəxəssisin fikrincə qanunda qeyd olunan məsələ olduğu kimi icra edilməlidir: "556 nömrəli qərarda qeyd edilir ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, yeni yaradılan və ləğv olunan sahibkarlıq subyektlərinin, habelə il ərzində fəaliyyəti olan sahibkarlıq subyektlərinin illik gəlirləri barədə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, il ərzində fəaliyyəti olan sahibkarlıq subyektlərinin işçilərinin orta siyahı sayı barədə məlumatın hesabat ili başa çatdıqdan sonra növbəti il aprelin 20-dən gec olmayaraqreal vaxt rejimində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülməsini təmin etsin. Həmçinin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə tapşırılsın ki, mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsünün bu meyarlara uyğun olaraq təşkilini və bu siyahının hər növbəti il mayın 10-dan gec olmayaraq, real vaxt rejimində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nə ötürülməsini təmin etsin. Sonda Qərarın Qeydlər bölməsinin 4-cü bəndində qeyd olunur ki, Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır".

Müsahibimiz onu da vurğulayır ki, qərardan aydın olur ki, müvafiq nazirliklər tərəfindən ötürülən məlumatlara əsasən bu meyarları müəyyən edən qurum Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsidir və aydın olaraq qeyd edilir ki, bu meyyar il ərzində dəyişməz qalır: "Yəni, misal olaraq sahibkar mikro sahibkarlıq kateqoriyasına aiddirsə o cari il ərzində qeyd edilən ölçü meyarını aşırsa həmin ildən deyil növbəti ildən kiçik sahibkarlıq kateqoriyasına aid edilir. Həmçinin əksinə kiçik sahibkarlıq kateqoriyasına aid olan sahibkar cari il ərzində müəyyən edilmiş ölçülərdən daha aşağı nəticə göstərmişdirsə həmin ildən deyil, növbəti ildən mikro sahibkarlıq subyektinə aid edilməlidir".

"Bütün bunlara baxmayaraq hazırda sahibkarlarla Dövlət Vergi Xidməti arasında mübahisələr davam edir. Belə ki, kateqoriyanı müəyyən edən qurum Dövlət Vergi Xidməti olmadığı halda, bu kateqoriyanı özü səhv müəyyən edir, meyarların ölçü göstəriciləri dəyişən sahibkarların növbəti ildən deyil həmin ildən kateqoriyasının dəyişdiyini bildirir və sahibkarlara xüsusən də mikro sahibkarlara güzəştlərdən yararlanmağa imkan vermir. Bu problemin həlli məqsədi ilə dəfələrlə Dövlət Vergi Xidmətinə şikayət olunub, hətta Dövlət Statistika komitəsindən sahibkarın hansı kateqoriya aid olmasına dair arayış alınıb vergilər nazirliyinə təqdim olunsa da Dövlət Vergi Xidməti bu arayışı nəzərə almır və sahibkarların hüquqlarını pozmağa davam edir", - İqtisadçı Orxan Şükürov deyib.

Digər həmsöhbətimiz Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Vüqar Cavadovun sözlərinə görə, "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli, 556 nömrəli qərarına əsasən sahibkarın mikro, kiçik, orta və iri sahibkarlıq subyektinə aid olması, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən həmin hesabat ilinin sonunadək olan dövr ərzində nəticədə Dövlət Statistika Komitəsinin təqdim etdiyi arayış əsasında müəyyən olunur: "Həmin qərarın "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü" hissəsinin qeydlər bölməsinin 4-cü bəndində qeyd olunmuşdur ki, Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi (indiki Dövlət Vergi Xidməti) və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır".

Hüquqşünas Vüqar Cavadov əlavə edərək vurğulayır ki, istənilən yanaşma absurd və qanunvericiliyin tələblərinə zidd olmamalıdır: "Bu o anlama gəlir ki, sahibkarın mikro, kiçik, orta və iri sahibkarlıq subyekti hesab edilməsi üçün ayrı-ayrılıqda Dövlət Vergi Xidməti və ƏƏSMN tərəfindən Dövlət Statistika Komitəsinə ötürülən sahibkarlar haqqında məlumatlara əsasən müəyyən olunur və eyni zamanda sahibkarların bu meyarlar üzrə bölgüsü il ərzində dəyişməz qalır. Əksər hallarda Dövlət Vergi Xidməti hesab edir ki, sahibkarların bu cür bölgüsünün aparılması onların səlahiyyətinə aiddir. Bu cür yanaşma absurddur və qanunvericiliyin tələblərinə ziddir".

Qeyd edək ki, yaranmış problemlə bağlı aidiyyatı qurumların mövqelərini dərc etməyə hazırıq.



# AZAL Bakı-Moskva-Bakı marşrutu üzrə xüsusi reyslərə başlayır

***Azərbaycanın milli aviadaşıyıcısı (AZAL) fevralın 17-dən etibarən Bakı-Moskva-Bakı marşrutu üzrə xüsusi reyslərin yerinə yetirilməsinə başlayır.***

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, uçuşlar həftədə iki dəfə - həftənin çərşənbə və bazar günləri "Domodedovo" hava limanına yerinə yetiriləcək. Həmin reyslərə aviabiletləri aviaşirkətin rəsmi "www.azal.az" saytında almaq mümkündür.

**Bakı-Moskva istiqamətində aviareysin sərnişinlərinin nəzərinə:**

- Rusiya ərazisinə giriş hüququ olmalıdır. Pandemiya dövründə Rusiya Federasiyası ərazisinə giriş qaydaları aviaşirkətin saytında qeyd edilib: https://www.azal.az/az/information/covid-russia ;

- koronavirus infeksiyasının olmadığı barədə arayış təqdim edilməlidir. Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: https://www.azal.az/az/information/covid-clinics;

**Moskva-Bakı istiqamətində reysin sərnişinlərinin nəzərinə:**

- Azərbaycana giriş hüququnun olub-olmadığı yoxlanılmalıdır. Azərbaycana giriş icazəsi olan şəxslərin kateqoriyasının siyahısı aviaşirkətin saytında aşağıdakı link üzrə qeyd edilib: https://www.azal.az/az/information/covid-azerbaijan;

- koronavirus infeksiyasının olmadığı barədə arayış təqdim edilməlidir. Testin nəticəsində həmçinin QR-kod göstərilməlidir. Bu kod hava limanında qeydiyyat masalarında yoxlanılacaq. QR-kodla arayışlar təqdim edən Rusiya klinikalarının siyahısı ilə həmçinin aşağıdakı link vasitəsilə tanış olmaq olar: https://www.azal.az/az/information/covid-russia. Tərəfdaş klinikalar şəbəkəsi genişləndikcə siyahı yenilənəcək.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına müvafiq olaraq aviareyslərlə Bakıya gələn bütün sərnişinlər iki həftə ərzində özünütəcrid şəraitində qalmalıdırlar.

**Hər iki istiqamətin sərnişinləri:**

- testin nəticəsinin reysin uçuşundan əvvəl 48 saat ərzində qüvvədə olduğuna əmin olmalıdırlar;

- pandemiya dövründə AZAL aviaşirkəti tərəfindən tətbiq edilən xüsusi daşıma qaydaları ilə tanış olmalıdırlar: https://youtu.be/-s-0s4o1L2M



# 200 il sayğıyla xatırlanan Şeyxəli xan

***Fətəli xan Qubalının kiçik oğlu Şeyxəli 1761-ci ildə Quba şəhərində anadan olub. 1791-ci ildə qardaşı Əhməd xan vəfat etdikdən sonra hakimiyyətə gələn Şeyxəli xan ənənəvi siyasəti kökündən dəyişərək Ağa Məhəmməd şah Qacarla dostluq əlaqələri yaradıb və onunla müttəfiq olub.***

1796-cı ildə Zubovun başçılığı ilə rus qoşunları Dərbəndi tutmaq istəyərkən Şeyxəli xanın başçılıq etdiyi Quba qoşunlarının qızğın müqavimətinə rast gəlirlər. Bu səbəbdən rus komandanlığı Dərbəndi işğal etdikdən sonra Şeyxəli xanı zəiflətmək məqsədi ilə onun ögey qardaşı Həsənağa xanı Dərbənd hakimi təyin edirlər. Sonra da Şeyxəli xanı təqib edərək Alpan kəndi ətrafında onunla 2 döyüşə girmişdilər. Birinci döyüşdə rus qoşunları 500-ə yaxın əsgər itki verib geri çəkilməyə məcbur olsalar da, 2-ci dəfə Şeyxəli xana qalib gələrək Alpanı da talan etmişdilər. Amma 1797-ci ilin martında rus qoşunları Azərbaycan ərazisini tərk etməyə məcbur olur və bir neçə ay Qırız və Yefi dağlarında daldalanan Şeyxəli xan yenidən bütün Quba xanlığına, o cümlədən Dərbəndə nəzarəti ələ alır.

1806-cı il oktyabrın 3-də Bakı dənizdən hücüma keçən ruslar tərəfindən işğal edilir. Bakının işğalından sonra Quba xanlığının mövqeləri zəifləyir. Rus ordusu 1809-cu ildə Quba üzərinə növbəti hücumundan sonra şəhəri ələ keçirir. Şeyxəli xan qoşunu ilə Xızı-Bərmək dağlarına çəkilir. Bundan sonra da mübarizəsini davam etdirən Şeyxəli xan Qiziqumuxlu Nuh bəylə Qubanı geri almağa cəhd etsə də, buna nail ola bilmir.

1810-cu ilin avqustunda üsyana qalxan qubalılara rəhbərlik edən Şeyxəli xan Şirvan hakimi Mustafa xanın köməyi ilə rus qoşunlarını Gilgil çayı üzərindəki döyüşdə məğlub edir və onlara köməyə gələn general Repinin qoşunlarını geri oturdur. 4 aya yaxın yenidən Qubada xanlığını bərpa etsə də, general Xatuntsovun komandanlığı altında bu bölgəyə yeridilən rus ordusu Şeyxəli xanın qoşununu məğlubiyyətə uğradır...
Haqqında tədqiqatçı Ənvər Çingizoğlu kitab yazmış olsa da hələ bilinməyən tərəfləri çox olan Şeyxəli xan, qısa fasilələrlə 20 ilə yaxın sürmüş hakimiyyəti dövründə Quba xanlığını Rusiya asılılığından qorumağa çalışsa da, atası Fətəli xan kimi bacarıqlı ola bilmədi. Aparmağa məcbur olduğu davamlı müharibələr xanlığı nisbətən zəiflətdi. O, 1802-ci ildə Rusiya ilə Georgiyevsk müqaviləsini imzalamağa məcbur olmuşdu. 1810-cu ildə isə Xanlıq, işğalçı rus idarəçiliyində əyalətə çevrildi. Əyalətin nəzarəti də Bakı xanı II Mirzə Məhəmməd xana verildi. Bəzi mənbələrdə, 1811-ci il 23 noyabr Rustov döyüşündən sonra yaralı olduğu üçün ətrafı ilə birgə dağlara çəkilən Şeyxəli xanın bir müddət sonra (29.11.1811) vəfat etdiyi qeyd edilib. Quba xanlarının nəslindən olan Asəf xan Qubalının verdiyi məlumata görə isə, Şeyxəli xan Qubalı öncə Car-Balakənə çəkilmiş, sonra mübarizənin imkansızlığını görüb Salyana-Rudbara yollanmış, oradan da Cənubi Azərbaycana keçərək 1821-ci ilin payızında İranda-Ərdəbildə rəhmətə getmişdir. O, 1790-cı illərdən ölümünə qədər çar Rusiyası ilə mübarizələr, müharibələr apararaq Gəncəli Cavad xandan öncə Milli azadlıq mücadiləsini başlatmışdı...

***C.Alpoğlu Albantürk***

# Şuşanın yeni görkəmi necə olacaq? - Memar danışdı

***"Azərbaycan dünyanın ən zəngin mədəni irsə sahib olan ölkələrindən biridir". "Unikal" xəbər verir ki, bunu milli.az-a açıqlamasında memar Yeganə Abdullayeva deyib.***

O bildirib ki, Azərbaycanın özünəməxsusluğunun və milli identikliyinin qorunması mədəniyyət siyasətimiz üçün strateji əhəmiyyət kəsb edir:

"Digər ərazilərimizdə olduğu kimi Qarabağ memarlığı da Azərbaycanın mədəni irsidir. Mədəni irs xalqın milli mədəni və tarixi sərvətidir. Bir xalqın mədəni irsinin digərləri tərəfindən dağıdılması, məhv edilməsi və ya vandalizmə uğradılmasının qarşısını almaq hər birimizin borcudur. Nəhayət ki, dövlət başçımızın və 44 günlük müharibədə canından, qanından keçən övladlarımızın sayəsində işğal altında olan torpaqlarımızın təcavüzünə son qoyuldu.

Vətən müharibəsindəki Zəfərdən sonra Prezident İlham Əliyev işğaldan azad olunan torpaqlarımızın





abadlaşdırılması və yenidənqurulması haqqında tapşırıqlarını verdi. Bu bərpa prosesində bir neçə məqama xüsusilə diqqət etməliyik.

### Şuşaya yan memarlıq daxil olmamalıdır

Şuşa və digər işğaldan azad olunan ərazilərimizin özünəməxsus infrastrukturu, memarlıq abidələri əvvəlki görkəminə gətirilməli, hər bir döngə, meydan, tikili və abidələr olduğu kimi bərpa edilməlidir. Çünki 30 ildir Şuşa, Qarabağ həsrəti ilə yaşayan sakinlər, ümumiyyətlə vaxtilə o füsunkar mənzərənin şahidi olanlar öz doğma məskəninin hər bir döngə, dalanını görmək üçün ümidlə yaşayıblar. Bu nostalji hisslərin qorunmasına yönələn addımlarımız gələcək nəslin mənəvi irsimizə qayğı və hörmətlə yanaşmasına və onu qoruyub ötürməsinə səbəb olacaqdır. Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz.

### Azad olunan ərazilərimizdə milli memarlıq qorunub saxlanılmalıdır

Şuşanın və digər işğaldan azad edilən ərazilərimizin tarixi memarlığı gözlənilmədir. Milli memarlıq abidələri ilə zəngin olan və sabit memarlıq ənənələrinə malik Qarabağ zonasında əsrlər keçsə də Avropa memarlığı təsir edə bilməmişdir. Ta qədim zamanlardan Qarabağın özünün yerli üslubları var idi. Hələ XIX yüzilin ortalarında Qarabağda özünəməxsus memarlıq məktəbi yaranmışdır. Kərbəlayı Səfixan Qarabaği onun ən görkəmli nümayəndəsi olmuşdur. Memarlıq üsullarında yerli ənənə və prinsiplərə axıradək sadiq qalan Kərbəlayi Səfixan Bərdədə İmamzadə kompleksini yenidən qurmuş (1868), Ağdamda məscid (1868-1870), Şuşada Aşağı məscid (1874-1975), Yuxarı məscid, yaxud Cümə məscidi (1883) və məhəllə məscidləri, indiki Füzuli şəhərində Hacı Ələkbər məscidi (1890), həmin rayonun Horadiz (1891-1908) və Qoçəhmədli (1906) kənd məscidləri Oddesada Tatar məscidi (1870 illər), Aşqabadda Qarabağlılar məscidi (1880 illər) və s. binalar tikilmişddir. Bu ənənəyə sadiq qalaraq Azərbaycanda memarlığını bu yönümdə inkşaf edirməyimiz sonrakı qərinələrdə də iz qoymağımıza səbəb olacaqdır.

### Müasir memarlıq tam şəkildə Qarabağa daxil olmamalıdır

1990-ci illərdən sonrakı iqtisadi dirçəliş ölkəmizdə memarlığın, o cümlədən də dizaynın keyfiyyət göstəricilərinin təkmilləşdirilməsinə və inkişafına səbəb oldu. Keyfiyyət və kəmiyyətcə yeni olan məhsullar materiallar idxal olunmağa başladı. Yerli bədii konstruksiyalaşma da qlobal dizayn sisteminə inteqrasiya etməyə başladı. Bu prosesdə Azərbaycanda milli memarlıq nümunələrinə müraciət edilmədiyindən müasir memarlıq bir növ bizi özünəməxsusluqdan uzaqlaşdırdı. Bu halın qarabağ memarlığına da yansımaması üçün yerli ornament, xalça və ya bəzi abiddələrimizi bəzəyən naxışlar, gübəz, tağlar, minarələr və bu kimi milli elementlərimizlə sintez olunaraq yeniliklər edilməsinə diqqət yetirilməlidir.

### Yeni, milli turizmi yaratmaq və inkişaf etdirmək lazımdır

Azərbaycan dilinin, mədəniyyətinin qorunub inkişaf etdirən müstəqilliyimizin, vahid dövlətçilik ənənələrimizin, milli birliyimizin ən başlıca simvollarından istifadə edilərək yeni abidələr layihələndirilməli, iqtisadiyyatımızın dirçəlməsi üçün milli turizmin təməli qoyulmalıdır. Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dövlət təbiət qoruqları və qoruqlar olub. Hazırda həmin ərazilərdə ilkin qiymətləndirmə işlərinə başlanıb.

30 ilə yaxın müddətdə Qaragöl və Bəsitçay Dövlət Təbiət Qoruqlarının ərazisi talan olunub. Bəsitçay Dövlət Təbiət Qoruğu Avropada unikal meşə sayılan 100 hektarlıq təbii çinar meşəliyinin əksər hissəsi məhv edilib. Qaragöl Dövlət Qoruğu, Laçın Dövlət Qoruğu, Qubadlı Qoruğu, Daşaltı Qoruğu, Arazboyu Dövlət Təbiət Qoruğu tamamilə tanınmaz hala salınıb.

Dünya turizm mərkəzinə çevrilmiş ölkələrə nəzər salsaq turistləri cəlb edən nüanslar həmən ölkənin tarixi mədəniyyəti ilə bağlı olur. Odur ki, əvvəl də vurğuladığım kimi mədəni irsimizi qorumaq hər bir azərbaycanlının borcudur".

***Təhməz Əsədov***

# Snayperin vurduğu baş leytenant...

## Şəhid ATASI: "Azad etdiyi torpaqdan gətirib məzarına səpdim"

***İkinci Qarabağ müharibəsi cəmiyyətə elə simalar tanıtdı ki, bəzən həmin qəhrəmanları yaxından tanımadığımız üçün peşmanlıq hissi keçiririk. Bu savaş bizə həm kədər, həm də sevinc hissini eyni anda yaşamağı öyrətdi. Qəhrəmanlarımızın döyüş yolu, göstərdiyi şücaətlər ailə üzvlərindən və ya silahdaşlarının xatirələrindən bizə əyan olur. Şəhidlərimiz Azərbaycan tarixinə dərin, bir ömür unudulmayacaq izlər buraxdı.***

"Unikal" qəzeti xəbər verir ki, modern.az saytı "Vətəni yaşadanlar" rubrikasına davam edir. Vətən müharibəsində göstərdiyi qəhrəmanlığı ilə yaddaşlara həkk olunan igidlərdən biri də baş leytenant Səid Nofəl oğlu Rəşidzadədir.

Səid Rəşidzadə 1990-cı ilin yanvarın 28-də Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olub. 1993-cü ildə ailəsi ilə birgə Bakı şəhərində məskunlaşıb. 1996-2007-ci illərdə Bakı şəhəri S.Yolçuyev adına 207 nömrəli tam orta məktəbdə təhsil alıb. Daha sonra 2007-2011-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb. 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələri sıralarında hərbi xidmətə başlayıb. Ağdərə istiqamətində zabit kimi hərbi xidmətdə olub.



Səid Rəşidzadə Vətən müharibəsində Füzuli, Hadrut, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Şəhidin atası Nofəl Qasımov Modern.az-a Səid haqqında daha ətraflı danışıb.

**"Mənim azad edə bilmədiyim torpağı oğlum azad etdi..."**

"Mən Səid yaşda, 31yaşım olanda Füzuli rayonu İcra Hakimiyyətinin başçısı təyin edilmişdim. Həmin vaxtlar o torpaqlarda mən döyüşürdüm. Birinci Qarabağ savaşında Füzuli Özünümüdafiə batalyonunu komandiri kimi.

Düzdür, neçə dəfə hücum etdim, itkilər versəm də, Hadrutu azad edə bilmədim. Çünki o zamanlar bu qədər təcrübəmiz yox idi.

Həmin vaxtlarda Səidin 3 yaşı var idi. Onu səngərə aparıb, silahdan atəş açmağı öyrədirdim. Oğlum mənim azad edə bilmədiyim torpağı, öz qanı ilə aldı.

Səidin arzusu hərbçi olmaq idi. Onu vətən uğrunda getdiyi heç bir yoldan saxlamamışam. Hər zaman "gedirəm" deyəndə, "uğur olsun" söyləmişəm".

Səid Rəşidzadə hələ 2016-cı ilin aprel döyüşlərində general Polad Həşimovla birgə döyüşüb: "Səid 2016-cı ildə baş verən aprel döyüşlərində Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun rəhbərliyi altında döyüşüb. Talış yüksəkliyinin düşməndən geri alınmasında iştirak edib.

2018-ci ildə Ordudan tərxis olunub, ehtiyata buraxılıb. 2020-ci ilin iyulunda baş verən Tlovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid xəbərini eşidəndə Səid çox pis oldu və özünə qapandı.

O, döyüş yoldaşı general Polad Həşimovun qisasını almaq üçün müharibənin başlamısını gözləyirdi".

**"Müharibə başlayanda ürəyi dözmədi, cəbhəyə getdi..."**

"Sentyabrın 27-də Vətən müharibə başlayanda Səid zabit kimi döyüşə getmək üçün müraciət etdi. Əvvəlcə ehtiyac olmadığını deyib, qəbul eləmədilər. Amma Səid gözləmədi.

Cəbhəyə getdi. Əvvəlcə 1 həftə Ağcabədidə könüllülər hazırladı. Daha sonra Füzuli rayonunun Horadiz kəndi istiqamətində döyüşlərə atıldı və irəliyə doğru 42 km döyüşdü. Hadrutun girişində Şişqaya deyilən yüksəkliyi azad edib, bayrağı sancan zaman snayper gülləsi ilə vuruldu. Döyüş yoldaşları köməyə gəlsə də, onu xilas etmək mümkün olmadı. Oğlum ən uca zirvəyə, Şəhidlik zirvəsinə yüksəldi".

**"Azad etdiyi yüksəkliyə bayraq sancanda vurulub..."**

"Həmin yüksəkliyi gedib ziyarət etdim. Şişqaya Hadrutun girəcəyində yerləşir. Oradan bir ovuc torpaq gətirib oğlumun məzarı üzərinə səpdim.

Səid döyüş müddətində sinəsində bayraq gəzdirərmiş. İlk hansı kəndi azad etsəydilər, həmin bayrağı oraya sancacaqdı. Şişqaya yüksəkliyinin alınması üçün göstəriş gəlib. Səid olan bölük həmin ərazini təmizləyib. O, sinəsindəki bayrağı Şişqaya yüksəkliyinə sancan zaman snayperlə vurulub. Yoldaşları bayrağın üzərinə Səidin adını yazıb, həmin yüksəkliyə sancıblar. Oktyabrın 11-də Səidin şəhid xəbəri gəldi və 12-də isə Hadrutun azad olunduğu deyildi".

**"Səid kaskasız, bronijiletsiz döyüşürmüş..."**

"Oğlumla aramızda sərhəd var idi deyə, onun haqqında çox şeyi bilmirdim. Yoldaşları indi mənə Səidin necə döyüşdüyüi, hansı keyfiyyətlərə malik hərbiçi olduğu barədə danışırlar.

Onların sözlərinə görə, Səid əsgərləri qorxmasın deyə bronjiletsiz, kaskasız döyüşürmüş. Özünü hər döyüşdə irəli atarmış. Maaşı verilən kimi siqaret alıb, əsgərlərinə paylayarmış".

**"Vətən sağ olsun"...**

"Səidin bir sözü var idi - "Vətən sağ olsun". Hər nə olurdusa, bu sözü deyirdi. Müharibəyə yollandığı zaman da "Ata, vətən sağ olsun" dedi və getdi.

Son dəfə oktyabrın 9-u mənə zəng etdi. Bir az danışdıq. Harada olduqlarını soruşdum. Daha sonra "soyuq su içməyin" dedim. Sən demə onlar heç su tapmırmışlar. Oktyabrın 11- də şəhid xəbərini aldıq".

**Şəhidimiz əsl hərbiçi xasiyyətində idi...**

"Səid özünə çox qapalı bir oğlan idi. Arzularından, istəklərindən danışmazdı. Amma əsl zabit idi. Hərbiçi necə olursa, elə biri idi. Maraqlıdır ki, dostları ondan danışanda deyirlər ki, çox gülərüz imiş.

Səid tanıdı-bildiyi admalardan kimin nə problemi olurdusa, həll etmək üçün mənim yanıma gətirirdi. Heç kimə hərbiyə aid bir söz belə demirdi".

**Səid ata kəndini azad etdi...**

"1992-93- cü illərdə mən döyüşən zaman 125 şəhid vermişdim. Oğlum da 126-cı şəhidim oldu. Səidin şəhid xəbəri gələn zaman ilk düşündüyüm bölüyü kimin idarə edəcəyi oldu. Çünki müharibədə komandir lazımdı. Şəhidə hər zaman ağlaya bilərik. Amma biz qələbə çalmalıyıq. Biz indiyə qədər gənclərimizə fərasətsiz biriləri kimi baxmışıq. Amma gənclərimiz 44 günlük müharibədə hər şeyi sübut etdilər.

Səid şəhid olduqdan sonra onun nəşini Füzulinin Babı kəndində torpağa tapşırdım. Səid ata kəndimizi özü azad etdi".

**"Biz Səidin qisasını aldıq..."**

Səid Rəşidzadənin döyüşdüyü taborun komandiri, mayor Hacı Rəhimov şəhidi belə xatırlayır... "Mən Səidgilin tabor komandiri idim. Səid müharibənin 5-ci günündən bizimlə birgə döyüşüb. O, mənə deyəndə ki, müharibəyə könüllü gəlib, həmin an onun necə mərd, cəsur döyüşçü olduğunu anladım. Döyüş tapşırıqlarını yerinə yetirən zaman deməк olar ki, Səidlə birgə olduq. O, heç nədən qorxmayan, çəkinməyən bir savaşçı idi. Ona necə dəfə ehtiyatlı olmağı barədə xəbərdarlıq etmişdim.

Səidlə Hadrut istiqamətindəki yüksəklikləri təmizləyə-təmizləyə irəliləmişik. Orada düşmənin bir neçə postu qurulmuşdu. O yüksəkliklər təmizlənməsəydi, Hadruta giriş mümkün olmazdı. O yüksəkliyi təmizləyən zaman böyük qarşıdurma oldu, Səid düşmənin bayrağını endirib, Azərbaycan bayrağını həmin yüksəkliyə sancan zaman snayper gülləsinə tuş gəldi.

Biz Səidin qisasını aldıq, orada dalğalanan bayrağın üzərinə Səidin adını yazdıq.

Səid kimi oğullarımızın vətən uğrunda şəhid olması çox qürurvericidi. Şəhid ailələri başlarını dik tutsunlar".

Baş leytenant Səid Rəşidzadə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin alınması uğrunda" medalları ilə təltif olunub.

***Fidan İlqarqızı***



# Şəhidlərimizin qanı bahasına azad edilən torpaqlar qısa zamanda dirçələcək

***Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun "Dəmir yumruq" əməliyyatı illərlə düşmən tapdağı altında olan torpaqlarımızı erməni işğalından, əsarətindən azad etdi. 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfər Azərbaycanın hərbi qüdrətinin və xalqımızın qələbə əzminin təcəssümünə çevrildi.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib. Deputat qeyd edib ki, minilliklərdən soraq verən yerd yerimiz öz əzəli və əbədi sahiblərinə qaytarıldı. Tarixi, keçmişi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycanın mərd, igid oğulları əcdadlarımızdan irsən keçən döyüş ruhunu, Vətən eşqini, qalib olmaq əzmini bir daha nümayiş etdirdilər, müasir tariximizin yeni səhifələrini yazdılar. Azərbaycan əsgərinin qanı və canı bahasına azad edilən Şuşa isə bu haqq savaşının zirvəsi, qələbə müjdəsi oldu.

Artıq bu gün işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, doğma yurd yerlərinə qayıdacaq əsl sahiblərin həyat şəratinin təmin edilməsi vacib məsələ kimi qarşıda durur. Erməni vandalizminin qurbanı olan ərazilərdə, hər qarışı xalqımızın milli dəyərlərinin daşıyıcısı olan torpaqlarda infrastruktur layihələrinin həyata keçirilməsi, hər şəhərin, hər kəndin ən yüksək səviyyədə qurulması dövlət siyasətimizin əsas prioritetidir.

Fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışından sonra Azərbaycan Televiziyasına müsahibə verən Prezident İlham Əliyev Şuşa şəhərinin bərpasina, dirçəldilməsinə xüsusi diqqətlə yanaşıldığını qeyd edib: "Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır".

Ölkə Prezidentimiz işğaldan azad edilən ərazilərin, Şuşanın bərpası, bütün layihələrin planlı şəkildə həyata keçirilməsi, şəhərsalma işlərinin düzgün aparılması ilə bağlı tapşırıqlarını verib: "İstəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".

Bəli, Prezident İlham Əliyevin xüsusi nəzarət və diqqəti ilə şəhidlərimizin qanı bahasına azad edilmiş şəhərimiz, kəndlərimiz qısa zamanda dirçələcək, işğal dövründə düşmənə boyun əyməyən Şuşa, milli mədəniyyətimizin ünvanı kimi tarixi şöhrətini bərpa edəcək.



# Nərminin atası dəhşətli faktları açıqladı: "Daha susmayacağam, İlkini qabağa veriblər"

***Ötən il yanvarın 6-da Tovuzda azyaşlı qızın yanmış cəsədi ilə bağlı yayılan xəbərlər bütün mətbuatın gündəmini zəbt etmişdi. Rayonun Dondar Quşçu kəndindən olan 10 yaşlı Nərmin Quliyevanın müəmma dolu qətli ölkəni silkələdi. Müxtəlif fikir və mülahizələr irəli sürüldü. Lakin Nərminin qətlində kənd sakini İlkin Süleymanov ittiham olunaraq həbs edildi.***

İ.Süleymanovun ailəsi isə cinayət ittihamlarını qəbul etmir. Bundan başqa, Nərminin valideynlərinin susqunluğu da diqqətləri özünə çəkməmiş deyil. Hətta bəzi iddialar səsləndi ki, Nərminin valideynləri müəyyən məqamları ört-basdır etmək üçün açıqlama vermirlər.

"Unikal" xəbər verir ki, N.Quliyevanın atası Şərif Quliyev səslənən iddialarla bağlı "Sherg.az"ın suallarını cavablandırıb:

***-Həyat yoldaşınız Aynurə İsmayılova və sizin mətbuata açıqlama verməməyiniz müəyyən şübhələrə yol açıb. Nə üçün açıqlama vermirdiniz?***

-Heç vaxt nələrisə danışmaqdan qaçmamışam. Mən prokuror deyiləm ki, çıxıb öz-özümə açıqlama verim. Kim istəyirsə, gəlib müsahibə götürsün mən də danışım. Mətbuata bütün informasiyaları verməliyik. Bundan heç vaxt boyun qaçırmamışam.

***-Qızınızın qətli ilə bağlı hələ də qaranlıq qalan sualların olduğu bildirilir. Sizcə, İlkin həqiqətən də qatildir?***

-Bəli. Qızımı öldürən İlkin və onun ətrafıdır. Sadəcə İlkini qabağa veriblər. Əmisi və qardaşı müxtəlif kanallarda çıxış edirlər, deyirlər ki, onları işdən çıxardıblar. Onlar İlkin barədə düşünmürlər, ancaq öz işləri ilə maraqlanırlar.

***-Bəzi iddialar səsləndirildi ki, Nərminin ailəsinə Bakıdan ev veriblər. Məhz bunun üçün də susurlar...***

-Belə bir şey olmayıb, ola da bilməz. Allaha and olsun ki, qızımın ölümündən sonra nə ev, nə də pul veriblər. Kim istəyir gəlib baxsın və belə bir halın olub-olmadığını araşdırsın.

***-Yoldaşınız Aynurə xanım indi necədir?***

-Övladını itirən ana necədirsə elədir... Məhkəmə "COVID-19"a görə fevralın 13-ə təxirə salınıb. Nə edə bilərik ki? Dövlətimiz nə deyirsə, ona da inanırıq.

***-Yoldaşınız bu məşum hadisədən sonra bildirmişdi ki, digər övladlarınızın təhlükəsizliyi üçün çox qorxur. Yenə Tovuzda həmən evinizdə yaşayırsınız?***

-Bəli. Heç yerə getməmişik. Uşaqlar da evdədir, onlayn formada dərs keçirlər. Kimdən istəsəniz, öyrənə bilərsiniz.

***-Nərminin qətlə yetirilməzdən öncə hamilə olmasına dair iddialar dolaşır...***

- İlkinin qardaşı və 70 yaşlı əmisi qızımın hamilə olduğunu deyirlər. Onlara şər atmaq yaraşırmı? İlkinin qardaşı, əmisi Süleyman Süleymanov və əmisi oğlu Tariyel Süleymanov Nərminə bala deyirlər, sonra da hamiləlik iddiasını ortalığa atırlar. Bu mövzuya qədər mən onlara nəsə deməmişdim. Amma daha susmayacağam. Heç zaman da mətbuatdan qaçmamışam.

# Şəhid oğlunun cənazəsinə qurban kəsən ana: "Dedim, əlini ovcuma alsam, "mama" deyəcək..."

***- Düz dörd ay axtardım onu. Tapa bilmədim, ay qardaş. 120 gün gəzmədiyimiz yer qalmadı. Möhürə dua elədim, Allaha yalvardım ki, ay Allah, necə gəlsə razıyam, təki tapılsın, qurban kəsəcəm. Qapı-qapı gəzib pul yığacam, o pula qurbanlıq alacam.***

Hə. Şükür edir, bircə balasının meyitinin tapılıb dəfn edilməsinə belə şükür edir Gülnaz xanım. Şəhid Tural İsayevin anası.

O Tural ki, Siyəzənin Yenikənd kəndinin Vətən müharibəsindəki ilk şəhididir.

O Tural ki, bu kəndin dəfn olunan son şəhididir.

O kənd ki, Vətən müharibəsində 14 oğulu döyüşüb.





O kənd ki, 6 şəhid verib bu müharibədə...

Turalın 29 yaşı tamam olacaqdı aprel ayında. Adi uşaqlığı olub. Amma onu da doyunca, xoşbəxtcəsinə yaşaya bilməyib. On yaşındaykən atası Saməddin faciəli şəkildə həlak olub. Anası Gülnaz təkbaşına, min əzab-əziyyətlə böyüdüb onu və kiçik bacısını.

Yaxın qohumu Rüstəm deyir ki, adi kənd uşağı olub. Zəhmətkeş, istiqanlı, mehriban. Ali məktəbə sənəd verməyib. Orta məktəbi bitirəndən ali təhsil dalınca qaçmayıb. Bir il sonra hərbi xidmətə yollanıb. Qayıdıb gəlib. Kənddə əkin-biçinlə məşğul olub. Bakıda tikintidə fəhlə işləyib. Anasının, ümumiyyətlə, ailənin bütün qayğısı onun üzəridə olub. Bir müddət sonra yenidən hərbi xidmətə yollanıb: Müddətdən artıq hərbi xidmətçi kimi. Düz, dörd il imiş ki, hərbi xidmətdəymiş. Qüsursuz xidmətə görə, dəfələrlə təltif də olunubmuş. Hə, o məşhur filmdə deyildiyi kimi..."müharibə başlayan gün"...

Məhz həmin gün anasına zəng edir. Sentyabrın 27-si, səhər...

- Bircə bunu dedi: "Mama, özündən muğayat ol. Salamatçılıqdı". Başqa heç nə demədi. Amma yox, mesaj da yazmışdı zəngdən qabaq: "Mama, haqqını halal elə". Demədi, müharibə başlayıb. Ümumiyyətlə, o heç vaxt hərbi xidmətindən danışmazdı. Sevməzdi danışmağı. Amma ayın 27-si səhər bütün Azərbaycan bilirdi ki, Qarabağda ağır döyüşlər başlayıb. Həmin vaxt mənim əlimdən nə gələrdi ki, ay qardaş. Ancaq dua etmək.

Bu yerdə bir maraqlı məqamdan da söhbət açır Gülnaz xanım. Sən demə, bir gün əvvəl, ayın 26-da bacısıyla da bir-iki kəlmə danışıbmış, Tural. Bacısına son sözü bu olub: "Bizi toya aparırlar. Sabah toy olacaq". Bacısı, təbii ki, heç nə başa düşməyib...

Döyüşə Füzuli cəbhəsində başlayıb. İki gün sonra onlara zəng olub: "Uşağınız şəhid oldu, qarşılayın". Amma...

Amma şəhid cənazəsi bu evə bir də dörd aydan sonra gəlir.

Bu dörd ayda haraları gəzməyirlər? Morqlarda, xəstəxanalarda olurlar. Amma Turalı tapa bilməyiblər.

Rüstəm deyir ki, Tural sentyabrın 27-si axşam həlak olub.

- Onlar üç nəfər olublar. Silahsursat daşıyan maşınları vurulub. Üçü də həlak olub.

Onu deyirdik axı. Turalın axtarışları heç bir nəticə verməyib bu aralıqda. Hətta bir dəfə kəndə şayiə də yayılır ki, guya Tural əsir düşüb.

Gülnaz xanım danışır ki, Füzulidəki yaralıların müalicə olunduğu Mərkəzdə belə olub dəfələrlə.

- Bir dəfə də ağır yanıq xəstələri olan şöbədə oldum. Üz-gözləri sarınmış uşaqlar idilər. İlk baxışdan sifəti tanımaq olmur axı. Həkimlərə deyirdim ki, bir-bir onların əlini ovcuma alacam. Hansı tərpənsə, Tural odur. Həkimlər anlamırdılar məni. Deyirdim mən anayam, mənim əlimi hiss etsə, mama deyəcək. (Qəhərlənir)

Bir gün Yenikəndə növbəti xəbər gəlir. Yenə Füzulidən. Bir şəhid əsgərlə bağlı. Amma Füzuliyə çatanda İsayevlər xəyal qırıqlığına uğrayırlar.

- Biz ora çatanda dedilər ki, həmin əsgərin adamları gəldi, onun nəşini apardı. Mən həmin ailəyə görə də şükür etdim Allaha. Dedim, ilahi, şükür onların şəhidi dəfn ediləcək.

Bu müddət ərzində Gülnaz xanım DNT analizi də verir. Ümidlə gözləyir ki, onun oğlu tapılacaq.

- Hər şeyə razı idim. Evimə necə, hansı vəziyyətdə gətiriləcəyindən asılı olmayaraq. Quban dedim, qapı-qapı gəzib pul toplayıb qurbanlıq qoyun alacam, kəsib kasıb-kusuba paylayacam dedim. Təki tapılsın, dəfn edim, ziyarət yerim olsun - dedim.

Turalın tapılma xəbəri kəndə yanvarın 31-i gəlib çıxır. Nəinki Yenikənd, bütün Siyəzən İsayevlərin həyətinə axışır.

- Tabutda kəfəni açanda elə bil başıma qaynar su tökdülər. Adama elə gəlirdi ki, yenicə şəhid olub. Döyüş meydanından yenicə tabuta qoyub gətiriblər. Balamdan torpaq ətri gəlirdi. Torpaq ətri, yarpaq ətri. Onu evdən çıxaranda qurban kəsildi. Mən elə oradaca yenə Allahıma dua etdim ki, şükür, dualarmı eşitdin, ay Allah. Sənə şəkk eləyənə min lənət, dedim. Qurbanımı qəbul etdin, sağ ol, dedim...

Hə, İsayevlərin həyətindən minlərlə insanın çiynində son mənzilə yola salınır Tural. Evlərindən isə anasının zərif, əyilməmiş çiynində çıxır...

Həyətdə yarımçıq tikili var. Tural ev tikdirirmiş anasıyla özünə. Evləri köhnədir. Deyirmiş, mama, təzə ev tikdirək, köçək. Daha bu köhnə evdə yaşamaq mümkün deyil.

- Soruşurdum, mama qurban, yaşın keçir, niyə evlənmirsən? Gülüb deyirdi ki, eh, ay mama, pampersin biri filan qiymətədir. Evlənməyi neynirəm. Özü yetim böyümüşdü. Yaxşı bilirdi ki, yetim böyümək nə deməkdi. Bəlkə də ürəyinə nəsə dammışdı. Hiss etmişdi. Yox, sevdiyi, bəyəndiyi bir kimsənin olduğunu bilmirəm. Eşitməmişəm. Bəlkə də olub, bacısına deyib. Həm də, indi nə mənası...

**Səbuhi Məmmədli**

# Balet sənətinin sönməz ulduzu...

## Bu gün görkəmli balerina Leyla Vəkilovanın anadan olmasından 94 il ötür



***Bir zaman səhnədə Qu quşu obrazını canlandıranda, zərif bədəninin plastika imkanlarından məharətlə istifadə edərək bütöv bir əfsanəni auditoriyaya çatdıranda, sənətsevərlərə və pərəstişkarlarına ülvi hisslər aşılayanda ağlına belə gətirməzdi ki, vaxt gələcək, o da öz sənəti ilə insanların qəlbində əfsanəyə çevriləcək. Rəqsin, baletin uşaq vaxtından vurğunu olan bu gözəl qız səhnədə yaratdığı obrazlara bütün ruhunu verir, tamaşaçıları öz qəhrəmanının arzusuna, sevincinə, kədərinə şərik etməyi bacarırdı...***

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, bu gün SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Vəkilovanın anadan olmasının 94-cü ildönümü tamam olur.

Leyla Vəkilova 1927-ci il yanvarın 29-da Bakıda dünyaya göz açıb. Xoreoqrafiya məktəbində böyük sənətkar Qəmər Almaszadədən sənətin incəliklərini öyrənib, 1943-cü ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasına solist qəbul edilib. İxtisasını təkmilləşdirmək məqsədilə 1945-1946-cı illərdə Moskva Xoreoqrafiya Məktəbində xüsusi kurs keçib, Bakıya qayıtdıqdan sonra Opera və Balet Teatrının aparıcı balet aktrisası kimi çalışıb.

Leyla Vəkilova müxtəlif illərdə A.Adamın "Jizel", R.Qlierin "Qırmızı lalə", P.Çaykovskinin "Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", L.Minkusun "Don Kixot", A.Kreynin "Laurensiya", B.Zeydmanın "Qızıl açar", B.Asafyevin "Bağçasaray fəvvarəsi", Ə.Bədəlbəylinin "Qız qalası", Q.Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", S.Hacıbəyovun "Gülşən" və digər baletlərdə yaddaqalan obrazlar yaradıb.

Sənətkar klassik balet elementləri və milli rəqs hərəkətlərimizi ustalıqla birləşdirərək uğurlu ifa təqdim edib. Yüksək səhnə mədəniyyəti, ifa texnikası və artistizm onun yaradıcılığının başlıca xüsusiyyətlərindən olub.

Leyla Vəkilovanın ifası emosionallığı, zərifliyi, coşqunluğu, çevikliyi ilə seçilirdi. Psixoloji məzmuna malik hərəkətləri sanki dil açıb danışırdı. Ə.Bədəlbəylinin "Qız qalası"nda böyük məharətlə oynadığı Gülyanaq insanlara həyatsevərlik, paklıq aşılayırdı. A.Məlikovun "Məhəbbət əfsanəsi" baletində canlandırdığı Şirin obrazı tamaşaçıların qarşısında dərin məhəbbət hisslərindən pərvazlanan insan idi. Ə.Abbasov "Qaraca qız" baletini məhz Leyla Vəkilova üçün yazıb. Bu əsərin xoreoqrafiyası balerinanın yaradıcılıq diapazonu üçün nəzərdə tutulmuşdu. Q.Qarayevin "Yeddi gözəl"indəki Ayişə surəti isə sənətkarın milli balet səhnəsində uzun müddət liderliyini təmin edib.

Leyla Vəkilovanın səhnə qəhrəmanları müxtəlif dövrlərə və sosial təbəqəyə mənsub olsalar da, onları məhəbbətə bağlılıq və sadiqlik kimi ümumi cəhət birləşdirib. Balerinanı isə qəhrəmanlarına bağlayan onun sənətinə olan böyük sevgisi və sadiqliyi idi. Odur ki, sənətkarın yaratdığı obrazlar mükəmməl bədii-xoreoqrafik surətlər kimi balet sənətimizin incilərindəndir.

Görkəmli balerina keçmiş SSRİnin respublikalarında, eləcə də dünyanın bir çox ölkələrində ifaçı və baletmeyster kimi qastrol səfərlərində olub. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə balerina "Qız qalası", "Yeddi gözəl" və "Gülşən" əsərlərində baş rollarda çıxış edib. L.Vəkilovanın Moskva çıxışları azərbaycanlı balerinanın "ulduz saatı" adlandırılıb.

Balet ustası 1953-cü ildən ömrünün sonunadək Bakı Xoreoqrafiya Məktəbində klassik rəqslər fənnini tədris edib və 1992-ci ildən bu təhsil ocağının bədii rəhbəri olub. O, həmçinin 1976-1982-ci illərdə Azərbaycan Dövlət Rəqs Ansamblına rəhbərlik edib.

Leyla Vəkilovanın yaradıcılığı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilib. Balerinanın 70 illik yubiley tədbirində Ulu Öndər şəxsən iştirak edib.

Görkəmli balet ustası Leyla Vəkilova 1999-cu il fevralın 20-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

Bu gün də biz Leyla Vəkilovanın oynadığı baletlərdən fraqmentlərə baxanda xəyallarımızda dolaşan qəhrəmanlarımızı görür, onların saf hisslərinin təcəssümündən qəlbimiz riqqətə gəlir. İnamla deyə bilərik ki, balerinanın ifası öz ecazkarlığı ilə sənət aləmində bir əfsanəyə çevrilib. Hələ neçə-neçə nəsil bu incəsənət əfsanəsinin zəngin yaradıcılıq yolu ilə tanış olacaq, sənətdə ona bənzəməyə çalışacaq.



## Mədəniyyət Nazirliyinin 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib

***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2020-ci ilin yekunlarına və 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında kollegiya iclası keçirilib.***

"Unikal" xəbər verir ki, mədəniyyət naziri Anar Kərimov iclası açaraq kollegiya üzvlərini salamlayıb, ötən ilin mədəniyyət mənzərəsinə nəzər salıb. İl ərzində Mədəniyyət Nazirliyi tərəfindən xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən layihələrin pandemiya şəraitində insanların asudə vaxtının səmərəli təşkilinə töhfə olmaqla yanaşı, yaradıcı şəxslər üçün əlavə stimul olduğunu vurğulayıb.

Ötən il, eyni zamanda, Azərbaycanın tarixinə şanlı Qələbə ilə yazıldığını bildirən nazir Azərbaycanın haqq işinin dünyaya çatdırılmasında Mədəniyyət Nazirliyinin də səylərini əsirgəmədiyini, müharibənin gedişində və ondan sonrakı mərhələdə müxtəlif beynəlxalq təşkilatlara və onlarla ölkəyə edilən müraciətlərin, yayılan bəyanatların, reallaşdırılan layihələrin Ermənistanın Azərbaycan mədəniyyətinə qarşı həyata keçirdiyi vandalizm siyasətinin daha böyük miqyasda nümayişinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Anar Kərimov "Mədəniyyət Nazirliyinin institusional islahatlarının icrasına dəstək Proqramı"nın hazırlandığını, proqramın strateji istiqamətlərinin mədəniyyət və irsin tədqiqi, qorunması və inkişafı, insan və cəmiyyətin inkişafı, həmçinin mədəniyyətimizin beynəlxalq aləmdə qorunması və təbliğini əhatə etdiyini diqqətə çatdırıb.

Qeyd edib ki, islahatların əsas məqsədi nazirlik sistemində hüquqi bazanın təkmilləşdirilməsi, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, müasir infrastrukturun qurulması, insan kapitalının inkişafı, məzmunun zənginləşdirilməsi, dayanıqlı maliyyələşmə və modellərin qurulmasından ibarətdir.

İclasda 2021-ci ilin birinci yarımili üçün nazirliyin tədbirlər planı müzakirə edilib. Konkret hədəflər müəyyən edilərək hazırlanan planda nazirlik sistemində həyata keçiriləcək islahatlar, mədəniyyət və yaradıcılığın inkişafı, məzmunun zənginləşdirilməsi, yaradıcı və mədəniyyət sənayelərinin inkişafı, mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası, "Nizami Gəncəvi İli" ilə əlaqədar tədbir və layihələr, Azərbaycan mədəniyyətinin ölkəmizdə və dünyada təbliği, beynəlxalq əməkdaşlığın inkişafı məsələlərinə diqqət yetiriləcəyi bildirilib.

Ölkə başçısı tərəfindən Şuşa şəhərinin "Azərbaycan mədəniyyətinin paytaxtı" elan olunması ilə əlaqədar tədbirlərin təşkili, Vaqif Poeziya Günləri və "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalının keçirilməsi, həmçinin işğaldan azad olunan ərazilərdə mədəniyyətin mövcud vəziyyəti və Ermənistan tərəfindən törədilən vəhşiliklər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd olunub.

Eyni zamanda, ölkə başçısının Fərmanı ilə yaradılan Dövlət Nəzarəti İnformasiya Sisteminin əhəmiyyəti vurğulanıb, nazirlik üzrə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının, dövlət proqramlarının icrası ilə əlaqədar proseslərin bu sistemin meyarlarına uyğun qurulmasının vacibliyi diqqətə çatdırılıb.

İclasda Kollegiyanın üzvləri və nazirliyin digər struktur bölmə rəhbərləri çıxış edərək tədbirlər planı ilə bağlı təkliflərini səsləndiriblər.

Daha sonra Mədəniyyət Nazirliyinin 2021-ci ilin birinci yarımili üçün tədbirlər planı təsdiq edilib.

Kollegiya iclasına yekun vuran Anar Kərimov qarşıya qoyulmuş vəzifələrin reallaşmasında bütün kollektivə uğurlar arzulayıb.

# "Avroviziya-2021" mahnı müsabiqəsi üçün musiqi qəbulu başa çatıb

***İctimai Televiziya və Radio Yayımları Şirkəti "Avroviziya-2021" beynəlxalq mahnı müsabiqəsi üçün musiqi qəbulunu başa çatdırıb.***

Müsabiqənin Azərbaycandakı nümayəndə heyətinin rəhbəri İsa Məlikovun AZƏRTAC-a verdiyi məlumatına görə, seçim mərhələsinə yerli və xarici müəlliflərdən 229 kompozisiya təqdim olunub.




"Komandamız hər bir mahnını layiqincə qiymətləndirmək üçün onların hər birini bir neçə dəfə dinlədi. Onların arasında həqiqətən gözəl kompozisiyalar var idi, onlardan altı ən yaxşısı bizim şort-listimizə düşmüşdü. Hər zaman olduğu kimi, janrdan asılı olmayaraq, gözəl və peşəkar mahnı axtarmağa çalışdıq. Lakin bu il də ilk növbədə, biz onun ifaçı ilə nə dərəcədə uzlaşacağını nəzərə alırdıq", - deyə bəstəkar və prodüser İsa Məlikov söyləyib.

Nümayəndə heyətinin rəhbəri bildirib ki, Avropa Yayımları Birliyinin (AYB) tələblərinə uyğun olaraq, hər bir mahnının müddəti 3 dəqiqədən çox olmamalıdır. Seçim prosesinə əsasən, mahnı növbəti mərhələdə müxtəlif ölkələrdən olan 50-dən çox "Avroviziya" mütəxəssisindən ibarət beynəlxalq fokus-qrupunun səsverməsi əsasında seçiləcək.

Mahnının rəsmi təqdimatı martın ikinci həftəsində baş tutacaq. Müsabiqədə ölkəmizi müğənni Əfəndi təmsil edəcək.

Bu il "Avroviziya" mahnı müsabiqəsinin yarımfinal mərhələsinin mayın 18-i və 20-də, final mərhələsinin isə mayın 22-də Rotterdam (Niderland) şəhərində keçiriləcəyi planlaşdırılır.

# Bu ucuz yağın kosmetik faydalarını bilirsinizmi?

***Gənəcərçək yağından indiyə kimi qarın işədici və tük diblərini möhkəmləndirmək məqsədilə istifadə edilirdi. Sizi bu yağın orqanizmə müsbət təsirləri barədə məlumatlandırmaq istyirəm.***

* gənəcərçək yağı dəridə olan qırışları açır

Bunun üçün üzün və əllərin dərisinə gənəcərçək yağı sürtüb 20 dəqiqə saxladıqdan sonra isti su ilə yumaq lazımdır. Maskanın effektini artırmaq istədikdə isə yağa yumurta sarısı qarışdırılılır sonra üz və boyun bölgəsinə sürtülür.

* uzun müddət sürtdükdə dəridəki xallardan və papillomalardan xilas olmaq mümkün olur

Bu məqsədlə istifgadə edildikdə xalların və papillomaların üzərinə gənəcərçək yağə sürtüb 15 dəqiqə saxlamaq və sonra ılıq su il yumaq lazımdır. Proseduru hər gün etdikdə bir aydan sonra nəticəni hiss etmək mümkün olur.

* saçların dibini bərkidir,tükləri qalınlaşdırır

Bunun üçün saçları yumazdan əvvəl gənəcərçək yağı tüklərin dibinə sürtülür və baş selofanla bükülür və yarm saat sonra şampunla yuyulur.

* kipriklrin dibinə sürdükdə uzanmasına səbəb olur

Gənəcərçək yağını kipriklərin dibinə sürtərkən diqətli olmaq lazımdır ki, yağ gözlərə toxunub qıcıqlandırmasın.

Gənəcərçək yağı tuş fırçası ilə kipriklərə sürtülür.

* saç dərisindəki kəpəkdən xilas olmağa yardım edir

* soyuqlama əlamətlərini aradan qaldırır

Soyuqlama zamanı gənəcərçək yağı isidilib sinəyə və kürək nahiyəyə sürtülüb qalın bükülür. Proedur qızdırıcı tərir göstərərək soyuqdəymə əlamətlərinin aradan qalxmasına yardım edir.

* bağırsaqları yumşaldır

* dabanda və əlin üstündə olan çatları yumşaldır və sağaldır

Kefirlə gənəcərçək maskası

Kefir qarışdırılmış gənəcərçək yağı maskası saçları möhkəm, güclü və parlaq edir. Bunun üçün qaynar suya kefir və az miqdarda gənəcərçək yağı əlavə edilir. Qarışım tüklərin dibinə və tükləin ucuna qədər sürtülür və polietilen çaığara ilə bükülüb dəsmalla bağlanır. 40 dəqiqədən sonra saçların dibi massaj edilərək şampunla yuyulur.

# İmmuniteti yüksəldən və stressi aradan qaldıran qidalar

***İmmuniteti yüksəldən və stressi aradan qaldıran qidaların siyahısını və detalları təqdim edirik.***

**1. Badam.**

Tərkibi Omeqa 3 yağı ilə zəngindir. O immun sistemi möhləmlətmək qabiliyyətinə sahibdir. Tərkibindəki E vitamini sayəsində badam antioksidant təsirə malikdir. Belə ki, E vitamini orqanizmdə olan zərərli sərbəst radikalların çoxalmasının qarşısını alır. Badamın tərkibində olan fosfor, kalium, maqnium, kalsium və bir çox mineral maddələr sinir sistemini möhkəmləndirir və stressin qarşısını alır.

**2. Sarımsaq.**

Bütün virus xəstəliklərinin sağalmasında yardımçı olur. Maddələr mübadiləsini yaxşılaşdırır, həzm sistemini normallaşdırır. Stressi aradan qaldırmaqla yanaşı sinir sistemini də gücləndirir. Sarımsağın tərkibi C, D, B qrup vitaminlərlə və faydalı minerallarla zəngindir.

**3. Brokkoli kələmi.**

Güclü immunitet artırıcı təsirə malikdir. Tərkibi sink, selen, A, C, D vitaminləri ilə zəngindir. Zərərli maddələrin və şlakların orqanizmdən xaric olunmasında yardımçı olur. Sinir sistemini möhkəmləndirməklə yanaşı stressi də aradan qaldırır.

**4. Dəniz balığı.**

Dəniz balığı yağ turşuları, Omeqa3, zülallar və aminturşularla zəngindir. Tərkibində olan A, B, E vitaminləri immun və sinir sistemini möhkəmləndirir.

**5. Turp.**

Turpun tərkibi orqanizmin ümumi müqavimətini yüksəldən mineral və vitaminlərlə zəngindir. O həzm sistemini normallaşdırır, bağırsaqdakı qazları çıxartmaqla yanaşı, bağırsaq fəaliyyətini yaxşılaşdırır, mədə üçün mikrob və bakteriyaları təmizləyici təsirə malikdir. Turp öddaşı xəstəliyindən əziyyət çəkən xəstələrə faydalı təsir göstərir. Belə ki, turpun böyrək və öddaşlarının əridilməsində rolu olduğu dəfələrlə öz sübutunu tapmışdır.

**6. Alma.**

Alma həzmi yaxşılaşdırır, bağırsağın yaxşı işləməsinə yardım edir. Bu səbədən də alma bağırsaqdakı möhtəviyyatla birlikdə, bağırsaq mikroblarının da xaric olunmasında iştirak edir.

**7. Zəncəfil.**

Zəncəfil qədim zamanlardan orqanizm üçün ən faydalı bitki hesab edilib. Onun tərkibində olan vitamin və minerallar orqanizmin immun sistemini möhkəmləndirməklə yanaşı, sağlam şəkildə arıqlamasına yardım edir. İltihab əleyhinə, ağrıkəsici, tərqovucu, bakteriya əleyhinə, tonuslandırıcı vasitə kimi istifadə edilir.

**8. Portağal.**

Portağal nəinki immuniteti qaldırır, o həm də əhval-ruhiyyəni yaxşılaşdırır və depressiyanı aradan götürür. İltihab əleyhinə, antimikrob təsirə və yara sağaltmaq qabiliyyətinə malikdir.

# Zərərli ev əşyaları haqqında bilmədikləriniz

***Zərərli ev əşyaları. Sağlamlığınızın qeydinə qalmaq istəyirsinizsə o zaman aşağıdakı ev əşyalarından itifadə etməyin!***



Hər gün biz sağalamlığımıza zərər verən onlarca şeylə rastlaşırıq və bəzən heç bunların orqanizmə təsiri barədə düşünmürük. Bəzi kimyəvi tərkibli əşyalar var ki, onların təhlükəsiz olduğu söylənilir, amma, bu belə deyil. İstifadə etdiyimiz əşyalar, qəbul etdiyimiz qidalar, geyindiyimiz paltarların hansı kimyəvi tərkibə malik olduğu barədə heç bir məlumatımız yoxdur. Əslində isə insanlar zərərli əşyaları atmalı və ehtiyat tədbiri görməlidirlər. Çünki, onların istifadəsi orqanizm üçün əsil təhlükə mənbəyidir.

**1. Şəkərəvəzedicilər.**

Süni yolla hazırlanmış şəkər (aspartam, sukraloza, saxarin) orqanizmdə artıq piylərin və şəkərin yığılmasına səbəb olur. Bu isə diabet daxil olmaqla müxtəlf xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Şəkərəvəzedicilər şirin içkilərdə, şirniyyatlarda və ya şirin dad verən hər qidanın tərkibində olur. Onun orqanizmə verdiyi zərər isə bağırsaq mikroflorasının pozuması səbəbindən baş verir.

**2. Plastmas qablar.**

Qidaları saxlamaq üçün istifadə edilən plastmas qablar və şüşələr orqanizmin endokrin sisteminin pozulmasına səbəb olur. Buna səbəb isə plastmasın tərkibində olan bisfenol A, bisfenol S və ftallar səbəb olur. Endokrin sistemin orqanizmin boy inkişafında, cinsi fəaliyyətində və həyat əhəmiyyətli funksiyalarının gedişində rolu olduğunu nəzərə alsaq o zaman plastmas qabların insan orqanizminə nə qədər təhlükəli olduğu meydana çıxır. Plastmasın tərkibində olan kimyəvi birləşmələr beyin fəaliyyətinə mənfi təsir edir, hiperaktivlik, əsəbilik yaradır. Bu səbəblərdən də mütəxəssislər şüşə və emal qablardan istifadə etməyi məsləhət bilir.

**3. Havatəmizləyici aerozollar.**

Aerozolların tərkibində dixlofenol və metabolit dixlorbenzol kimi insan orqanizminə zərər verən maddələr olur. Aerozollar otağın havasını təravətləndirsələr də, endokrin sistem xəstəliklərinə və allergiyaya səbəb ola bilir.

**4. Yuyucu vasitələr.**

Yuyucu vasitələrdən tez-tez istifadə etmək orqanizm üçün çox zərərlidir. Bu vasitələr allergiyaya, qalxanvari vəzin disfunksiyasına, endokrin sistemin pozulmalarına, artıq çəkiyə və iltihabi reaksiyalara səbəb ola bilir. Buna görə də mütəxəssislər təmizlik zamanı sodadan, ağ sirkədən, limon şirəsindən, perekisdən istifadə etməyi məsləhət bilir.

**5. Antipriqar örtüklü qablar.**

Mütəxəssislər yemək bişirilən bütün qazan və tavaların atılmasının, onların keramik və ya şüşə qazanla əvəz edilməsini tələb edir. Çünki, antipriqar örtüklü qabların tərkibində perftoroktan turşusu olur. Bu isə əsil kanserogen maddə hesab edilir.

**6. Dadlandırıcılar.**

Qida maddələrinin dadlı olması üçün onlara müxtəlif qatqılar və dadlandırıcılar əlavə edilir. Dadlandırıcıların tərkibində isə qidanın xarab olmamasının qarşısını alan və orqanizm üçün təhlükəli sayılan kimyəvi birləşmələr var. Mütəxəssislər qidalar kimyəvi dadlandırıcılar əvəzinə mixək, zəncəfil, rozmarin və kimyon tökməyi məsləhət bilir.

**7. Elektronik əşyalar.**

Elektronik əşyalar elektromaqnit sahəsinə malik olurlar və bu maqnit dalğaları insan orqanizminə mənfi təsir edir. Elektromaqnit dalğaları insanlarda ən ağır xəstəliklərin meydana gəlməsinə səbəb olur. Müasir dünyamızda texniki əşyalara ehtiyacımızın çox olmasına baxmayaraq, mütəxəssislər bu əşyalardan uzaq durmağı məsləhət bilir.

# Qan damarlarının təmizlənməsi

***İllər ərzində qan damarlarının divarında müxtəlif zərərli maddələr yığılır. Yığılıb qalmış bu maddələr arteriya damarlarının daralmasına və qanın yaxşı işləməməsinə səbəb olur.***



Arteriya damarlarının daralması ürəkdə və beyində müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Arteriya damarlarının daralması müxtəlif infeksiya xəstəliklərindən və xolesterinin çox olmasından baş verir.Siz damarların təbii yollıarla effektiv şəkildə təmizlənməsini istəyirsinizsə, bunu yonca toxumu vasitəsilə edə bilərsiniz. Yonca toxumu qanda olan xolesterinin miqdarını azaldır və damarları təmizləyir. Yonca toxumunun tərkibindəki liflər xolesterini və ödü udmaq qabiliyyətinə malikdir. Onun bu xüsusiyyəti arteriya damarlarında olan yağların və toksinlərin təmizlənməsinə səbəb olur.

**Hazırlanması:**

1 stəkan suya 1 çay qaşığı yonca toxumu əlavə edilib 5 dəqiqə qaynadılır. Qaynadıqdan sonra dəmləməni dadlandırmaq üçün 1 qaşıq bal əlavə edilir və qarışdırılır. Qarışımdan səhər və axşam içilir. İçki səhərlər acqarına, axşamlar isə yatmazdan qabaq içilməlidir.

**Mütəxəssislər müalicə müddətində aşağıdakılara əməl etməyi məsləhət bilirlər:**

* qida rasionundan yağlı yeməkləri çıxarmağı

* şəkər qəbulunun miqdarı azaltmağı

* siqaretdən uzaq durmağı

* meyvə-tərəvəzlrdən çoxlu istifadə edilir

* gün ərzində 2-3 fincan yaşıl çay içilir

* gün ərzində bir-neçə qoz yeyilməlidir

* dəmləmədən ən azı 1 ay hər gün içilməlidir.

# “Sevinc göz yaşlarını gizlətmək çətin olur” - Teymur Rəcəbov



***Azərbaycan şahmatçısı Teymur Rəcəbov Azərbaycan Şahmat Federasiyasının mətbuat xidmətinin suallarına cavab verib.***

”Unikal” qəzeti həmin müsahibəni təqdim edir:

***- İlk olaraq “Airthings Masters” onlayn turnirində qələbə barədə danışaq. Yəqin final görüşü daha çətin alındı?***

- Əlbəttə. Adətən turnirdə ən yaxşı formaya malik, inamlı mübarizə göstərən və ən yaxşı nəticə əldə edən iştirakçılar finala vəsiqə qazanır.

***- Bu turnirdə siz bir qədər emosional göründünüz. Adətən Teymur Rəcəbovu belə izləməzdik...***

- Yaşımız artır (gülür). Əslində çox böyük fiziki və emosional gərginlik yaşadım. Ümumilikdə doqquz gün ərzində 35 partiya oynadım. Fərqli reqlament olmasına baxmayaraq, bəzən klassik oyun oynamaqdan qat-qat çox güc istifadə olunur. Gün ərzində tay-brekləri nəzərə almadan dörd partiya oynanılırdı. Və belə çətin yarışın finalında qələbə qazandıqdan sonra neçə gündür hiss etdiyin bütün bu gərginlik səni tərk edir. Sevinc göz yaşlarını gizlətmək çətin olur. Əvvəllər duyğularımı idarə edirdim. Ancaq burada alınmadı...

***- Və qələbədən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva sizi təbrik edir...***

- Əgər sənin çıxışını vətənində birinci şəxslər qiymətləndirirsə, bu inanılmaz dərəcədə xoşdur və şərəflidir. Bu artıq ikinci təbrikdir (ilk dəfə 2019-cu ildə Dünya Kubokunda qələbə qazandıqdan sonra olub). Bu anda yüksək mənəvi yüksəliş və ölkəm üçün faydalı olduğumu hiss etdim.

***- Qarşıda hansı yarışlarda iştirak edəcəksiniz?***

- Fevral, mart və mayda dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi Çempionlar Turunun növbəti mərhələlərində iştirak edəcəyim gözlənilir. Sonra isə ilin sonuna qədər yarışlar var. Avropa və dünyada epidemioloji vəziyyətdən asılı olaraq, bəzi turnirlərin təxirə salınması və ya ləğvi istisna olunmur.

***- Pandemiyaya görə Yekaterinburqda keçirilən İddiaçılar Turnirində iştirakdan imtina etdiniz. Yarış ilk dövrədən sonra dayandırıldı. İddiaçılar Turnirində iştirakçıların sırasına bərpa olunacağınız gözlənilirmi?***

- Məsələ burasındadır ki, İddiaçılar Turnirində iştirak etməkdən imtina etməmişəm. Yalnız FIDE-yə bu turniri təxirə salma xahişi ilə məktub göndərdim, çünki pandemiya zamanı iştirakçıların məhdudiyyətlərə görə tam gücləriylə oynaya bilməyəcəklərini düşünürdüm. Turdan əvvəl testin verilməsi, hərarətin ölçülməsi, oteldən çıxmağa qadağanın qoyulması təsirsiz ötüşmür. Şahmatçılardan biri xəstələnsə, hansı tədbirlərin ediləcəyi bəlli deyildi və s. İddiaçılar Turniri artmaqda olan pandemiya vaxtı 22 gün müddətində keçirilməli idi. Maska geyinməklə, demək olar ki, xəstəxana şəraitində şahmat oynamağın psixoloji baxımdan çətin olacağını düşünürdüm. Yeri gəlmişkən, bu turnir martın 15-də başlandı və sona çatdırılmadı. Ümid edirəm ki, FIDE məni dünya çempionu adı uğrunda mübarizədə mühüm yarış hesab edilən İddiaçılar Turnirindən kənarda qoymamaq üçün məqbul bir həll tapacaq.

# Makqreqor Puaryeni məğlub edəcəyindən əmindir

***İrlandiyalı qarışıq döyüş ustası Konor Makqreqor əmindir ki, amerikalı Dastin Puaryeni məğlub edə bilər.***

”Unikal” qəzeti “The Mirror” nəşrinə istinadən xəbər verir ki, 32 yaşlı irlandiyalı bu yaxınlarda məğlub olduğu Puarye ilə revanş döyüşü keçirmək arzusundadır. Konor üçüncü görüşdə qələbə qazanacağından əmindir.

Döyüşçünün sözlərinə görə, onun sonuncu məğlubiyyətinin səbəbi rəqibinin ayaq zərbələrinə hazır olmamasıdır.

“Həmin döyüşdə mən əla formada idim. Lakin rəqibimin ayaq zərbələri mənim üçün gözlənilməz oldu. Əgər bunun üzərində çalışsam onu məğlub edə bilərəm”, - deyə Makqreqor bildirib. Xatırladaq ki, Makqreqor və Puarye arasında son döyüş yanvarın 24-də baş tutub və irlandiyalı karyerasında ilk dəfə nokautla məğlub olub.

# Rusiya Futbol İttifaqının prezidenti məlum oldu

***”Rusiya futbolunda legioner limitini ləğv etmək hazırda mümkün deyil”.***

”Unikal” qəzeti xəbər verir ki, bunu Rusiya Futbol İttifaqının prezidenti Aleksandr Dyukov qurumun növbədənkənar Konfransından sonra jurnalistlərə açıqlamasında deyib.

Funksioner bildirib ki, Rusiya Premyer Liqasında ”8+17” limiti tətbiq edilir. Onun sözlərinə görə, hər klubun heyətində ən çox 8 əcnəbi futbolçu yer ala bilər. Dyukov deyib ki, yarışı hazırda limitsiz keçirmək mümkün deyil. Qeyd edək ki, hazırda ”Ximki”də çıxış edən Kamran Əliyevin Azərbaycan yığmasına cəlb olunması gözlənilir. Bu, baş versə, Əliyev Rusiya Premyer Liqasında legioner statusu daşıyacaq.

# Azərbaycan güləşçiləri Kiyevdəki beynəlxalq turnirə qatılır

***Azərbaycan güləşçiləri Kiyevdə Ukraynanın məşhur güləşçilərinin və məşqçilərinin xatirə turnirində iştirak edəcəklər.***

”Unikal” qəzetinin məlumatına görə, 24-cü dəfə keçiriləcək yarış 26 - 28 fevralda gerçəkləşəcək. Memorialda güləşin hər üç növündə qaliblər müəyyənləşəcək.

Qeyd edək ki, 2020-ci ildəki yarış pandemiyaya görə baş tutmayıb. 2019-cu ildə isə Azərbaycanı yunan-Roma güləşçiləri təmsil edib. 2020-ci ildə İtaliyanın paytaxtı Romada Avropa çempionu olan 77 kq çəki dərəcəsindəki Sənan Süleymanov həmin turnirdə də qızıl medal qazanıb.

# Ronaldu Avropada onilliyin ən yaxşı futbolçusu seçildi

***“Yuventus”un və futbol üzrə Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu Beynəlxalq Futbol Tarixi və Statistikası Federasiyası tərəfindən 2011-2020-ci illərin ən yaxşı avropalı futbolçusu seçilib.***

”Unikal” qəzetinin məlumatına görə, bu barədə federasiyanın rəsmi saytı məlumat yayıb. Reytinqin ikinci pilləsində ispaniyalı müdafiəçi Serxio Ramos qərarlaşıb. İlk üçlüyü “Bayern”in qapıçısı Manuel Noyer tamamlayıb. Cənubi Amerikada isə onilliyin ən yaxşısı Lionel Messi olub. İkinci pillənin sahibi Neymar, üçüncü pillənin sahibi isə onun həmyerlisi Dani Alves olub.

# Kuman Messinin transferi barədə danışan ulduz futbolçuya cavab verdi

***“Barselona”nın baş məşqçisi Ronald Kuman PSJ-nin futbolçusu Anxel Di Marianın Messinin Paris klubuna keçməsi ilə bağlı fikirlərinə reaksiya verib.***

”Unikal” qəzeti xəbərə verir ki, bu barədə “Marca” məlumat yayıb. “Bu mənə hörmətsizlik kimi gəlir. Bu cür sözləri deyənlər yanılırlar. Bizim oyunçumuz haqqında, “Barsa”ya qarşı bu cür danışmaq düzgün deyil. Onlar “Barselona”da oynayan Leo haqqında çox danışırlar”, - deyə R.Kuman bildirib.

Xatırladaq ki, PSJ-nin yarımmüdafiəçisi Anxel Di Maria Messinin komandaya transferinə ümid etdiyini və bunun üçün çoxlu imkanlar olduğunu açıqlayıb.

# Millimiz Dubaydakı Qran-priyə 6 idmançı ilə yollanır

***Azərbaycan Milli Paralimpiya Komitəsinin (MPK) para-atletika millisi Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək “Dubai 2021 World Para Athletics” Qran-prisində iştirak edəcək.***



MPK-dan ”Unikal” qəzetinə verilən məlumata görə, fevralın 6-da start götürəcək yarış öncəsi qurumun prezidenti İlqar Rəhimov komanda üzvlərini qəbul edib.

Görüşə MPK-nın baş katibi Kamal Məmmədov da qatılıb.

Rəhimov pandemiya səbəbindən uzun müddət yarışlardan kənarda qalan idmançılara uğurlar arzulayıb. O qeyd edib ki, yarış lisenziya xarakterli olduğundan Qran-pridə yaxşı nəticələr göstərmək olduqca vacibdir. Komandanın baş məşqçisi, ikiqat paralimpiya çempionu Oleq Panyutin idmançıların yarışlara hazır olduqlarını bildirib. Para-atletika üzrə Qran-Pridə ölkəmizi 6 idmançı təmsil edəcək. Qeyd edək ki, 3 para-atlet artıq “Tokio 2020” XVI Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb.